Bu bir xalq qəzetidi
ƏDALƏT

## Azərbaycan Ordusu bir sıra strateji yüksəkliyi nəzarətə götürüb



**Azərbaycan Ordusunun həyata keçirdiyi qətiyyətli cavab tədbirləri zamanı Ermənistanın təxribatının qarşısı alınıb, bölmələrimiz tərəfindən strateji əhəmiyyətə malik bir sıra hakim yüksəklik nəzarətə götürülüb.**

Adalet.az-ın xəbərinə görə, sentyabrın 12-si gecə saatlarından etibarən Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribat törədilib.

Ümumilikdə qarşı tərəfin 53 döyüş mövqeyi, 2 minaatan atəş mövqeyi, xeyli sayda hakim yüksəklik nəzarətə götürülüb.

## Dövlət Baxçalı: "Can Azərbaycan zalımlar qarşısında yalnız deyil"



**”Can Azərbaycan terror dövləti Ermənistan və arxasındakı zalımlar qarşısında yalnız deyil”.**

Adalet.az xəbər verir ki, bunu Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının sədri Dövlət Baxçalı tviter səhifəsində yazıb.

”Türk milləti soydaşlarının arxasındadır. MHP erməni hücumlarını lənətləyir. Biz Qarabağın azadlığına uzanan əllərin qırılcağına inanırıq. Qarabağ zəfərini qəbul etməyən erməni terrorçuları qanlı və xain təxribatlara əl atırlar”, - o bildirib. Partiya sədri əlavə edib ki, Ermənistanın Qarabağdakı hücumlarına səbr göstərilməyəcək.

## Günün fotosu - Səmərqənd



## Prezident "Qarabağ"ın qələbəsi haqda: Darmadağın!



**Azərbaycan Prezidenti İlham Əliyev ”Qarabağ” - ”Nant” qarşılaşması ilə bağlı Tvitterdə paylaşım edib.**

**Adalet.az xəbər verir ki, paylaşımda deyilir:**

**Qarabağ (Azərbaycan) - Nant (Fransa) - 3:0.**

**Darmadağın!**

**Qarabağ Azərbaycandır!**

## Nazirlikdən “Facebook” istifadəçilərinə xəbərdarlıq

**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti media qurumlarını "Facebook" sosial şəbəkə hesablarında paylaşım edərkən diqqətli olmağa çağırır.**

Adalet.az xəbər verir ki, "Facebook" sosial şəbəkəsinin müəyyən etdiyi qayda və şərtlərə uyğun olmayan məlumatların paylaşılması həmin sosial şəbəkə hesablarının bloklanması ilə nəticələnə bilər.

Elektron Təhlükəsizlik Xidməti bu həssas dönəmdə media qurumlarına "Facebook" sosial şəbəkə hesablarının bloklanmasının qarşısını almaq üçün xüsusilə aşağıdakı məzmunda məlumatları paylaşmamağı tövsiyə edir:

- Şəxsin irqi və milli mənsubiyyəti, dini və siyasi baxışları, əlilliyi və digər hallarla bağlı zorakılığa və təhqirə yol verilməsi;
- Şəxsiyyətin şərəf və ləyaqətinin alçaldılması, nifrətə çağırış, təhqir və böhtan xarakterli məlumatlar;
- İntihara yönləndirən, təşviq edən, intihar edən şəxsi təsvir edən paylaşımların edilməsi;
- Zorakılığın təbliği və təşviqi;
- Sağlamlıq və ictimaiyyət üçün təhlükə yaradan paylaşımların edilməsi.

**Qeyd edək ki, "Facebook"da istifadəçilər tərəfindən hər hansı qayda və şərtlərin pozulması halı baş verdikdə bu barədə istifadəçilərin "Facebook" hesablarına və qeydiyyatdan keçərkən istifadə etdikləri e-poçt ünvanına bildiriş və xəbərdarlıq göndərilir. Həmin bildirişlər və xəbərdarlıqlarda qeyd edilən təlimatlara qısa zamanda əməl edildiyi təqdirdə hesabların bloklanmasının qarşısı alınır. Bu səbəbdən media qurumlarına tövsiyə edilir ki, "Facebook" tərəfindən onların sosial şəbəkə hesablarına daxil olan bildirişlərə qarşı diqqətli olsunlar.**

## AXIR Kİ GÖZƏL BİR FUTBOLA TAMAŞA ETDİK



**Azərbaycan Çempionatının 6-cı turunda ”Qarabağ” ”Sabah”i qəbul etdi. Çox gözəl bir oyun oldu. Əsl derbi idi. Elə bil ”Barselona” ilə ”Real” oynayırdı. Bir oyunda 7 qol. Heç bir komanda bir-birindən çəkinmirdi, açıq futbol gedirdi. Birinci hissənin 43-cü dəqiqəsində ”Sabah”ın oyunçusu qırmızı vərəqə alıb oyunu tərk etdi. Təxminən ondan sonra ”Sabah” 50 dəqiqə 10 nəfərlə oynadı. Amma qorxmadı, çəkinmədi və müdafiəyə də çəkilmədi. Nəticədə iki gözəl qol vurdular. Bundan sonra Qurban Qurbanov güclü torpedalarını işə saldı. Və ”Sabah” müdafiəyə çəkildi. Bu da ona baha başa gəldi və nəticədə daha 2 top buraxdılar.**

”Qarabağ” qalib gəldi, amma heç-heçə daha ədalətli olardı. Mən ”Qarabağ”ın fanatı olsam da ”Sabah” elə gözəl oynayırdı ki, heç istəmirdim uduzsunlar.

Ümumiyyətlə, Murad Musayev gözəl bir komanda yaradıb, özünün oyun üslubu var, komanda fiziki cəhətdən də güclüdür. Belə görünür ki, ”Sabah” çempionluq uğrunda mübarizə aparır.

Uduzmalarına baxmayaraq, gözəl oyuna görə Murad Musayevi və ”Sabah” komandasının futbolçularını ürəkdən təbrik edirəm.

**Aqil ABBAS**

Bu bir xalq qəzetidi www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 41 (5978) 17 sentyabr 2022-ci il | Qiyməti 30 qəpik

# Prezident Səmərqənd Sammitində çıxış etdi




Bax:səh-2

## Burnunuzdan gəlməsin

***İstədim yazam ki, burnunuzdan gəlsin fransız hökuməti, fransız xalqı. Dedim, amma mədəniyyətsiz olar, fransız xalqı mədəni xalqdır axı. Ona görə də burnunuzdan gəlməsin. Noterdam yanında ermənilər gəlmədi sizə köməyə. Onu biz azərbaycanlılar təmir elətdirdik. Bu qədər naşükür olmayın. İstədim deyəm burnunuzdan gəlsin, amma fikirləşdim ki, siz mədəni xalqsız axı, ermənilər kimi. Ona görə də deyirəm burnunuzdan gəlməsin.***

## Araşdırdılar, şəhidin qardaşından üzr istətdilər

**Şəhid Səbuhi Əhmədovun qardaşı açıqlama vermişdi ki, qardaşı Komandaya düşmək üçün 6 min manat rüşvət verib. Onu da bankdan kredit götürüb. Bildirdilər ki, araşdırılacaq.**



Araşdırma nə ilə nəticələndi? Araşdırma onunla nəticələndi ki, şəhidin məzarının torpağı qurumamış qardaşından üzr istətdilər. Bu, biyabırçılıqdır. Müdafiə Nazirliyi, ayıbınıza kor olun. Ayıb eləmisən bir, ikinci ayıb da edirsən. Üstündən bir gün keçməmiş qardaşını çağırtdırıb üzr istədirsən. Susaydın da barı, heç olmasa. Yəqin ki, prokurorluq məsələni yenidən araşdırar. Amma prokurorluq üzr istətməz.

## 29 ildən sonra Ağalı kənd məktəbində zəng çalındı



**Ermənistanın işğalından azad olunan Zəngilan rayonunun Ağalı kənd tam orta məktəbində 29 ildən sonra ilk dəfə dərs başlayıb.**

Adalet.az xəbər verir ki, ilk olaraq Azərbaycanın Dövlət Himni səsləndirilib. Daha sonra şəhidlərin xatirəsi 1 dəqiqəlik sükutla yad edilib.

Ağalıda ilk dərs günündə elm və təhsil naziri Emin Əmrullayev, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev də iştirak edir.

Qeyd edək ki, 360 şagird yerlik ikimərtəbəli məktəbdə ilk dərs ”Qarabağ Azərbaycandır!” mövzusuna həsr olunub.

## İqor Korotçenko: “Ermənistanın məqsədi sülh müqaviləsinin imzalanmasını pozmaqdır”

**Rusiyalı hərbi ekspert, ”Nasionalnaya oborona” jurnalının baş redaktoru İqor Korotçenko Azərbaycan Ordusunun müxtəlif istiqamətlərində yerləşən mövqelərinin Ermənistan Silahlı Qüvvələri tərəfindən intensiv atəşə tutulmasına münasibət bildirib.**

Adalet.az-ın məlumatına görə, ekspert bu barədə social şəbəkə hesabında paylaşıb edib.

”Ermənistan tərəfinin silahlı təxribatında məqsəd Bakı ilə İrəvan arasında sülh müqaviləsinin imzalanmasını pozmaqdır. Tamamilə aydındır”-deyə, o bildirib.

## ÜST: «Koronavirusdan ölənlərin sayı ən aşağı həddə düşüb»

**Dünyada COVID-19-dan ölənlərin sayı ötən həftə 2020-ci ilin martından bəri ən aşağı səviyyəyə düşüb.**

Bu barədə çərşənbə günü Cenevrədə keçirdiyi brifinqdə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Qebreyesus bildirib.

O, bəyan edib ki, son bir həftə ərzində dünyada koronavirusa yoluxma halları 28% azalıb.

**”Son bir həftə ərzində dünyada 3,1 milyondan çox insan koronavirus infeksiyasına yoluxub, 11 minə yaxın insan dünyasını dəyişib. Yoluxmaların sayı əvvəlki yeddi günlə müqayisədə 28%, ölənlərin sayı isə 22% azalıb”, - deyə ÜST rəhbəri vurğulayıb.**

## “Qarabağ” ermənilərin böyük bacısını cırıq-cırıq elədi



**Dünən ”Qarabağ” komandası Fransanın Nant komandasını 3:0 hesabı ilə darmadağın elədi. Qarabağlılar demiş, cırıq-cırıq elədi. Sübut elədi ki, biz də futbol oynaya bilirik. Özü də təkcə futbol oynaya bilmirik, həm də gözəl döyüşürük. Azarkeşlər də bir daha birliyimizi sübut elədi. Eşq olsun Qurban Qurbanova və onun komandasına. Sayın Ərdoğan demiş, yola davam. Bir qədər Qarabağ komandası heç olmasa yaralarımızın üstünə su səpdi.**

## *"Bəziləri Türkiyə-Azərbaycan əlaqələrinin güclənməsindən narahatdır"*



***"Bəziləri Türkiyə-Azərbaycan əlaqələrinin güclənməsindən narahatdır".***

***Adalet.az-ın xəbərinə görə, bunu Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin rəisi Fəxrəddin Altun BMTM-in dəstəyi ilə onun Azərbaycan dilinə tərcümə olunaraq nəşr edilmiş "Türkiyə nizamsızlıq çağında sabitləşdirici güc kimi" adlı kitabının təqdimat mərasiminə ünvanladığı videomüraciətində deyib. Onun sözlərinə görə, Türkiyə müstəqil siyasət yürüdərək beynəlxalq arenada söz sahibi olan ölkəyə çevrilib: "Bu gün dünya ciddi humanitar böhranla üzləşib. Türkiyə məsum insanlara qapılarını açıb. Pandemiya başlayan zaman bəzi ölkələrin digər ölkələrə qoruyucu vasitələrin aparılmasına əl qoyduğunu xatırlayın. Bəziləri Azərbaycanla əlaqələrimizin güclənməsindən də narahatdır. Bunlar istəyirlər ki, kim nə deyirsə, versin və qurtaraq. Biz hər zaman hüquqdan və ədalətdən yanayıq".***

## "Tərtər işi"nə görə həbs olunan general-mayorla bağlı məhkəmə qərar verdi



**"Tərtər işi" ilə bağlı həbs olunan general-mayor Bəkir Orucov barəsində seçilmiş həbs qətimkan tədbirindən verilmiş apellyasiya şikayətinə baxılıb.**

APA xəbər verir ki, Bakı Apellyasiya Məhkəməsi iş üzrə qüvvədə olan qərarın dəyişdirilməsi üçün əsaslar müəyyən olunmadığı qənaətinə gəlib. Qərara əsasən, şikayət rədd olunaraq, Bakı Hərbi Məhkəməsinin qərarı qüvvədə saxlanılıb.

Qeyd edək ki, Baş Prokurorluğun yaydığı məlumatda bildirilib ki, "Tərtər işi" ilə bağlı cinayət işinin istintaqı zamanı ayrı-ayrı hərbi qulluqçulara işgəncə verməsi, onları qanunsuz azadlıqdan məhrum etməsi və digər cinayət əməlləri ilə bağlı əsaslı şübhələr müəyyən edilən Orucov Bəkir Şirin oğlu saxlanılıb. Bəkir Orucov Cinayət Məcəlləsinin 126.3 (ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olan qəsdən sağlamlığa ağır zərər vurma), 145.3 (qanunsuz azadlıqdan məhrum etmə), 293.3 (işgəncə, işgəncə hesab olunmayan qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza), 341.2.2 (vəzifə səlahiyyətlərini aşma) və 341.2.3-cü maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində məhkəmənin qərarları ilə həbs qətimkan tədbiri seçilib.

## Ukrayna daha bir Ka-52 helikopterini məhv etdi

**Dünən şərq istiqamətində rusların daha bir Ka-52 helikopteri məhv edilib. Bu barədə Ukrayna Silahlı Qüvvələri məlumat yayıb.**

”Sentyabrın 15-də Ukrayna ordusunun Hərbi Hava Qüvvələrinin zenit-raket bölmələri şərq istiqamətində daha bir Ka-52 helikopterini və operativ-taktiki PUA-nı məhv edib”, - məlumatda deyilir.

Qeyd olunur ki, müharibə ərzində Ukrayna Silahlı Qüvvələri 216 rus helikopterini məhv edib.

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

## ERMƏNİLƏR ƏKMƏDİKLƏRİNİ BECƏRMƏYİ BACARIRLAR



*70-ci illərin kitablarında (Rusiyanın tarix kitablarında və ensiklopediyalarında) Türkiyədə ermənilərin köçürülmə zamanı, uydurma "soyqırım" adlandırdıqları köçürülmə zamanı, guya 300 min ermənin tələf olunması qeyd edilirdi. Sonra zaman keçdikcə ermənilərin ölənlərinin sayı durmadan artmağa başladı: 500 min, sonra milyon yarım, daha sonra 3 milyon. Hərçənd ki, həmin dövrdə nəinki Türkiyədə, heç dünyada 3 milyon erməni yox idi.*

*Təmiz pripiska idi. Özü də ermənilər təkcə ölülərinin rəqəmlərini şişirtmirlər, dirilərinin də rəqəmini şişirtməklə, pripiskası ilə məşğul olmuşdu. Xüsusilə də Qarabağda.*

*İndi Qarabağdakı erməni əhalisinin siyahıya alınması gözlənilir. Axırıncı rəqəmə görə guya ki, Qarabağda 140 min erməni yaşayırdı. Əvvəla, heç Ermənistanın özündə 140 min erməni yaşamır, nəinki Qarabağda.*

Bax:səh-2

## URA! “SUMQAYIT” QOL VURDU



**Düzdür, qalib gələ bilmədi amma. Baş məşqçi Baqanın açıqlamasında özünə verdiyi təsəlliyə baxın. Deyir ki, ”Sumqayıt” nə vaxt çempion olub ki?**

Düzdür, çempion olmayıb, amma cədvəldə arxada sürünməyib, Avropa Liqasında da oynayıb.

Görək Baqanı nə vaxt yerli məşqçilər, komandası uduzanda ağlayan məşqçilər, əvəz edəcək?

# Prezident Səmərqənd Sammitində çıxış etdi



**Sentyabrın 16-da Səmərqənddə Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Sammiti keçirilib.**

Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Sammitdə iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi, digər ölkələrin dövlət və hökumət başçılarını qarşıladı. Dövlət və hökumət başçıları birgə foto çəkdirdilər.

Sonra Sammitin geniş tərkibdə iclası oldu.

Şanxay Əməkdaşlıq Təşkilatının sədri, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Sammitdə iştirak edən dövlət və hökumət başçılarını salamladı və çıxış etdi.

Azərbaycan Prezidenti tədbirdə çıxış etdi.

## *Prezident İlham Əliyevin çıxışı*

**- Hörmətli Şavkat Miromonoviç.**
**Hörmətli dövlət və hökumət başçıları.**
**Xanımlar və cənablar.**

İlk növbədə, məni Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə görüşünə dəvət etdiyinə görə Özbəkistan Prezidenti Şavkat Miromonoviç Mirziyoyevə minnətdarlığımı bildirmək istərdim.

Bir neçə ay əvvəl mənim Özbəkistana çox uğurlu dövlət səfərim olub və bu gün yenidən qardaş Özbəkistan torpağında, qədim və gözəl Səmərqənd şəhərində olmaqdan məmnunam.

Qardaşım Şavkat Mirziyoyevin rəhbərliyi ilə Özbəkistan son illər sürətli inkişaf və uğurlu islahatlar yolu keçib.

Mən həmkarlarıma Azərbaycanın tranzit və nəqliyyat-logistika imkanları barədə məlumat vermək istərdim.

Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri kimi regional kommunikasiya layihələrinin işə düşməsinə sanballı töhfələr verib.

Hazırda Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ildə 15 milyon ton yükaşırma qabiliyyətinə malikdir və bu, ildə 25 milyon tona qədər artırıla bilər.

Bu ilin ilk 7 ayında Azərbaycan ərazisindən keçən tranzit 50 faizə yaxın artıb.

Azərbaycan 52 gəmi ilə Xəzər dənizində ən böyük mülki yük donanmasına malikdir. Bakı gəmiqayırma zavodu bütün növ gəmilər istehsal edə bilir.

Son 20 ildə Azərbaycanda 19 min kilometr avtomobil yolu, 1400 kilometr dəmir yolu tikilib və ya əsaslı təmir edilib. Bu gün Azərbaycan 2020-ci il İkinci Qarabağ müharibəsindəki Qələbədən sonra işğaldan azad edilmiş ərazilərdə minlərlə kilometr avtomobil yolu və yüzlərlə kilometr dəmir yolu çəkir.

Azərbaycan 18 təyyarə ilə regionumuzda ən böyük mülki hava yük donanmalarından birinə malikdir.

2024-cü ilin sonuna qədər ölkədə beynəlxalq hava limanlarının ümumi sayı bugünkü 7-dən 9-a çatdırılacaq.

2020-ci ilin sonunda Qarabağ münaqişəsinin həlli regionumuzda nəqliyyat-kommunikasiya layihələrinin inkişafı üçün yeni imkanlar yaradıb. Zəngəzur dəhlizi açıldıqdan sonra bu, region ölkələrinin nəqliyyat imkanlarını daha da artıracaq və marşrut boyu yerləşən bütün ölkələr üçün faydalı olacaqdır.

Azərbaycan Ermənistana ölkələrin bir-birinin suverenliyinin və ərazi bütövlüyünün qarşılıqlı tanınmasına əsaslanan sülh müqaviləsi üçün beş əsas prinsip təqdim edib. İndi biz ilkin şərtlər və süni ləngimələr olmadan sülh sazişi layihəsi üzərində işə başlamalıyıq.

Lakin təəssüf ki, bu il sentyabrın 13-də Ermənistan Azərbaycanla dövlət sərhədində genişmiqyaslı hərbi təxribat törətmişdir. Azərbaycan silahlı qüvvələri bu təxribatın qarşısını qətiyyətlə almışdır. Ermənistanın bu təxribatı iki ölkə arasında normallaşdırma prosesinə böyük bir zərbədir. Buna görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Hörmətli həmkarlar.

Bəzi aparıcı beynəlxalq təşkilatların səmərəsizliyi narahatlıq doğurur. Bununla əlaqədar 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını tələb edən dörd qətnaməsini qeyd etmək istərdim. Təhlükəsizlik Şurasının bəzi qətnamələri bir neçə gün ərzində yerinə yetirildiyi halda, bizim vəziyyətimizlə bağlı qəbul olunmuş qətnamələr 27 il ərzində icra olunmamış qaldı. Azərbaycan Qarabağ münaqişəsini özü hərbi-siyasi yolla həll edib və Təhlükəsizlik Şurasının yuxarıda qeyd olunan qətnamələrinin icrasını təmin edib.

2019-cu ildən Azərbaycan 120 ölkəni birləşdirən, BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına sədrlik edir. Bizim sədrliyimiz yekdilliklə daha bir il - 2023-cü ilə qədər uzadılıb və bu, ölkəmizə olan hörmətin və etimadın göstəricisidir. Azərbaycan öz fəaliyyətini beynəlxalq hüquqa, ədalətə və qlobal təhlükəsizliyə əsaslanaraq həyata keçirməkdə davam edəcək.

Diqqətinizə görə sağ olun.

***

Prezident İlham Əliyevə təşəkkür edən Özbəkistan Prezidenti Şavkat Mirziyoyev dedi: Məzmunlu çıxışınıza görə sağ olun, hörmətli İlham Heydər oğlu. Sizin qeyd etdiyiniz kimi, ilk növbədə nəqliyyat-kommunikasiya və iqtisadi-ticari sahələrdə Azərbaycan ilə regional əməkdaşlığın inkişaf etdirilməsi bizim üçün xüsusi maraq doğurur.

***

Sammitdə digər dövlət və hökumət başçıları da çıxış etdilər.

Sonra təşkilati məsələlərə baxıldı, qərarlar qəbul olundu və Şanxay Əməkdaşlıq Təşkilatının Səmərqənd Bəyannaməsi imzalandı.

***

Qeyd edək ki, Şanxay Əməkdaşlıq Təşkilatı 2001-ci ildə Qazaxıstan, Çin, Qırğızıstan, Rusiya, Özbəkistan və Tacikistan tərəfindən Şanxayda təsis olunub.

Təşkilatın əsas məqsədləri üzv dövlətlər arasında qarşılıqlı etimad və qonşuluq münasibətlərinin gücləndirilməsi; siyasət, ticarət və iqtisadiyyat, elm və texnologiya, mədəniyyət, o cümlədən təhsil, enerji, nəqliyyat, turizm, ətraf mühitin qorunması və digər sahələrdə effektiv əməkdaşlığın inkişaf etdirilməsi; regionda sülh, təhlükəsizlik və sabitliyin əldə edilməsi üçün birgə səylərin göstərilməsi, yeni siyasi və iqtisadi beynəlxalq düzənin yaradılması üçün addımların atılmasından ibarətdir.

**Azərbaycan hazırda ŞƏT-də dialoq tərəfdaşı statusuna sahibdir. 2016-cı ildə Azərbaycan ilə ŞƏT arasında əməkdaşlıq sahələrini əks etdirən memorandum imzalanıb. ŞƏT ilə əməkdaşlıq istiqamətləri arasında təşkilatın ənənəvi prioritet sahələri olan və Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edən terrorizm, ekstremizm və separatizm ilə mübarizə, regional təhlükəsizliyin və sabitliyin təminatı müəyyənləşdirilib. Həmçinin ölkəmizin beynəlxalq müstəvidə mühüm rol oynadığı sivilizasiyalararası dialoq, multikulturalizm və tolerantlığın təşviqi sahələri də diqqət mərkəzində olan məsələlərdəndir.**

# *“Brüssel görüşündən sonra Ermənistan sülhə daha çox yaxınlaşmaq əvəzinə təxribata əl atdı”*

**Sentyabrın 12-də erməni diversiya qruplarının Azərbaycan dövlət sərhədini pozaraq Daşkəsən, Kəlbəcər, Laçın istiqamətində təxribatlarına cavab olaraq, hər dəfə olduğu kimi bu dəfə də Ordumuz qısa zamanda və peşəkarlıqla üzərinə düşən vəzifələri yerinə yetirdi. Ermənistanın sərhəddəki hərbi nöqtələri şəxsi heyətlə birlikdə məhv edildi. Silahlı Qüvvələrimiz ölkəmizin sərhədlərində və hərbi hissələrimizin mövqeyinə təhdid və təhlükə yarada biləcək bütün strateji nöqtələri nəzarətə götürdü.**

### *Rəsmi İrəvan regionda təcavüzkar və işğalçı olduğunu bir daha təsdiqləyir*

***Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov*** baş vermiş təxribatla bağlı fikirlərini bölüşərək qeyd edib ki, "Sülh müqaviləsi üzrə danışıqlar prosesinin baş tutmasını pozmaq, götürdükləri öhdəlikləri yerinə yetirməmək, qeyri-səmimilik, təxribat törətmək Ermənistanın hərbi-siyasi



rəhbərliyinin köhnə siyasətidir. Amma bu siyasətin axırı yoxdur. Ermənistan silahlı qüvvələrinin təxribatının və ölkəmizin ərazisinə və suverenliyinə qarşı hərbi təhlükələrin qarşısının alınması, hərbi qulluqçularımızın, o cümlədən Kəlbəcər və Laçın rayonları ərazisində infrastruktur işlərinə cəlb olunmuş mülki işçilərin təhlükəsizliyinin təmin edilməsi məqsədilə, döyüş toqquşmasının miqyasının genişlənməsinin qarşısı alınıb və Ermənistan silahlı qüvvələrinin atəş nöqtələrinin susdurulması istiqamətində Azərbaycan Ordusunun bu istiqamətdə dislokasiya olunan bölmələri tərəfindən qəti cavab tədbirləri görülüb".

Deputatın sözlərinə görə, son bir ay ərzində Ermənistan silahlı qüvvələrinin dövlət sərhədinin Laçın, Gədəbəy, Daşkəsən və Kəlbəcər rayonları istiqamətində təxribatları, Ordumuzun həmin rayonların ərazisindəki mövqelərinin müxtəlif çaplı silahlardan atəşə tutulması halları intensiv və sistematik xarakter daşıyırdı: "Azərbaycan Ermənistana təxribatlarından əl çəkməsinə görə dəfələrlə xəbərdarlıq etmişdi. Onlar bilməlidirlər ki, ölkəmizə qarşı istənilən təxribatın cavabı ağır olacaq. Avqustun əvvəlində "Qisas" əməliyyatı zamanı da Ermənistana dərs verildi. Amma görünür, bu da Ermənistana bəs etmədi. Brüssel görüşündən sonra Ermənistan sülhə daha çox yaxınlaşmaq əvəzinə təxribata əl atdı.

Halbuki Brüssel razılaşmasına görə Ermənistan humanitar məsələlər üzrə götürdüyü öhdəlikləri yerinə yetirməli idi. Amma biz əksini gördük. Qarşı tərəf bir qədər də azğınlaşaraq, daha genişmiqyaslı təxribatlar törətdi. Azərbaycan Ordusunun bölmələrinin mövqeləri arasındakı əraziləri və təminat yollarının minalanmasını həyata keçirərək, vəziyyəti daha da gərginləşdirdi. Azərbaycan ərazilərində neçə gündür təxribatları davam etdirməklə rəsmi İrəvan regionda təcavüzkar və işğalçı olduğunu bir daha təsdiqləyir. Təxribat davam etdikcə qisas da daha sərt şəkildə davam edəcək. Ermənistanın qeyri-qanuni silahlı qüvvələrinin şəxsi heyəti və texnikasının Azərbaycan Qarabağ İqtisadi Zonasında mövcudluğu heç bir halda qəbul edilə bilməz. 10 noyabr 2020-ci il bəyanatında da qeyd olunduğu kimi, bu qanunsuz birləşmələr Azərbaycan ərazilərindən çıxmalıdır".

Z.Əsgərov qeyd edib ki, Ermənistanın siyasi-hərbi rəhbərliyi ikiüzlü siyasətindən əl çəkməli, qəsdən regionda vəziyyəti gərginləşdirməməli, sülh müqaviləsi üzrə danışıqların baş tutmasını pozmamalı, 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanat üzrə öhdəliklərini yerinə yetirməlidir: "Hesab edirəm ki, Ermənistanın bütün hərbçiləri Azərbaycan ərazisindən çıxarılmalı, Azərbaycan sərhədinin yaxınlığında təhlükəsiz zona yaradılmalıdır. Bununla da Ermənistan sülhə məcbur edilməlidir. Çünki erməni revanşizminin baş qaldırmasına imkan vermək olmaz".

### *Paşinyan demək olar ki, ağlını itirib*

"10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixində Rusiya, Azərbaycan və Ermənistan arasında imzalanmış üçtərəfli müqaviləyə baxmayaraq Ermənistanın bugünədək törətdiyi təxribatlar və revanşist qüvvələrin cinayətləri Ermənistanın təcavüzkar mövqeyini bir daha sübut edir". Bu sözləri ***Milli Məclisin deputatı Məlahət İbrahimqızı*** deyib.

Onun sözlərinə görə, Azərbaycan Respublikasının Prezidenti Müzəffər Ali Baş Komandan möhtəşəm qələbənin ilk müjdəsini xalqımıza verərkən, qeyd etdi ki, artıq Azərbaycan xalqı öz torpaqlarını işğaldan azad etdi:

"Biz bundan sonra bölgə tarixinin yeni səhifəsini başlayırıq. Bu səhifə tarixə bölgədə dayanıqlı sülh, əmin-amanlıq, sabitlik və inkişaf səhifəsi olacaqdır. Əslində, otuz illik işğal tarixində də dövlət baçısı bu münaqişənin danışıqlar yolu ilə həll olunmasına çalışıb.

Lakin təcavüzkar dövlət heç vaxt bu cəhdlərə əhəmiyyət verməyib.

Hətta BMT-nin və bir sıra beynəlxalq təşkilatların qəbul etdiyi heç bir sənədinə məhəl verməyib. Bununla bərabər, Brüsseldə keçirilən üçtərəfli görüş zamanı bölgədə sülhün və əmin-amanlığın təmin olunması, iki ölkə arasındakı münasibətlərin tənzimlənməsi və sülh müqaviləsinin imzalanması ilə bağlı danışıqlar aparıldı. Sülh müqaviləsinin imzalanması ilə bağlı Prezident İlham Əliyev 5 şərti irəli sürdü. Sonuncu Brüssel görüşündə də həmin 5 şərti Paşinyan qəbul etdi.



Dövlət başçısı İtaliyada beynəlxalq konfransda jurnalistlərə müsahibə verərkən bunu dilə gətirdi. 31 avqustda Brüssel görüşündən qayıtdıqdan sonra Paşinyan demək olar ki, ağlını itirib. Sərsəm çıxışlarında bildirib ki, Zəngəzur dəhlizi ilə bağlı guya hər hansı bir direniş etmək niyyətindədir. O dərk etmir ki, Zəngəzur dəhlizinin açılması ilə bağlı öhdəlik götürüb, imza atıb".

Deputat fikirlərinə davam edərək həmçinin qeyd edib ki, təcavüzkar siyasətindən əl çəkməyən Ermənistan daim sülh prosesini uzadır:

"Onların bu prosesi uzatmaqda məqsədi Zəngəzur dəhlizinin açılması ilə bağlıdır. Prezidentin Ermənistan tərəfinə verdiyi təkliflərdən ən əsası da elə Zəngəzur dəhlizinin açılması idi. 31 avqustda Şarl Mişel üçtərəfli görüşün nəticələri ilə bağlı verdiyi bəyanatda kommunikasiyaların açılmasını bildirdi.

Bu gün dünya erməni diasporu və Ermənistanın daxilində olan revanşist qüvvələr, erməni lobbisi Azərbaycanın əldə etdiyi möhtəşəm Zəfərini, Azərbaycanın gündən-günə inkişaf etməsini qəbul etmək istəmirlər. Bu səbəbdən də onlar Paşinyana təzyiq edirlər. Ona görə də erməni revanşistləri iki il ərzində vaxtaşırı müxtəlif yerlərdən hərbi təxribatlar törədiblər. Bu təxribatların qarşısını Azərbaycan tərəfi hər dəfəsində alıb. Sarsılmaz dəmir yumruq öz zərbəsini vurub. Azərbaycan dövləti bu 30 il ərzində münaqişənin sülh yolu ilə həll olunmasının tərəfdarı idi. Prezidentin də bildirdiyi kimi, onlar baş qaldırdıqca onların başını əzəcəyik. Bundan sonra bir dəfə təcavüzkar, işğal niyyətli hər hansı bir qüvvə baş qaldırsa, o baş necə lazımdırsa, əziləcək. Etiraf etməliyik ki, bu məsələdə fransız siyasətçiləri də var. Eyni zamanda, Amerika konqresində vaxtaşırı bir qrup ermənipərəst onlar Ermənistan tərəfini daha da qızışdırırlar.

Ermənilərin yenidən atəşkəsi pozması dözüləsi bir hadisə deyildi. Əsgərlərimiz ordu rəhbərliyinin göstərişi ilə işğalçı Ermənistan tərəfinin sərhədlərimizə qarşı törətdiyi təxribatın qarşısının alınması üçün dəmir yumruq növbəti zərbəsini endirdi. Çox təəssüflə qeyd edim ki, əməliyyat zamanı Şanlı Ordumuzun əsgər və zabitləri şəhid oldu.

Biz şəhidlərimizin ruhu qarşısında baş əyirik. Vətən torpağının hər qarışında şəhidlərimizin qanı var".

### *Ərazi bütövlüyünün təhlükəsizliyini qorumaq Azərbaycanın suveren hüququdur*

"Ermənistan tərəfi təcavüzkar siyasətini davam etdirərək sentyabrın 12-də gecə saatlarından başlayaraq dövlət sərhədində genişmiqyaslı təxribatlar törədib. Bu, birbaşa beynəlxalq hüququn norma və prinsiplərinin, Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında imzalanmış üçtərəfli bəyanatların, həmçinin əldə olunmuş digər razılaşmaların kobud şəkildə pozulmasıdır. Aydın görünür ki, Azərbaycanın münasibətlərin normallaşdırılması istiqamətində səylərini Ermənistan pozmaqla məşğuldur, sülhə doğru atılan addımlara müxtəlif təxribatlarla mane olmağa çalışır". Bu fikirləri isə ***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev*** səsləndirib.

Onun sözlərinə görə, son zamanlar Laçında və digər ərazilərdə minaların yerləşdirilməsi, dövlət sərhədi boyunca hərbiləşmənin artırılması, həmçinin erməni silahlı birləşmələrinin Azərbaycan ərazisindən çıxarılmaması gərginliyin yüksəldilməsinə hesablanmış ad-



dımlardır və Ermənistan bu tipli əməlləri ilə danışıqları əngəlləməyə çalışır:

"Törədilən son hərbi təxribat da qeyd etdiyim çirikin əməllərin davamıdır. Təcavüzkar dövlətin belə əməllərinə, təbii ki, cavab vermək, təhlükə doğuran legitim hədəfləri məhv etmək, ərazi bütövlüyünün təhlükəsizliyini qorumaq Azərbaycanın suveren hüququdur.

Ermənistan tərəfi, o cümlədən başıpozuq revanşist qüvvələr hələ də anlamırlar ki, onlar törətdikləri təxribatlarla heç nəyə nail ola bilməyəcəklər. Onların qarşısında güclü və yenilməz, iki il öncə təcavüzkar ordularını məhv etmiş müzəffər bir Ordu dayanır. Ona görə reallıqlarla barışmalı, bu kimi təxribatlardan əl çəkməli, Azərbaycanın sülh səylərinə qarşılıq verməlidirlər. Yalnız bu onların yeganə xilas yoludur".

**Nicat Novruzoğlu**

*Aqil ABBAS*

# ERMƏNİLƏR ƏKMƏDİKLƏRİNİ BECƏRMƏYİ BACARIRLAR

***70-ci illərin kitablarında (Rusiyanın tarix kitablarında və ensiklopediyalarında) Türkiyədə ermənilərin köçürülmə zamanı, uydurma "soyqırım" adlandırdıqları köçürülmə zamanı, guya 300 min erməninin tələf olunması qeyd edilirdi. Sonra zaman keçdikcə ermənilərin ölənlərinin sayı durmadan artmağa başladı: 500 min, sonra milyon yarım, daha sonra 3 milyon. Hərçənd ki, həmin dövrdə nəinki Türkiyədə, heç dünyada 3 milyon erməni yox idi.***

***Təmiz pripiska idi. Özü də ermənilər təkcə ölülərinin rəqəmlərini şişirtmirlər, dirilərinin də rəqəmini şişirtməklə, pripiskası ilə məşğul olmuşdu. Xüsusilə də Qarabağda.***

***İndi Qarabağdakı erməni əhalisinin siyahıya alınması gözlənilir. Axırıncı rəqəmə görə guya ki, Qarabağda 140 min erməni yaşayırdı. Əvvəla, heç Ermənistanın özündə 140 min erməni yaşamır, nəinki Qarabağda.***

***Sovet dönəmində bizim Statistika Komitəsi bu məsələyə ciddi yanaşmayıb. Heç olmasa barı indi ciddi yanaşsın. Mən bu sahənin mütəxəssisi deyiləm, amma bildiyim şeylər var.***

***Məsələn, Statistika Komitəsi çıxarmalıdır ki, o zamankı Dağlıq Qarabağ Vilayətində 50-ci illərdə, 60-cı illərdə, 70-80-ci illərdə nə qədər erməni yaşayıb? Və həmin illərdəki əhalinin artım faizini hesablasınlar. Hər on ildə bir dəfə. Azərbaycanda əhalinin artım faizi hər on ildə 10 faiz artır. Azərbaycanlılar əsasən çoxuşaqlı olurlar. Sovetlər zamanı "Qəhrəman ana"ların sayına görə Azərbaycan 1-ci yeri tuturdu. Ən kiçik ailələrdə belə 5-6 uşaq olardı. Məsələn, biz 8 uşaq idik.***

***Ermənilərdə isə çoxuşaqlı ailələr dəb deyil. Statistikaya baxın görün neçə erməni qadını "Qəhrəman ana"dır?***

***Bir məsələyə də diqqəti çəkim. Sovetlər dönəmində Dağlıq Qarabağda fəaliyyət göstərən əlaqədar təşkilatlar əhalinin sayını artırmaq üçün ciddi planla işləyirdilər. Bakıda qeydiyyatda olan erməni eyni zamanda ya Xankəndində, ya Əsgəranda, ya Ağdərədə, nə bilim daha hansı şəhər və kəndlərdə qeydiyyata salınırdılar. Eləcə də Ermənistanda yaşayan ermənilərin ikili qeydiyyatı vardı. Həm Ermənistanda, həm də Qarabağda adlarını çəkdiyim şəhər və kəndlərin birində. Bununla da süni surətdə ermənilərin sayını artırırdılar.***

***Əksinə, Dağlıq Qarabağda doğulmuş, boya-başa çatmış, sonra Bakıda və ya respublikanın hansısa rayonlarında işləmiş, ail məktəb bitirmiş azərbaycanlılar sonradan Şuşaya, Xocalıya, Ağdərəyə, Xocavəndə, Hadruta qeydiyyata düşə bilmirdilər. Daha dəqiq desək, vilayətin pasport-masa idarələri onları qeydiyyata almırdı. Elə mənim bir həkim dostum təyinatla Şuşaya göndərilmişdi, 10 ildən çox Şuşada çalışdı, amma Şuşa qeydiyyatına düşə bilmədi. Məcbur olub gəlib Ağdam qeydiyyatına düşmüşdü.***

***70-ci illərin statistikasında yazılırdı ki, Dağlıq Qarabağın 120 min əhalisi var, onun 80 mini ermənidi, 40 mini azərbaycanlı. Əslində isə azərbaycanlı əhali 60 min idi. Bunlar əsasən Şuşada, Xankəndində, Xocavənddə, Xocalıda, Ağdərədə yaşayırdılar.***

***Şuşada 15 min, Xankəndində 15 min, Xocalı və Xocavənddə 15 mindən çox, Ağdərədə də 14 min.***

***Ağdərə rayonu səriştəsizlikdən ləğv olunanda rayonun azərbaycanlı əhalisi Kəlbəcər, Tərtər və Ağdam rayonları arasında pay-püruş edildi. Təkcə Ağdamın payına 4900-dən artıq azərbaycanlı düşmüşdü.***

***Heydər Əliyev hakimiyyətə gələndən sonra ağdərəlilər çalışırdılar ki, rayonları bərpa olunsun. Həmin vaxt mənə də müraciət ünvanlamışdılar, həmin müraciəti də Ağdamda yaşayan ağdərəlilər imzalamışdı. 4900-dən artıq imza vardı. Mən deputat seçiləndən sonra ağdərəlilərin müraciətini Parlamentdə səsləndirmişdim. Və xahiş etmişdim ki, Xalq Cəbhəsinin səriştəsizliyi ucbatından ləğv olunmuş Ağdərə rayonu yenidən bərpa edilsin. Hələ ermənilər Qarabağı işğal altında saxlayanda Tərtər batalyonu, üçü böyük kənd olmaqla, ona yaxın kəndi işğaldan azad etmişdi. Və ermənilər həmin kəndləri heç vaxt geri ala bilmədilər. Təklif etmişdim ki, o zaman ən böyük kənd olan Mərguşavan kəndini rayon mərkəzi eləsinlər. Xocalının bir kəndi bizdə olmaya-olmaya onlar üçün Goranboyda yer ayrıldı - Ağcakənddə və rayonun bütün strukturları orda yerləşdirildi.***

***Demirəm, indi Ağdərə rayonunu indi bərpa edək, onsuz da Qarabağda Azərbaycan hakimiyyəti tam bərpa olunacaq, onda Ağdərənin əhalisi də öz şəhər və kəndlərinə qayıdıb qeydiyyata düşəcəklər.***

***Yəni indi Qarabağda əhalinin siyahıya alınması başlasa və təbii ki, o komissiyada biz də iştirak etməliyik və onda görəcəyik ki, erməni əhalisinin sayı 30-40 mini keçmir. Çünki çətinlikdə yaşayan ermənilər rahat yer axtarırlar. Hər il Ermənistandan nə qədər əhali Rusiyaya və dünyanın bütün ölkələrinə dağıldığı kimi, Qarabağda yaşayan ermənilər də öz böyük qardaşları kimi rahat yaşamağa yer axtarıblar. Şuşaya gedib-gələnlər azad olunmuş erməni kəndlərindən keçib gedirlər. O kəndlərdə normal yaşamaq üçün bir ev tapa bilməzsiniz. Məsələn, evlər var ki, 30 il aynabəndlərinə rəng vurulmayıb, damları çürüyüb, təmir etməyiblər. Hərçənd bilirik ki, ermənilər yaxşı ustadılar, bir az Xankəndində normal həyat olub. O da Amerikanın, Avropa dövlətlərinin qanunsuz olaraq ermənilər üçün 30 ildə ayırdığı milyardlarla dolların hesabına.***

***Ermənilərin xislətindədi - əkmədiklərini yaxşı becərə bilirlər. İndi də əkmədikləri insanların dibinə su tökməklə becərib saylarını artırırlar.***

# AXCP sədri Əli Kərimli nədən narazıdır?

**44 günlük Zəfər Qələbəsindən sonra, 2020-ci il 10 noyabr tarixində Rusiya, Azərbaycan və Ermənistan rəhbərləri tərəfindən imzalanmış üçtərəfli Bəyanatın şərtlərinə əməl etmək istəməyən Ermənistan tərəfi, ötən iki ilə yaxın zaman ərzində dövlət sərhədlərin müəyyənləşdirilməsi və sülh müqaviləsinin bağlanmasının qarşısını almaq üçün tez-tez təxribatlar törətməklə əngəlləməyə çalışır. Hər dəfə də, avqust ayında törətdikləri təxribata cavab olaraq, Azərbaycan ordusu tərəfindən keçirilən ”Qisas” əməliyyatlarından nəticə çıxarmırlar. Ermənistan rəhbərliyi daim əldə olunan razılaşmanın şərtlərini pozaraq Cənubi Qafqazda stabilliyi pozmağa çalışır.**

Sentyabr ayının 12-dən 13-nə keçən gecədə Ermənistan növbəti dəfə təxribata əl ataraq, sərhədlərimizdə yerləşən mövqelərimizə artileriya və minamyotlardan atəş açıblar. Nəticədə hərbiçilərimiz arasında ölən və yaralananlar var. Milli Ordumuzun qəhrəman əsgərləri dərhal erməni qoşunlarının cavabını vermək məcburiyyətində qalaraq, düşmənin sərhəd boyu mövqelərini yerlə yeksan edərək, onlara ağır zərbələr endiriblər. Ermənistan tərəfi yüzlərlə canlı və hərbi texnikasını itirib.

Ağır itkilərə məruz qalan Ermənistan rəhbərliyi, törətdiyi təxribatın cavabını artıqlaması ilə almaqdadır və Ali Baş Komandanımızın dediyi kimi, bundan sonra da alacaqdır.

Ali Baş Komandanımızın rəhbərliyi ilə, 30 ilə yaxın erməni terrorçularının işğalı altında qalan torpaqlarımızın, Müzəffər Or-



dumuzun qənhrəman əsgərləri tərəfindən azad olunması, 44 gün ərzində möhtəşəm ”Zəfər Qələbəsi” qazanması, ölkəmiz daxilindəki bəzi qüvvələri, deyəsən ciddi narahat etməkdədir. Düşmənlərimizin, bizə dost olmayan dövlətlərin bu qələbəni həzm edə bilməməsi hardasa başa düşüləndi. Lakin özünü radikal müxalifət adlandıran Əli Kərimli və onun tərəfdarlarının Zəfər Qələbəmizə, dünyanın hərb tarixinə yazılacaq möhtəşəm döyüş bacarığına kölgə salmaq niyyətlərini heç cür anlamaq olmur.AXCP-nin sədri, özünün facebook səhifəsində yazır ki, ”İndi hər bir azərbaycanlını bir sual düşündürür. ”Acından ölən” düşmənə cəmi bir neçə saatlıq döyüşdə nəyə görə bu qədər çox-50 nəfər şəhid vermişik?” Əvvala, cəmisi özlərinin də etiraf etdikləri kimi bir neçə min üzvü olan bir partiya sədrinə kim elə bir səlahiyyət verir ki, hər bir azərbaycanlının adından danışsın. İkincisi də, müharibədə iştirak etməyən, düşmənlə gecə-gündüz qarşı-qarşıya çətin relyefi olan səngərlərdə dayanmayan Əli Kərimlinin Milli Ordumuzu, hansı ki, cəmisi 44 gün ərzində torpaqlarımızı qəhrəmancasına işğaldan azad edən igid əsgərlərimizin əməyini bu qədər kiçiltməkdə məqsədi nədir?

Əli Kərimli hələ bununla da kifayətlənmir, NATO-nun Ali Hərbi Akademiyalarını bitirmiş generallar kimi, ”Ordunun savaş zamanı az itki verməsi üçün nələr lazımdı” sualarına cavab verməyə qalıxır. Maraqlısı odur ki, ”ağıllı məsləhətlərindən” sonra, özü-özünü təkzib edərək, bildirir ki, həmin döyüşlərdə ”şəhid olan hərbiçilərimizin zabit və gizir olduğu döyüşlərdə iştirak edən hərbiçilərin hərbi hazırlığı yüksək olub və ”Hərbiçilərimizin hazırlıqsız olub” versiyası tam istisna olunur”. İndi sual olunur, Əli Kərimli, bəs onda sizi belə ”dərin” düşünməyə vadar edən səbəb nədir?

Statısu oxuduqca məlum olub ki, Əli bəyi ”narahat” edən məsələ guya ”bir belə itki verməklə heç nə əldə edilməyib”. AXCP sədri dövlətimizin aidiyyatı qurumlarıın əldə etdikləri nəticələrlə bağlı verdikləri məlumatlara inanmırsa, onda heç olmasa rəğbət bəslədiyi Ermənistanın baş naziri Paşinyanın Ermənistan parlamentindəki çıxışına baxsın. Paşinyan açıq şəkildə etiraf edir ki, ”Ermənistan bir gecədə yüzdən çox canlı itki verib və 10 min kv.kilomert ərazisini itirib”. Əli bəy, sizcə bu Müzəffər Ordumuzun qəhrəman əsgərlərinin əldə etdiyi nailliyyətlər sayılmırmı?

Kərimli sonda yazır ki, ”Başda İlham Əliyev olmaqla hökumət bu suallara cavab, millətə izahat verməlidir”. Əli Kərimli, Azərbaycan Respublikasının Prezidenti, Hərbi Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə qazandığı 44 Günlük ”Zəfər Qələbəsi” ilə, 30 ilə yaxın düşmən işğalı altında olan torpaqlarımızı azad edərək, təkcə millət qarşısında deyil, dünya ictimayyəti qarşısında bütün suallara cavab verib.

**Sonda Əli bəyə kiçik bir yaddaş xatırlaması. Sizin də hakimiyyətdə olduğunuz bir il ərzində, Birinci Qarabağ müharibəsində, Orduda yaratdığınız xaos, özbaşınalıq nəticəsində Azərbaycan xalqı 20 mindən çox şəhid, 50 mindən çox qazi verib... Kaş ki, ”ağıllı məsləhətlərinizi” onda verəydiniz...**

**”Ədalət”**

## *Bakıda uşaqlara işgəncə verən direktordan xəbər var*



**Bakı Apellyasiya Məhkəməsində Nizami rayonunda yerləşən ”Mehnur” loqopedik reabilitasiya mərkəzində azyaşlılara işgəncə verilməsi faktı ilə bağlı istintaqa cəlb olunan mərkəzin direktoru Nuranə Hacızadə, psixoloq Aytac Kazımlı və direktor köməkçisi Səbinə Əliyarbəyli barəsində seçilmiş ev dustaqlığı qətimkan tədbirindən zərərçəkmiş şəxs tərəfindən verilən şikayətə baxılıb.**

Adalet.az bildirir ki, prosesdə qərar elan olunub.

Qərara əsasən, zərərçəkmiş şəxsin verdiyi şikayət təmin olunmayıb və Nizami rayon Məhkəməsinin qərarı dəyişdirilmədən saxlanılıb.

Xatırladaq ki, iş üzrə zərərçəkmiş kimi tanınan uşaqlardan birinin valideyni Elxan Muradov hər 3 şəxs barəsində ev dustaqlığı qətimkan tədbirinin ləğvini və onlar barəsində həbs qətimkan tədbirinin seçilməsini ilə bağlı apelyasiya şikayəti vermişdi.

Qeyd edək ki, sosial şəbəkələrdə Nizami rayonunda yerləşən ”Mehnur” loqopedik reabilitasiya mərkəzində azyaşlılara işgəncə verilməsi ilə bağlı görüntülər yayılıb. Daxili İşlər Nazirliyi tərəfindən müvafiq araşdırma aparılıb və mərkəzin direktoru Nuranə Hacızadə, mərkəzin psixoloqu Aytac Kazımlı və mərkəzin direktor köməkçisi vəzifəsində çalışan Səbinə Əliyarbəyli saxlanılıb. Saxlanılan şəxslər barəsindən Cinayət Məcəlləsinin 133.2.1, 133.2.3 və 133.2.4-cü (əzab vermə) maddəsi ilə cinayət işi başlanılıb.

Nizami rayon Məhkəməsində hakim Nigar Qədirlinin sədrliyi ilə istintaq orqanı tərəfindən təqdimatlara baxılıb. Hər 3 təqdimat təmin edilib və təqsirləndirilən şəxslər barəsində 3 ay müddətinə ev dustaqlığı qətimkan tədbiri və vəzifədən uzaqlaşdırma ilə bağlı qərarlar qəbul edilib.

# Ermənistanın "for-post" statusu aktuallığını itirmir

**Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə, 2020-ci ilin noyabrında Müzəffər Ordumuzun qazandığı Zəfər Qələbəsindən sonra, Rusiya, Azərbaycan və Ermənistan dövlət başçılarının 10 noyabrda imzaladığı üçtərəfli bəyanatının icra olunmasına əngəl yaratmağa çalışan rəsmi İrəvanın revanşist siyasəti manipulyasiya alətidir. Ötən iki iləyaxın bir zamanda, Tez-tez təxribatlara əl atan Ermənistan tərəfi, aldığı sərt cavablardan nəticə çıxarmaq istəmir. Sentyabrın 13-də Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Kəlbəcər, Laçın, Daşkəsən və Zəngilan rayonları istiqamətində törətdiyi genişmiqyaslı təxribatlar bir daha bütün dünyaya göstərir ki, rəsmi İrəvan öz revanşist niyyətlərindən əl çəkmir.**

Ermənistanın revanşist siyasəti bütün region üçün təhdid yaradır. Regionda sabitlik, davamlı inkişaf və sağlam dialoq mühitinin yaşanmasıdestruktiv qüvvələrin marağında deyil. Uzun illər ərzində Ermənistan və Ermənistanın ərazisi məhz regionda gərginliyin yaradılması üçün istifadə olunub. Sıravi erməni xalqı əsrlər boyu bu siyasətin qurbanı olub və məhz bu siyasətin nəticəsində Ermənistan müasir beynəlxalq münasibətlər sisteminin dalan dövlətinə çevrilmişdir.

”Sülh” ali və ümumbəşəri dəyər olduğu üçün beynəlxalq təşkilatlar, habelə beynəlxalq ictimaiyyət rəsmi İrəvanını sülhə çağırmalıdır. Ermənistanın təxribatları və revanşist cəhdləri beynəlxalq ictimaiyyət tərəfindən şiddətlə qınanılmalı, habelərəsmi İrəvandan beynəlxalq normalara riayətedilməsi tələb olunmalıdır.

Yanaşmaların fərqliliyi bir daha Azərbaycanın üstünlüyünü, habelə ölkəmizin beynəlxalq hüquq və normalarına sadiqliyini təsbit edir.

Prezident İlham Əliyevin regionda sülh çağırışlarına rəğmən rəsmi İrəvanın Ermənistanda revanşizm əhvalının dəstəklənməsi faktı ədalətli mövqelərdən və beynəlxalq hüququn normalarından çıxış edən Azərbaycanın tərəfdaş ölkələrinin sayını artırmalıdır. Beynəlxalq ictimaiyyət sülhə və tərəqqiyə dəvət edən Azərbaycan ilə beynəlxalq terror və yeni münaqişələr üçün zəmin yaradan,



habelə millətçilik əhvalını yayan Ermənistan arasında seçim etməlidir.

Rəsmi İrəvan dünyada hərbi cinayətkar və terrorçu ölkə kimi tanınılmalıdır. 13 sentyabr tarixində baş vermiş təxribat bir daha rəsmi İrəvan tərəfindən mina xəritələrinin Azərbaycana təhvil verilməməsi məsələsini aktuallaşdırır.

Xəritələrin verilməməsi Ermənistanın hərbi hücumlarını asanlaşdırdığı halda, Azərbaycan üçün əksinə, müdafiənin təşkilini əsaslı şəkildə çətinləşdirir. 13 sentyabr tarixli təxribat, eyni zamanda, rəsmi İrəvanın hərbi cinayətlərinə bəraət qazandırılmasına hesablanıb. İşğaldan azad olunmuş ərazilərdə bastırılmış minaların mövcudluğu mülki əhalinin tələfatına səbəb olduğu üçün rəsmi İrəvan, eyni zamanda, terrorçu ölkə kimi də tanınmalıdır.

Dünya ictimaiyyəti və beynəlxalq təşkilatlar Ermənistanı mina xəritələrini vermədiyinə görə qınamalı və rəsmi İrəvan buna görə hüquqi məsuliyyət daşımalıdır.

Erməni siyasətinin növbəti hiyləgərliyi, sərhədlərdə təxribat törətməklə, Ermənistanın siyasi-hərbi rəhbərliyinin bütün digər təxribatları Avropanın enerji təhlükəsizliyin təmin olunmasında Azərbaycanın rolunun azaldılmasına hesablanıb.

Ermənistanın ”forpost” ölkəsi statusu yenə də aktuallaşır. Sülh sazişinin imzalanmasından qaçan rəsmi İrəvan Qafqazdakı öz forpost statusunu bir daha təsdiqləyir və sıravi erməni xalqının maraqlarından çıxış etmədiyini nümayiş etdirir.

Rəsmi İrəvanın təxribatları regionda yeni münaqişə və terror aktlarının ehtimalını artırır. Regionda sülhün bərqərar olunması ehtimalına təhdid yaradan bütün təxribatlar dünyada münaqişə ocaqlarının sayının artırılmasına xidmət edir. Ermənistana dəstək göstərən və təxribatlara göz yuman ölkələr regionun inkişafını istəməyən qüvvələrdir. Azərbaycanın inkişafı və ölkəmizdə siyasi sabitliyin qorunması bütün regionun davamlı inkişafının zəmanəti ola bilər.

Azərbaycanın beynəlxalq iqtisadi təşəbbüsləri bütün regionun geostrateji əhəmiyyətini artırır. 13 sentyabr tarixində baş vermiş təxribat tək Azərbaycanın yox, ümumiyyətlə bütün regionun iqtisadi və siyasi aktuallığının artmasının qarşısını almaq üçün hesablanıb. 13 sentyabr tarixində yaşanmış hərbi insident təsadüfi sayıla bilməz. Təxribatların təkrarlanması yeni müharibə ehtimalını artırır. Bu səbəbdən ölkəmizdə yaşanan milli həmrəylik mühiti strateji resurs kimi qorunmalıdır.

Güc amili öz aktuallığını qoruyub saxlayır. Cari ilin 27 iyun tarixində Prezidenti İlham Əliyev Kəlbəcər rayonunda komando hərbi hissəsinin açılışında demişdir ki: ”Bu gün dünyada güc amili ön plandadır, beynəlxalq hüququn norma və prinsipləri işləmir.” Belə ki, 13 sentyabr tarixində yaşanmış insident bir daha onu göstərir ki, Prezident İlham Əliyevin hərbi quruculuq istiqamətində atdığı addımlar müstəsna əhəmiyyət daşıyır.

Baş verən hadisələr bir daha göstərir ki, Qaçqın və məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması strategiyası süzgün aparılır. 13 sentyabr tarixində baş vermiş və rəsmi İrəvanın digər təxribatları bir daha onu göstərir ki, qaçqın və məcburi köçkünlərin işğaldan azad olunmuş ərazilərə qaytarılması prosesində tələsmək olmaz. Bu proses Prezident İlham Əliyev dediyi kimi: ”planlı şəkildə həyata keçirilməlidir”.

Mövcud istiqamətdəki planların ictimailəşdirilməsi yeni hərbi təxribatların səbəbi ola bilər.

13 sentyabr tarixli insident və bu kimi digər erməni təxribatları ölkədə həmrəylik mühitinin və siyasi sabitliyin qorunmasının müstəsna əhəmiyyətini göstərir.

**13 sentyabr tarixində yaşanmış insident artıq tarixin arxivinə göndərilmiş ATƏT-in Minsk Qrupunun dirçəltməsinə xidmət edən simulyasiyadır. 13 sentyabr tarixində yaşanmış hadisələr bilavasitə siyasi motivli hərbi təxribatdır. Belə ki, bu təxribat cari ilin15-16 sentyabr tarixində Özbəkistanın Səmərkənd şəhərində keçiriləcək Şanxay Əməkdaşlıq Təşkilatının növbəti samitində Azərbaycana qarşı təzyiqlərinin artırılmasına hesablanıb.**

**Hazırladı:**
**Mehriban Cəfərova**

# KTMT bu dəfə də Ermənistanı şad eləmədi

**Ermənistan Baş naziri Nikol Paşinyan 2020-ci il məğlubiyyətindən sonra hər çıxışında KTMT qoşunlarının Ermənistana yeridilməsini tələb edib. Baş nazir xüsusən, Qazaxıstan ssenarisi təkrarlanacağı təqdirdə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı üzvlərindən İrəvana qoşun yeridilməsinə razılıq almağa çalışıb.**



Elə və son bir neçə gündür bu arzusunu reallaşdırmaq üçün xeyli enerji tükətdidesək yanılmarıq.

O, KTMT qoşunlarının Ermənistan və Azərbaycan sərhədində baş verən münaqişə ilə bağlı növbəti dəfə Ermənistana yerdidilməsi üçün quruma müraciət ünvanladı. Qurum müraciətlə bağlı sammit keçirdi.

Rusiya Federasiyası prezidentinin mətbuat katibi Dmitri Peskov məlumat verib ki, KTMT-nin missiyası Ermənistan-Azərbaycan sərhədinə göndəriləcək

O fikrini izah edərkən bildirib ki, Ermənistanla Azərbaycan sərhədində gərginlik qalmaqdadır və bununla əlaqədar Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının missiyasının oraya göndərilməsi qərara alınıb.O, əlavə edib ki, qərar axşam saatlarında verilib, missiyanın formalaşdırılması və onun sərhədə göndərilməsi bir qədər vaxt aparacaq.

Adalet.az xəbər verir ki, bu gün KTMT Baş Qərargahının rəhbəri Anatoli Sidorov məlumat yayıb..

O, bildirib ki, KTMT Ermənistan və Azərbaycan arasında münaqişənin sülh yolu ilə həllinə ümid edir: ”İki ölkə sərhədində blokun qüvvələrindən istifadə etməkdən söhbət getmir”, - Sidorov bildirib.

Qeyd edək ki, Ermənistanın Baş naziri Nikol Paşinyan 2 ay əvvəl Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) Moskvada keçirilən sammitində təşkilatdan narazılıq etmişdi:” ”Düzünü desək, KTMT-yə üzv ölkələrin 2020-ci ildə 44 günlük müharibə zamanı və müharibədən sonrakı dövrdə reaksiyaları Ermənistanı və erməni xalqına çox da şad etmədi”.

***P.S.** Paşinyanın sözləri ilə desək, KTMT bu dəfə də erməniləri şad etmədi*

**Əntiqə Rəşid**

# Ekspert: ""BakuBus" avtobus parkını yeniləyə bilmədi"

**Bir çoxumuza məlumdur ki, yeni dərs ilinin başlaması ilə əlaqədar yollarda və ictimai nəqliyyat vasitələrində sıxlıq qaçılmaz olur. Bu hal isə insanların iş yerinə və təhsil müəssisəsinə vaxtında çatmağına mane olur.**

Bəs aidiyyatı qurumlar mövcud vəziyyətlə bağlı hansı tədbirləri görür? Demək olar ki, artıq yollarda əvvəlindən daha çox tıxac görürük. Nəqliyyat məsələləri üzrə ekspert Elməddin Muradlı günümüzdə aktual olan məsələ ilə bağlı Adalet.az-a danışıb.

Ekspert bildirib ki, avtobusların sayının artırılmasına ciddi ehtiyac var: ”Ümumiyyətlə ictimai nəqliyyatın inkişaf etdirilməsinə böyük ehtiyac var. Bunu hansı səviyyədə etmək olar və reallıq buna imkan verirmi? Bu sualın cavabı bir çoxumuza aydındır. Ancaq qaneedici bir vəziyyət yoxdur. Avtobusların yenilənməsi və yeni avtobusların gətirilməsi strategiyası ortada yoxdur. Hansı şirkətin imkanı varsa, 5- 10 avtobus alır. Son zamanlar isə bu prosesi ümumiyyətlə dayandırıblar. Çünki yanacağın qiyməti bahalaşıb. Daşıyıcı şirkətlər sərnişindaşımada qiymət artımını tələb edirlər. Görülən işlərin qarşısında əldə edilən qazancın adekvat olmadığını deyirlər. Yəni daşıyıcı şirkətlər deyir ki, ziyana



işləyirik. Dövlət də onları nəzərə almır. Belə olan halda hansı inkişafdan danışa bilərik? Heç kəs 200.000Azn-ə avtobus alıb, 30 qəpiyə sərnişin daşımağı real vəziyyətə uyğun hesab etmir”.

Ekspertin sözlərinə görə, ”BakuBus” avtobus parkını yeniləyə bilmədi. Əksinə, 2015-ci ildən indiyədək alınan 715 avtobusun 300-dən çoxu istismar olunmur. Bərbad vəziyyətdədir. Onlardan 100-də qarajlarda qalıb. Yən xəttə buraxılmır. Qarajda qalan avtobusların xəttə buraxılmamağının səbəbini isə İnvestisiya holdinqindən soruşmaq lazımdr.

Avtobus parkı yenilənəndən sonra, avtobusların sayı kifayət qədər olandan sonra interval məsələsinə baxmaq olar. İnterval sərnişindaşıma prosesində əsas hədəfdir”.

**Əntiqə Kərimzadə**

# Xankəndidə mitinqlər başladı: Arayik İrəvana niyə qaçıb?

**İrəvan kimi Xankəndidə də aləm qarışıb bir-birinə. Səhər saatlarından başlayaraq şəhərin mərkəzində mitinqlər başlayıb.**

Adalet.az qondarma rejimin mediasına istinadən xəbər verir ki, mitinqdə çoxlu sayda vətəndaş, o cümlədən universitet professorları, tələbələr, məktəblilər və müəllimlər, müəssisə



rəhbərləri və işçiləri iştirak edir. Separatçılar baş nazir Nikol Paşinyanın sentyabrın 14-də Ermənistan Respublikasının Milli Assambleyasında çıxışı və Artsaxın taleyi ilə bağlı narahatlıqlarını ifadə ediblər.

Qeyd edək ki, neçə gündür, heç bir açıqlama verməyən Qarabağdakı separatçı tör-töküntüsünün başçısı Araik Arutyunyanın Qarabağdan İrəvana qaçdığı deyilir. Qondarma Artsaxın rəsmisi Lusine Avanesyan separatçı liderin İrəvana guya Ermənistan hökumətilə son günlər baş verən gərginlikləri müzakirə etmək üçün getdiyini deyib.

***P.S.** Guya Ermənistanın baş nazirinin Arayiklə nəyisə müzakirə etməyə çox da ehtiyacı varmış...*

**Əntiqə**

*Eminquey*

# Daşaltı Cıdırın ətəyində namaz qılır




*Hökümət evinin önündə, yəni Azadlıq meydanında toplaşmışdıq, səhər saat 5-də. Bir-bir adamlar gəldikcə, kadrlarda gördüyüm 90-cı illərin Bakısı yadıma düşürdü. Elə bil, birazdan bu adamların sayı milyona çıxacaq, milyonlar yumruğunu sıxıb ”Azadlıq” qışqıracaq, Sovet rejimi dağılacaq...*

*Yuxuluyam, sayıqlamağım təbiidir. Gecəni də yatmamışam.*

*Yavaş-yavaş adamlar gəlir, sonrası isə... uzatmayım, 7-in yarısı Bakıdan ayrılırıq.*

## *“Yoxlanılıb, mina yoxdur”*

*Uzaqdan Cıdır düzü, ətəyində namaz qılan Daşaltı görünür. İlan kimi qıvrılan bu yolları qalxdıqca təzyiqlə birgə həyəcan da yavaş-yavaş yüksəlir. Amma bu yolun sonunda bizi Şuşa adlı məlhəm gözləyir. O məlhəm ki düz otuz il həsrətində olmuşuq.*

*Bu sərt döngələri keçdikcə müqayisələr aparırıq. Çəkiliş etmək üçün sürücünün yanına düşmüşəm. Yolboyu xoşum*



*gələn bir xanım da gəlib düz yanımda əyləşib. Düşünürəm ki, ömründə ilk dəfə Şuşaya qədəm qoyasan, onda da xoşun gələn xanımla birgə. O, bu dolanbac yolları Gədəbəyin aşırımlarına bənzədir. Sürücü isə razılaşmır. Mən isə İsmayıllı aşırımları ilə müqayisə aparıram, amma yox, bu yollar həqiqətən başqadır.*

*Aşırımlar bitir, binalar, evlər görünməyə başlayır. ”Təki Vətən sağ olsun” mahnısının sədaları ilə Şuşaya giririk.*

*Sovet dövrünü xatırladan binaların üzündəki deşiklərdən, qırıq pəncərələrdən silah səsləri eşidilir. İndi bizə hüzur bəxş edən bu sınıq-salxaq binalarda, evlərdə qan tökülüb, qisas alınıb. İnanmaq asandırmı? Xeyr.*

*28 ildir dünya sakiniyəm, Şuşanı kadrlardan, xatirələrdən dinləmişəm, tanımışam.*

*Mən bu hissi bir dəfə yaşamışam. Moskvada yaşayan heç vaxt canlı görmədiyim Quləli əmim və ailəsini görəndə. Onda atam dünyasını dəyişmişdi. Onun da haqqında çox eşitmişdim, amma 2013-cü ilə qədər görməmişdim. Əmimin qızları rusdillidir, mən isə rus dilini çox az bilirəm. Və əmimi görmək, tanımaq üçün atamı qurban vermişdim.*

*Həmin gün keçirdiyim hissləri indi Şuşaya girərkən bir daha yaşayıram. 30 il erməninin əlində əsir olan Şuşa dilimizi unudubmu? Onunla hansı dildə danışacam? Rusmu? Ermənimi, yoxsa öz dilimizdəmi? Hər halda erməni ilə, rus ilə dil tapmaqdan asan olmalıdır.*

*”Qoç ət”də düşürük. İlk dəfə Şuşada, şairlər, yazıçılarla birgə səhər yeməyi yeyəcəyik. Qismət Rüstəmov, İham Əziz, Rəşad Nağı Mustafa, Cəlil Cavanşir və başqaları.*

*Rəşada yaxınlaşıram, üzümü İlhama tutub deyirəm:*

*- Hacı, nəinki Şuşada yemək, hətta Rəşadla ilk dəfədir ki, bir masa arxasında çörək kəsirik. Şuşa səfərimizə təsadüf eləməsi nə gözəldir, hə?*

***

*Şəhərin mərkəzinə avtobusla yox, piyada, gəzə-gəzə düşməyə qərar veririk. Qismət, İlham, Rəşad, Cəlil, Səxavət və mən. Şəhərin qəribə, mistik ab-havası var. Sənə ötürdüyü hiss kədərdirmi, sevincdirmi, bilinmir.*

*- Cəlil, bu binaları söksələr, məncə Şuşanın mistikası itəcək.*

*- Çoxusu yararsızdır, yəqin ki sökülə-cək, tarixi binalar, abidələr yerində qalacaq.*

*- Təki aqlayla üzləməsinlər.*

*- Yox əşşi, etməzlər.*

***

*Solda hasarlardan o yanda Aşağı Gövhər Ağa məscidi, yolun sonunda isə Yuxarı Gövhər Ağa məscidi görünür. Aşağı məscidə gedən yolu bilmirik, Yuxarı məscid isə təmirə bağlanıb. Arzum idi ki, Şuşaya ilk gəlişimdə bu məsciddə namaz qılacam.*

*Məscidə yaxınlaşanda girişin olmadığını görüb düşünürəm - qismət deyilmiş. Özümlə zarafatlaşıram - ”Hələ ki sağlığınde, a bala, namazlıq deyilsən”. Biz axı bu məscidin önündə şəkil çəkdirməliydik? Yox, zatən o qədər konstruksiya quraşdırılıb ki, Gövhər Ağa məscidi itib-batıb. Taxtadan, dəmirdən başqa heç nə görünmür.*

*Yolboyu evlərin qapısına, divarına lövhələr vurulub, üstündə yazılıb - ”Yoxlanılıb, mina yoxdur”.*

*Gəzə-gəzə gəlib mərkəzi meydana çıxırıq. Sağında Şuşa mehmanxanası, solunda Natavanın evi. Mərkəzdə Üzeyirin, Natəvanın, Bülbülün büstü olan meydan. Bəli, televizorda gördüyüm kadrların içinə düşmüşəm.*

*Nə edəcəyimi, necə davranacağımı bilmirəm. ”Şükür” deyib qışqırsammı? Özümü yerə atıb dincəlsəmmi? Üzeyirin büstünümü qucaqlasam? Bilmirəm. Ən yaxşısı şəkil çəkdirməkdir.*

*- Qismət, gəlin, birlikdə fotomuz olsun. Bilmək olmaz, gələcəkdə nə olacaq. Barı Şuşayla xatirəmiz olsun ki, bizdən sonrakılar da baxıb qürurlansın.*

*Qisməti BSU-da oxuyanda tanımışam, müəllim-tələbə münasibətimiz olub, ondan sonra isə heç vaxt yaxından ünsiyyətdə olmamışıq.*

*Şuşa bizi Qismətlə də bir köynək yaxınlaşdırdı. Güldük, çörək kəsdik, marketə getdik. Söhbət əsnasında sürücünün qoşduğu bayağı musiqilərdən təngə gəldiyimizdən danışırıq. Qismət deyir ki, bizim avtobusda türk klassik musiqiləri oxuyurdu. Açığı, narazı deyiləm.*

*Qismətin bu razılığı Bakıya qayıdanda pozulacaq, iş elə gətirəcək ki, o, bizim avtobusla qayıdacaq və Bakıya çatanda ”siz necə dözümlü adamlarsız?”, - deyib başını silkələyəcək.*

*Birazdan Natəvanın 190 illiyinə həsr olunmuş tədbir başlayacaq, Mədəniyyət Naziri Anar Kərimov, AYB-nin sədri Anar Rzayev çıxış edəcək, Türk dünyasından gələn şairlər, Azərbaycanın gənc şairləri şeir oxuyacaq, Məclisi-Üns başa çatacaq.*

*Biz şairlərin əlinə şeir düşməsin, amanın günüdür. Türk şairləri şeir oxuduqca, bizi gülmək tutur. Məsələn, özbək şairlərdən biri şeirində anlamadığımız rəqəmlər deyir.*

*- Duksan, yuz səksan bırrrrrr.*

*Rəşad Nağı:*

*- ”90-OO-181” nömrəli maşın kimindirsə, gəlib götürsün.*

*- 181 yox, Rəşad, yuz səksan bırrrrrr!*

*- Hə, bırrr...*

*Gözümüzdən yaş gələnə kimi gülüşür, şeirlərə olmazın vedrələr qoşuruq. Siz fikir verməyin, sözün mətbəxi belə olur.*

*Hələ İmdat Avşarın ”Şuşa Şuşa olalı, belə bir müsibət görməmişdi” deməyini xatırlasam, qiyamət!*

*Sonra Şuşanın simvolu sayılan, o məşhur ”Şuşa” yazısı olan Gəncə qapısına getdik. Elə yerlər var ki, oranı gəzəndə adamı qəribə bir yadlıq hissi bürüyür. Tanımırsan, bilmirsən. Amma Şuşada çox rahat idik. Sanki bir neçə dəfə buraları gəzmişik.*

*Yenə də bir evin üstündə yazı lövhəsi var - ”Yoxlanılıb, mina yoxdur”.*

*Bu adi qala qapısı deyil, bu uşaqlığımızın ağ-qara həsrətidir, kiril əlifbasından latın əlifbasına keçidin donub qaldığı yerdir. Bu bizim öz mənliyimizə qayıtdığımız yolun qapısıdır. Bu qapı əsl özümüzə, ”mən” imizə açılır. Və 30 il sonra bu qapının başında Şuşa adını öz dilimizdə yazdığımız, ilk dəfə şagird olduğumuz yerdi. Bu qapı bizə öz dilimizdə yazmağı öyrətdi.*

*Sonra yenidən yuxarı qayıdır, Cəlillə Natavan bulağında ayaq saxlayır, bulağın gözündən su içirik. Şuşanı ciyərlərimizə çəkirik. Bədənimizi Şuşa ilə suvarırıq. Bəlkə yaxşı bir şeir, yazı cücərdi?!*

*Yuxarı qalxanda Rəşad Məcidi, Elçin Mirzəbəylini görürük, görüşürük. Rəşad Məcid bizi İmdat Avşarla tanış edir. O isə hamımızı tanıdığını deyir. Mənim təxəllüsümlə zarafatlaşır.*

*- Eminquey Akif. Feysbukda dostuz. Sizin şairlər çok ilginç. Ben Reşat Tolstoy adlı şairinizin olmasını bile bekliyorum. Belki de var, haberiniz yok.*

*Gülüşürük.*

*Şuşada bir çox hissləri yaşadıq, təxəllüsümlə zarafat edilməsəydi, özümü yarımçıq hiss edərdim.*

*Hətta bəlkə də tədbirdə şeir deyənlərin arasında mənim olmamağım da bununla əlaqəlidir. Düşünüblər ki, bunu necə təqdim edək? Natəvan, Şuşa, Məclisi-üns və çıxış edir Azərbaycanın gənc şairi Eminquey?!*

*Gülüşə-gülüşə Şuşa mehmanxanasının önündəki parkda şəkil çəkdirib qayıdırıq meydana. Birazdan tədbir bitəcək, sonra avtobuslara doluşub Vaiqifin məqbərəsinə, Cıdır Düzünə gedəcəyik. İsa Bulağına gedə bilmədik, barı Vaqifi, Cıdır düzünü görək.*

*Vaqifin məqbərəsi Cıdıra çıxan yolun solunda yerləşir. Burada Ülviyyə Heydərova ilə qoşalaşırıq. Bol-bol şəkil çəkdiririk, Ülviyyə öz fotoqraflığını tərifləyir, mən isə fotolara baxıb sevinirəm, yaxşı ki, telefon Faiq Balabəylinin əlinə düşmədi, bulanıq şəkillərlə geri dönəcəkdim .*

*Daş döşəməli yollarla Cıdır düzünə qalxdıqca öz kəndimizi, Basqalı xatırlayıram. Qoxusu, havası, döşəməsi - sanki Basqaldır. Diki təngnəfəs çıxırıq.*

*- Ülviyyə, gör indi igidlərimiz o sıldırım qayaları çıxanda nə zülm çəkiblər?! Biz bu düz yolu çıxmağa əziyyət çəkirik.*

*Daha bir ev - ”Yoxlanılıb, mina yoxdur”.*

*Bayaq aşağıdan baxırdıq, Daşaltı ətəyində namaz qılırdı, indi qayaların üstündəyik. Şuşanın alındığı gün yalan deməyim, hönkürüb eləməmişəm, amma gözlərim dolmuşdu. İndi o hisslərin davamını yaşayıram. Ehtiyatla gəzirəm. Buralarda döyüş gedib, buralardan Azərbaycanın igid oğulları keçib, burada tarix yazılıb. Bəlkə də ayaq basdığımız yerdə qan izləri var və burada cücərən otlar o qanlarla qidalanıb, boy atıb. Bilmirəm.*

*Şuşada son şəkil çəkdirdiyimiz yer Cıdır Düzü olur. Uzaqdan Xankəndinə də salam göndərib Cıdır Düzü ilə sağollaşırıq. Hə, bir də, buraya girişdə dayanan əsgərimizlə.*

*- Yorulmayasan!*

*- Sağ olun!*

***

*Şuşa...*

*Bizim üçün bu müqəddəs döyüşdə şəhid olanlar, yaralananlar, ayağını, əlini itirənlərlə yanaşı, eşitmə, danışma qabiliyyətini itirib kantuziya alan əsgərlərimiz də var. Hərə bir cür yarımçıq, yarıbədən qalıb.*

*Onların sayəsində biz bugün Şuşaya səfər edirik.*

*Müqayisə düzgün olmaz, amma insan əllərinin, ayaqlarının yoxluğuna da dözə bilər, bədənində illərlə qəlpə ilə də yaşaya bilər, amma ən vacib iki duyğudan məhrum olmaq ağırdır.*

*Şuşa ilə vidalaşa-vidalaşa onları xatırlayıram.*

*”Şuşa” deyib qışqıra-qışqıra sevincini çıxara bilməyənlər. Doğmalarının necə sevindiyini, nələr dediyini eşidə bilməyənlər.*

*Amma onlar bu tutulan qulaqları ilə dilində illərdir ”dənizdən dənizə böyük ermənistan” xülyası dolaşan düşməni darmadağın eləyiblər. İllərdir ”böyük kölgə” kimi başımızın üstündə dayananları məyus eləyiblər.*

*Xocalıda qolları, əlləri kökündən qoparılan, amansız işgəncələr görən insanlarımızın qisasını alıblar. Xocalı qətliamını törədənləri bir-bir gəbərdiblər. Azərbaycan xalqına, onun prezidentinə beynəlxalq nüfuzu, başıdikliyi qaytarıblar. Onlar tutulan dilləri ilə ”Qarabağ əldən gedib, qayıtma-*



*yacaq” deyən dilləri lal eləyiblər. Onlar tutulan qulaqları ilə böyük bir xalqa ”Sona bülbüllər”i Qarabağda eşitməyi qismət eləyiblər!*

*Onlar Azərbaycanı Günəş kimi yenidən doğdurublar! Onlar bu ölkənin qibləsini xilas eləyiblər. Məhəmməd Məkkəni xilas edən kimi. Onlar Qarabağı çarmıxa çəkib qarğa-quzğuna yem edənlərin özlərini çarmıxa çəkiblər. Onlar Allahın Surunu çalan İsrafildirlər! Düşməni imtahana çəkib ədaləti bərqərar ediblər!*

*Onlar illərdir Qarabağdan özünə ”Ağlama divarı” düzəltmiş böyük bir xalqın gözlərinin yaşını silib gülüş bəxş eləyiblər.*

*Onlar dünyaya sübut eləyiblər ki, sülh göyərçinləri güllləbaran olunanda əsgər özü çevrilib sülh göyərçini ola bilir. Onlar təkcə Qarabağı yox, həm də Azərbaycanı bizə qaytarıblar.*

***

*Azan oxunmasa da, Azan vaxtıdır. Daşaltı kəndi Cıdırın ətəyində Şam namazına hazırlaşır. Şəhidlərimizin ruhu Daşlatıda sıraya düzülüblər. Namazlarını qılıb bu sıldırım qayalara dırmaşacaqlar.*

*Sonrası Cıdır Düzündən şəhərə enən daş döşəməli yol, evlər, Vaqifin məqbərəsi...*

*Görəsən, əməliyyat zamanı Vaqifin məqbərəsində gizlənən olubmu? Sözə sığınan olubmu?*

*Atəş səsləri...*

*9 sentyabr, 2022-ci il, Şuşa yoxlanılıb, erməni yoxdur, düşmən yoxdur, mina yoxdur!*



Faiq QİSMƏTOĞLU
faiqqismetoqlu@box.az

# Qardaş

*Dünyasını dəyişmiş bütün qardaşlara ithaf edirəm*

**...Birindən soruşurlar ki, qardaşın var, ya yox?! O da deyir ki, var! Varsa nə gözəl! Bəs neçə qardaşsız? "Beş qardaşıq" - deyir. Hamınız bir yerdə olanda daha güclüsünüz, amma elə ki, ayrıldınız, işiniz çətinə düşəcək, hamınızı bir-bir məhv edəcəklər. Qardaş isə dillənir ki, bizi heç kim məhv edə bilməz və heç kim də ölümdən savayı ayıra bilməz. Çünki biz bir-birimizə arxayıq, söykəyik və güvənc yeriyik! Və o qardaşları heç kim də ayıra bilmir, aralarında nifaq salsalar da, hər şey aşkar olunur və beş qardaş ömürlərinin sonuna qədər mehriban yaşayırlar...**

**...Nəyə görə bu yazını qələmə alıram?! Ona görə qələmə alıram ki, mən də qardaşsız deyildim və mənim də iki qardaşım vardı. İndi o iki qardaşdan biri də yoxdu. Bütün ümidlərimi, sevgilərimi və sevinclərimi özləri ilə götürüb apardılar Allahın dərgahına. Böyük qardaşım Qürbət müəllim 48 yaşında 20 günün içində dünyasını dəyişdi. Balaca qardaşım Elxan isə sevinə-sevinə Novruz bayramında ata yurduna getdi və orda 60 yaşını qeyd eləməsə də əmim oğlu Ziyanın 40 məclisində iştirak eləmək istədi. Amma görün, başımıza nə oyun gəldi. Martın 22-də onun 60 yaşı tamam oldu. Elə həmin axşamı da insult keçirərək komaya düşdü. Həkimlər, qohum-əqrəba tökülüb gəldi, kömək edə bilmədilər. O günü Bakıya, "Siti" hospitalına gətirdik. Orda da 5-10 saat qaldı və Allahın dərgahına qovuşdu. Əmim oğlunun qırxına görə üzünü təraş etdirməmişdi. Vidalaşanda da o, ağappaq, üzündəki tüklərə sığal çəkdim, alnından öpdüm və oğlu Ozal da atasının çöhrəsinə baxmadan əlləri ilə o da atasının tüklü və nurlu sifətinə bir sığal çəkdi...**

**Mən həmişə Allah-Təaladan bir dua edirdim: balaca qardaşımın ölümünü görməyim! Çünki o, bizdən balaca olsa da, hamımıza arxa dururdu, kömək edirdi və ən əsəbi vəziyyətində belə çətin gündə qohumlardan kimisə darda qoymazdı. Mənim tanıdığım qardaşım Elxan iki cür idi: biri mələk sifətli, biri də əsəbi! Onun mələk sifətini mən Türkiyədə müalicədə olarkən gördüm. Gördüm ki, öz xəstəliyi yaddan çıxıb, mənim halıma yanır. Və tez-tez sifətimə baxıb təzyiqim qalxdığını hiss edir, həddindən artıq narahat olurdu. Amma çalışırdım o, bunları hiss eləməsin. Həssas adam olduğuna görə hər şeyi hiss edirdi, duyurdu və bilirdi...**

**Əsəbi vəziyyətində ona qohum-əqrəba nəsə deyəndə yerə-göyə sığmazdı. Əsib coşar, gileylənər, sonra da təlatümlü dəniz kimi sakitləşər və öz yaxşılığından qalmazdı. Onun yoxluğu tək bizim evdə, onun ailəsində deyil, bütün Bəhmənlidə hiss olunur. Çünki təpədən-dırnağa bu kəndə, bu obaya bağlı idi. Elə bir ay olmazdı ki, kəndə getməsin, dünyasın dəyişənlərin bir-bir yas məclisinə baş çəkməsin. Bizim kənddə kənarda yaşayan Azad müəllim, Kamran müəllim və Seyid Əbdürrəhim də yas məclislərindən qalmazdılar. Onlar kəndə gələndə mollanı götürüb bütün yas qapılarına gedər, Quran oxutdurar və rəhmətə gedənin ailəsinin dərdinə şərik olardılar.**

**Hətta qardaşım Elxan Bəhmənin futbol komandasını vaxtilə maliyyələşdirən bir adam idi. Çünki o futbolu həddindən çox sevir, kənd uşaqlarını bir yerə toplayır və onları ruhlandırırdı. Hər dəfə onlara yeni idman formaları, futbol topları alardı. Və özü də Bəhmənli komandasının bütün oyunlarını izləyərdi. Bir sözlə, bu adam o kəndlə, o adamlarla, o insanlarla nəfəs alardı. Bir ay Bəhmənliyə getməyəndə yerə-göyə sığmazdı. Hətta xəstə olanda belə bir ayağı kənddə idi. Deyərdi ki, mən kəndə getməsəm ürəyim partlayar. Atamın, anamın və qardaşımın ruhu narahat olar...**

**Kəndə də gedəndə bütün qohum-əqrəba başına yığışardı. Bir tikə çörəyi onlarsız yeməzdi. Bacı-qardaş, qardaş balaları, əmi uşaqları, hamısı onun ocağının başına toplaşardılar. Allahın verdiyindən yeyərdilər, içərdilər və şirin söhbətlər edərdilər. Bir qədər də keçəndən sonra ya mamam oğlu Təbrizlə, ya da əmioğlu İnşallahla nərdtaxta oynayardılar. Bax, onda bir hay-küy qalxardı ki, gəl görəsən! Uduzmağı sevməzdi və uduzanda da onlarla razılşmazdı.**

**...Rəhmətlik atam da elə idi: nərdtaxta oynayanda hamını udardı, amma uduzanda da bacısı uşağını, qardaşını o ki var danlayardı. Onlar da çox vaxt deyərdilər ki, dayı, sən Allah, nərdtaxta oynamayaq! Hirslənirsən təzyiqin qalxır, sonra da aləm qarışır bir-birinə. Gedib ya Hidayət həkimi, ya da Mənsum dayımı gətiririk. Bəzən bacısı uşaqları atamın əsəbləşdiyini görüb qəsdən nərdtaxtada uduzardılar, onda lap əsəbiləşərdi. Deyərdi ki, ə, qırışmal, mənə nömrə gəlirsiz? Oynayırsız oynayın, oynamırsız rədd olub gedin! Onun bu sözündən nə qardaşı, nə bacısı uşaqları, nə də əmi uşaqları incimərdi.**

**...İndi nə nərdtaxta oynayan var, nə əsəbisən, nə də hirsini kiminsə üstünə tökən! Nə atam var, nə əmim, nə də hər iki qardaşım. Ümumiyyətlə, qardaş Allahın verdiyi çox böyük şirin paydı. Onların yerini heç kim verə bilmir. Düzdü, qardaşım uşaqları da var, ağıllı, savadlı, fərasətli uşaqlardı. Amma bunlar nə Qürbətdi, nə də Elxan! Ümumiyyətlə, biz qohumlar qardaşlarımızı çox tez itirdik. Məsələn, Pənah əmimin iki oğlu Əhliman və Məmməd dünyasını dəyişdi. Zülfüqar və Alik qardaşsız qaldı. Camal əmimin 5 oğlundan 4-ü rəhmətə getdi. Ərşad əmimin 5 oğlunun 5-i də Allahın dərgahına qovuşdu. Əli əmimin 5 oğlundan 4-ü dünyasını dəyişdi. İndi Natiq həkim də, Zülfüqar həkim də o qardaşların qoxusunu axtarırlar. Bilmirəm, tapırlarmı, tapmırlarmı?!**

**Dostum Səməndər müəllimin qardaşı Fikrət Məmmədov Sovet dövründə xidmət edərkən Çin sərhəddində qəhrəmancasına həlak olub. Səməndər müəllim indi də danışır ki, atamın göz yaşları qurumaq bilmirdi. Deyirdi ki, oğul, mən sənin çiynində getmək əvəzinə, sən mənim çiynimdə gedirsən! Səməndər müəllim bu sözləri deyib gözləri dolur. Onu da deyim ki, qardaş dərdi ağır dərddi. Elə bil ki, bir dağ uçub və o dağın altında qalmısan...**

**... Adam tək atadan, anadan yetim qalmır, adam həm də qardaşdan yetim qalır! Necə ki, mən qardaşdan yetim qalmışam. Dünyada çox şirin şey var: ata, ana, bacı, qardaş, həyat yoldaşı, oğul, qız və nəvələr! Bunlar çox şirindilər. Amma onlarla yanaşı, qardaş da şirindi! O qardaş ki, onun şirinliyindən heç vaxt doymaq olmur. Mən də heç vaxt nə qardaşım Qürbətin, nə də Elxanın şirinliyindən doymadım!**

**...Tez-tez yuxuma girirlər. Görürəm ki, çox narahatdılar. Amma mənim narahatlığım bəlkə onlardan da artıqdı. Onlar haqq dünyasındadır, mən narahat bir dünyada. Və bu narahat dünyada hər iki qardaşım yadıma düşür və səhərlər Quran oxuyandan sonra onların da ruhuna dualar eləyirəm. Dualar eləyirəm ki, o ruhlar sakit olsun, dincəlsin və Allahın dərgahında öz rahatlığını tapsın...**

**...Və hər ikisinin ölümünə Allaha and olsun inanmıram. Elə bilirəm ki, sağdılar. Teymuru, qardaşım qızlarını, Elxanın oğlanlarını - Ozalı, Qisməti görəndə bir az sakitləşirəm. Az-çox qardaşlarımın qoxularını onlardan hiss edirəm. Amma ürəyim həmişə döyünür və onları axtarır. Elə bilirəm ki, qapı döyüləcək və hər iki qardaşım içəri girəcək, qucaqlaşıb öpüşəcəyik! Nə qapı döyülür, nə də onlar içəri girirlər! Ancaq ruhlarımız görüşür və bu bir bənd şeir ilə yazımı tamamlamaq istəyirəm:**

***Kədərli gözlərim yola dikilib,***
***Səni gözləyirəm, gəlmək bilmirsən.***
***De, sənin ətrini kimdən alım mən?!***
***Ürəyim partlayır, dözə bilmirəm...***

# Atasını özü ilə Cənnətə aparan şəhid...

**Dostluq, mən deyərdim ki, dünya yaranandan indiyədək bolluca tərənnüm olunan məhəbbətdən də yüksək anlayışdır. Çünki məhəbbətdə ən son nəticədə insanın şəxsi mənafeyi durur. Həqiqi dostluq isə şəxsi maraq hissindən çox uzaqdır.**





Bu gün, bu sətirləri qələmə alarkən qəlbimi üzən hədsiz kədərə rəğmən, eyni zamanda özüm öz gözümdə ucalıram ki, Sənin dostluğunu qazana bilmişəm, Şəhid Vadim. Axı bəllidir ki, dost qazanmağın tək yolu dost ola bilməkdir.

Sənin haqqında keçmiş zamanla danışmaq çox üzücüdür, şəhidim. Dostlarına, verdiyin salama səmimi və sadiq idin. Qohumun və dostun ailəsində kəsdiyin çörəyi müqəddəs sayırdın, o ailəni öz ailən kimi özünə əziz bilirdin. Təpədən-dırnağadək səmimiydin, etibarlıydın, qanında-canında insanlıq vardı, ədalətsevərlik, həqiqətpərəstlik vardı. Öz "əməl dəftəri"ni daim xeyirxah işlərlə zənginləşdirirdin. Əzəmət, özü də təbii əzəmət Sənin hər əməlində - oturuşunda, duruşunda, baxışında, arzu və istəklərində özünü büruzə verirdi.



Məni Səninlə II Qarabağ müharibəsindən sonra çiyin - çiyinə vuruşduğun qazimiz Röyal tanış eləmişdi. Aramızda xeyli yaş fərqi olsa da, sonra dostlaşdıq, bir-birimizə qardaş dedik. Daim hörmətimi tutdun, Vadim. Səninlə bağlı xatirələrim indi məni son dərəcə kövrəldir.

Yadımdadır, müharibədən sonra mənim bir oğlum dünyaya gəldi. Zəng etdin, təbrik elədin. Pandemiya dönəmi olduğu üçün insanlara bir-birinin evinə qonaq getmək tövsiyə olunmurdu. O üzdən israrla görməyə çalışdığın körpəmin şəklini Sənə göndərməyimi istədin. Göndərdim, alqış dedin.

Bilirdin ki, üç qızım var. İki qızımın səhhətlə bağlı problemlərinin olduğunu da bilirdin. O qədər böyük ürəyə malik idin ki, mən qızımı Türkiyəyə əməliyyata aparanda zəng edib tanıdığın uzman həkimi məsləhət gördün, "uşağı ona da apar, göstər" dedin. Sənin mənim üstümdə haqqın oldu. Haqqını halal elə, qardaş.

Qazilərlə son görüşümüzdə oynadıq, rəqs elədik. Sən hamıdan tez getdin. Soruşdum, dedin "sabah hərbi hissədə olmalıyam, hər şeydən öncə Vətəndir". Əlbəttə ki, Sənin ən üstün məziyyətin vətənpərvərliyindi. Vətən müharibəsində xüsusi təyinatlı kimi döyüşmüşdün, daim irəlidə getmişdin, düşmənə sarsıdıcı zərbələr vurmuşdun. Yaralanmışdın, amma heç yaran tam sağalmamış yenə sıraya qayıtmışdın. Vətən müharibəsi başa çatandan sonra da Qələbəmizi möhkəmləndirmək üçün gizir kimi xidmətini davam etdirirdin.

Dövlətimiz Sənin xidmətlərini yüksək dəyərləndirdi: "Qarabağ ordeni", "Şücaətə görə", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olundun. Özün təvazökarlığın səbəbindən bu haqda danışmaqdan çəkinsən də, elə qalib əsgər olmağını ən böyük mükafat saysan da, barəndə məlumatları dostlarından, göstərdiyin şücaətdən fəxrlə danışan çiyin yoldaşlarından öyrənmişdim.

Vaxtaşırı zəngləşir, arabir görüşüb hal-əhval tuturduq. Axırıncı dəfə vəfat etmiş qohumumun hüzn məclisində - avqustun 22-də görüşmüşdük. Başsağlığı verdin, dərdləşdik. Dedin "gedirəm, ola bilsin bir həftəyə, on günə gəldim". Şəhadətindən bir gün öncə telefonla danışdıq. Eh, nə biləydim sonuncu söhbətimizdi?!.

İşğal etdiyi ərazilərdən it kimi qovulan, məğlub olandan sonra yumruq yelləyən, necə deyərlər, "həm qorxutmaq üçün hürən, həm də qorxusundan quyruq bulayan" mənfur düşmənin sentyabrın 12-13-ü sərhəddə törətdiyi təxribatın qarşısını alarkən də cəsurca vuruşdun, ölümdən qorxmadın. Heyhat, bu, son döyüşün oldu. Canını fəda etdin Vətən uğrunda. Söz yox, qanınız yerdə qalmadı, qisasınız elə anındaca alındı; düşmən tərəf qat-qat artıq itki verdi. Ancaq mənfur düşmənin yüzü, mini sizin bir dırnağınıza da dəyməzdi.

Atanı çox sevmək, ata tərəfindən sevilmək üçün təkcə instinktiv yaxın qohumluq münasibəti, bioloji varislik, mentalitetimizin valideynə hörmət, buyruğuna tabe olmaq, nəsihətinə əməl etmək tələbi məncə yetərli olmazdı. Övladın, xüsusilə də oğulun ata ilə bağlılığını şərtləndirən amillər sırasında dünyaya baxışda, dəyərlərə qiymət verməkdə həmrəylik, dostluq xüsusi önəm kəsb edir. Vadim, Səninlə atan arasında bəlkə sadaladıqlarımdan da üstün tellər vardı. Sizin ocağa, Qocayevlər ailəsinə, nəslinə xas olan qeyrət, vətənpərvərlik hissləri də öz yerində. Elə o qırılmaz tellərə görə də atan Alik Qocayevin ürəyi Sənin nəşini Gəncədən Binəqədiyə gətirincəyədək dözməyib dayandı. Qobustan rayonunun Sündü kəndindəki Şəhidlər Xiyabanında məzarlarınız yanaşı salındı...

***Sənə, özünlə birgə Cənnətə apardığın atana, səninlə çiyin-çiyinə şəhid olmuş qardaşlarımıza Allahdan rəhmət diləyirəm, Vadim.***

***Əbədiyyətə qovuşdunuz.***

***Qəlblərdə özünüzə möhtəşəm heykəl qurdunuz.***

***Qanınızla tarix yazdınız.***

***Müsbət əxlaq, saf əqidə nümunəsi oldunuz.***

***Kəfəniniz bayraq oldu.***

***Məzarınız ziyarətgaha çevrildi...***

***Əlbəttə ki, güclü dövlətimiz, qədirbilən xalqımız, hazırda hərbi xidmətdə olan iki qardaşın Sənin ailənin qayğısına qalacaqlar. Amma mən də bir dost-qardaş kimi Sənin müqəddəs ruhun qarşısında təzim edərək, bir gündə iki tabut qucaqlayan Xalidə Ananın önündə diz çökərək söz verirəm, Vadim: Nə qədər canımda can var, o bir yaşlı körpə qızının, dünyaya gəlməyə hazırlaşan ikinci uşağının arxasında Böyük Əmi kimim dayanacağam!***

***Ceyhun Rüstəmov***

**Unudulan sənətkarlar**

# Məmməd Cavadovun musiqi dünyası

**...Hər bir sənətkarı yaşadan və gələcək nəsillərə sevdirən onun yaratdığı ölməz əsərlərdir. O sənət əsərləri ki, onlar xalq tərəfindən dinlənilir, sevilir, yada salınır və xatırlanır. Böyük bəstəkar Məmməd Kərim oğlu Cavadov da belə unudulmaz şəxsiyyətlərdən və bəstəkarlardan biridir. Onu bu xalq, bu millət heç vaxt yaddan çıxarmır. Sadəcə olaraq televiziya kanalları, mətbuat elə böyük sənətkarlar barəsində bir sujet göstərməyəndə, bir yazı çap etməyəndə onlar az da olsa yaddan çıxırlar. Amma ən əsası odur ki, Məmməd Cavadovu tək bir bəstələdiyi mahnı - "Barı Naxçıvan" onu həmişə yaşadır və yaşadacaqdır.**





Məmməd Cavadov 1912-ci ildə Füzuli rayonunda (əvvəlki Qarabulaq) anadan olub. O, musiqi təhsilini Şuşada alıb. Böyük bəstəkar Üzeyir Hacıbəyovun tələbəsi olub.

Eyni zamanda onun istedadı və bacarığı Üzeyir bəyin diqqətindən yayınmayıb. Ona görə də Üzeyir bəy həmişə Məmməd Cavadovu diqqətdə saxlayır və ona çox böyük köməkliklər göstərib. O, Səid Rüstəmov, Hacı Xanməmmədovla bir yerdə çalışıblar.

Bu sənətkarın ən böyük istedadı ondan ibarət olub ki, həm müxtəlif musiqi alətlərində musiqilər səsləndirib, həm də bir-birindən gözəl sənət əsərləri yaradıb. Bu sənət əsərləri onu deməyə əsas verir ki, Məmməd müəllim daim öz üzərində işləyib. Onun fortepiano üçün "Pyeslər", "Sonatina", "Etüd", iki tar və iki kamança üçün kvarteti, klarnet və fortepiano üçün "Konserti" birmənalı olaraq tamaşaçılar tərəfindən hörmətlə qarşılanıb. Onu ən çox sevdirən Hüseyn Əziminin sözlərinə yazdığı "Barı Naxçıvan" mahnısıdır.

O, harda olubsa, həmişə yeni əsərləri ilə tamaşaçıları, onu sevənləri sevindirməyi bacarıb. Naxçıvanda işləyəndə Üzeyir Hacıbəyovun "Leyli və Məcnun", "Əsli və Kərəm" operalarına, "Arşın mal alan" operettasına dirijorluq edib. O dövrdə İslam Səfərlinin "Bənövşə", "Badamlı", "Cəngi" şeirlərinə musiqi bəstələyib.

1993-cü ildən Füzuli işğal olunanda məcburi köçkün kimi ailəsi ilə birlikdə Lənkərana gəlir, orda da musiqi texnikumunda pedaqoji fəaliyyətə başlayır. Bununla yanaşı, şair Şəkər Aslanın "Bu yerlər", "Təkcə səni", Mirhaşım Talışlının "Lənkəran", "Rəssam-müəllim" şeirlərinə mahnı bəstələməyi unutmur. Ümumiyyətlə, Məmməd Cavadov M.Ə.Sabir, A.Səhhət, M.Müşfiq, S.Vurğun, M.Şəhriyar, O.Sarıvəlli, Ə.Tudə, M.Araz, B.Vahabzadə, Ə.Cəmil, Ə.Kərim, M.Dilbazi... və digər böyük şairlərin şeirlərinə mahnı və romanslar bəstələyib. Məmməd müəllimin hansı mahnısını, hansı musiqisini dinləsən, istər-istəməz çox gözəl anlar yaşayırsan. Onun "Qarabağ lövhələri", "Sülh marşı" musiqiləri dediyimizə əyani sübutdur.

Ən azından ona görə ki, o mahnılar bu gün də səslənəndə adam özünü göyün yeddinci qatında hiss edir və bir daha bu sənətkarın necə böyük bəstəkar olduğunu dərindən dərk edir.

Sənətkar odur ki, onun yazdığı musiqi əsərləri özündən sonra oxunur, səslənir və yenidən bir ömür yaşayır. Məmməd müəllimin bu mənada Azərbaycan televiziyasının və radiosunun qızıl fondunda saxlanılan neçə-neçə gözəl əsərləri var. Bir vaxtlar bu əsərlər heç olmasa ildə bir dəfə səslənirdi. Amma indi nədənsə qızıl fondda olan bu musiqilər məlum qurumun yadına düşmür və onu səsləndirmirlər. Bu musiqilərin səslənməməsi həm də milli, xalq musiqimizin unudulması deməkdir. Çünki bəstəkar Məmməd Cavadovun bütün mahnıları Azərbaycan xalq musiqisindən qidalanır və məhz ona görə də o musiqilər, o mahnılar həmişəyaşardır. Kim nə deyir desin, bir musiqi ki, 40 il, 50 il yaşayır, deməli o musiqi uzun ömürlü sənət əsəridir.

Məmməd müəllim "Barı Naxçıvan" mahnısını ötən əsrin 40-cı illərində bəstələyib. İndi 80 ilə yaxındır o mahnı yaşayır və Azərbaycan xalqı tərəfindən sevilir...

Mən Məmməd Cavadovun heç üzünü də görməmişəm. Amma onun ölməz mahnılarından və musiqilərindən tanımışam.

Sonralar Füzuli rayonunda musiqi məktəbinin direktoru olan gözəl ziyalı və səmimi insan Azər Cavadovla tanış olmuşam.

Görmüşəm ki, o da atası kimi Azərbaycan musiqisini, xalq musiqisini çox sevir, tarixini dərindən bilir və bu əbədiyaşar musiqini gənclərə böyük sevgi ilə öyrədir. Həmişə atası haqqında danışanda kövrələ-kövrələ danışır. Deyir ki, atamın bir arzusu vardı: torpaqlarımız azad olsun və "Qələbə marşı" yazsın! Amma torpaqlarımız azad olundu. Atam o marşı yaza bilmədi. Ancaq buna baxmayaraq, Şuşada keçirilən "Xarıbülbül" festivalında müğənnilər tərəfindən atamın bir neçə gözəl mahnısı səsləndirildi.

Elə bununla da atam özü olmasa da, onun ruhu öz arzusuna qovuşdu...

**Məmməd Cavadov 2002-ci ildə prezident Heydər Əliyevin sərəncamı ilə 90 yaşında prezident təqaüdü ilə mükafatlandırılıb. Bu, Məmməd müəllimə çox böyük ruh yüksəkliyi yaradıb. Çünki Məmməd müəllim həmin hadisədən sonra neçə-neçə gözəl mahnılar bəstələmişdi. O, 2002-ci il dekabr ayının 10-da qarlı-çovğunlu bir qış günündə Allahın dərgahına qovuşdu. Məmməd müəllim Allahın dərgahına qovuşsa da, ruhu həmişə öz doğma ocağında - Füzulidə dolanır və indi onun ruhu tam sakitdir. Çünki digər işğal altında olan rayonlarımız kimi, Füzuli də 2020-ci ilin 44 günlük ikinci Qarabağ savaşında erməni işğalından azad olundu. Nə vaxta qədər ki, Azərbaycan xalqı var, nə vaxta qədər ki, Azərbaycan musiqisi var, o vaxta qədər də bəstəkar Məmməd Cavadov həmişə yaşayacaq...**

**FAİQ QİSMƏTOĞLU**

Emin Piri

# İstismar yolu



***Kapitalizmin öz istismar yolları var. İnsanları-bu duruma etiraz edənlərin aqressiyasını, içindəki enerjini başqa yollarla çıxardaraq yenidən öz sistemlərinə tabe edirlər.***

***Məsələn, hər hansı film vasitəsiylə. O kütləyə bu sistemdə olanlar vaz keçilməz bir nəsnələr kimi yeridirlər. Sadəcə bacarıqlı olsan sən də bu sistemdə özünə yer edə bilərsən anlayışını beyinlərə yeridirlər.***

***Kazinonu bu filmlərdə yoxa çıxarmırlar. Kazinolar vasitəsiylə kasıbların necə gəlir əldə edə biləcəklərini göstərirlər.***

***Əslindəsə, insanlara bu sistemin davamlılığını yeridirlər.***

***Hind, türk eləcə də digər ölkələrin əksər film, seriallarında ana xətt var. Kasıb, atılmış, haqsızlığa uğramış biri zamanla hər çətinliyi aşaraq qisasını alır, itmiş sevgisini tapır, hökm tabesi yox, hökm edən olur.***

***Eləcə də Amerika filmlərində. Hansısa ehtiyaclı biri ya kazinona udur, ya kazinonu, bankı soyur. Hansı ki, o bank kazino insanların zəhmətini istismar edirmiş.***

***Əlbəttə, zəhmət amilini də qoyurlar. Nədənsə şans bu insanların üzünə gülür. Yəni kapitalizm sevindirir.***

***İnsanların arzularını bazara çıxarmağın əla yoludur. Daha çox kapitalizmin məhv etdiyi insanlar arzularının gerçəkləşməsini bu filmlərin timsalında tapır.***

***Yaxşı ticarətdi, başqa cür tabe edə bilmədiklərini iznli qəhrəmanlar vasitəsilə istismar etmək.***

***Bu dəfə sevərək, istəyərək istismar olunurlar özlərindən xəbərsiz. Eyni insanlar bu kərə həmin şəxslərə filmlərini satır, istədikləri adamları kumirə çevirir, bunlar vasitəsilə reklam sırımaq, istismarçıların istəyi ilə kumirə çevrilənlərin diliylə kütləni ovcunda oynatmaq və.s.i***

# Ağcabədi rayonunda ali məktəbə qəbul olan gənclərlə görüş keçirildi



**Ağcabədi rayonunda bayram əhval-ruhiyyəsi var idi. Ağcabədi Rayon İcra Hakimiyyəti başçısı Rafil Hüseynov və Milli Məclisin deputatı Aqil Abbas bu il respublikanın ali məktəblərinə daxil olmuş məzunlarla görüş keçiriblər.**

Məlum oldu ki, bu il 462 nəfər ağcabədili məzun ali məktəblərə daxil olub, onların 22 nəfəri 600-dən yuxarı bal toplayıb. Məzunlar ölkənin ən birinci universitetlərinə qəbul olublar.

Adalet.az xəbər verir ki, ölkəmizdə bütün sahələrdə olduğu kimi təhsil sahəsinə göstərilən diqqət və qayğıdan danışan icra başçısı Rafil Hüseynov bütün məzunları, onların valideynlərini təbrik edib. Gələcək təhsildə gənclərə uğurlar arzulayan natiq, onların müstəqil ölkəmizin milli-mənəvi dəyərlərinə sadiq, vətənpərvər savadlı gənclər olaraq ölkəmizin sosial-iqtisadi və mədəni həyatına böyük töhfə verəcəyini bildirib.Tədbirdə çıxış edən deputat Aqil Abbas ilk öncə tələbə adını qazanmış gəncləri, valideynləri təbrik etdi və onların üzərində əməyi olan hər bir müəllimə dərin təşəkkürünü bildirib.

Görüşdə çıxış edən tələbələr göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirib, müəllim və valideynlərinin etimadını doğruldacaqlarına, elmlərə əzmlə yiyələnərək respublikamız üçün savadlı mütəxəssis kimi yetişəcəklərinə söz veriblər.

Tədbirin sonunda yüksək bal toplayan tələbələrə rayon icra hakimiyyəti və Ağcabədi Gənclər və İdman İdarəsi tərəfindən hədiyyələr, Fəxri fərmanlar və mükafatlar verildi.

# Bayden: "Ukrayna xeyli irəliləyiş əldə edib, amma hələ yol uzundur"

**ABŞ Prezidenti Co Bayden hesab edir ki, Ukraynada hadisələrin inkişafının hansı dönüş nöqtəsində olduğunu söyləmək hələ tezdir, lakin o, birmənalı olaraq Ukrayna Silahlı Qüvvələrinin əks-hücumunu əhəmiyyətli irəliləyiş hesab edir.**

Bu barədə ABŞ lideri Delaver ştatına səfəri zamanı bildirib.

"Ukraynadakı müharibədə hazırkı anı dönüş nöqtəsi hesab edirsinizmi?" sualına ABŞ lideri: "Hazırda bu sualın cavabı yoxdur. Demək çətindir", - deyə cavab verib.

Onun sözlərinə görə, ukraynalılar xeyli irəliləyiş əldə ediblər.

"Ancaq düşünürəm ki, bu, uzun bir yol olacaq", - ABŞ prezidenti əlavə edib. Eyni zamanda, Ağ Evdən bildiriblər ki, ABŞ Ukrayna tərəfi ilə daim birbaşa təmasdadır və yeni müdafiə yardımı paketi hazırlanır.

# Yemək yemirsinizsə, çay vermirik!



**Dostumuz və qardaşımız Səməndər müəllim bir dəfə İsmayıllı- Muğanlı yolunda yüksəkliyə qalxandan sonra gözəl bir yerdə çay içmək istəyir. Ailəsi də yanında! Xidmətçi oğlan gəlir, deyir ki, mürəbbəsiz çay vermirik. Gərək mürəbbə olsun! O da bildirir ki, yaxşı, olsun! Ya zoğal mürəbbəsi, ya da moruq mürəbbəsi. Çünki şəkərim var.**

Xidmətçi oğlan da onu dinləyir və deyir ki, o mürəbbədən yoxdur, əncir mürəbbəmiz var. Əgər əncir mürəbbəsi ilə içmirsinizsə, sizə çay vermirik. Müəllim də dilxor olur, "sizin insafınız yoxdur" - deyib gedir və çay içmir. Bir dəfə də Ağsu dolamalarında gözəl məkanda yenə çay içmək istəyirlər, onda da xidmətçi qaça-qaça onların qabağına gəlir və deyir ki, yemək yemirsinizsə, çay vermirik! Bax, biz bir şeyi başa düşmürük. Belə də xidmət olar? Biri çay içməlidi, mütləq yanında ya mürəbbə verirlər, ya da yemək olmalıdı. Bu ona bənzəyir ki, biri fil satır, deyir ki, üstündə də bülbül var. Alırsan al, almırsan çıx get! Bax belə!

# Ətin kiloqramı 13 manat yarım



**Gözəgörünməz qüvvələr hər gün hər şeyin qiymətini qaldırırlar. İndi də bir neçə həftədir ki, Bakıda əksər ət satışı yerlərində, lap Yeni Günəşli yaşayış sahəsinin özündə ətin kiloqramını 13 manat 50 qəpiyə satırlar.**

Hansı ki, rayon yerində ətin kiloqramı 10 manat 50 qəpiklə 11 manat arasandadır. Bəs, belə olan halda necə olur ki, Bakıda ətin kiloqramı 2 manat 50 qəpik artıq satılır? Qoy bu sualın açmasını əlaqədar qurumlar tapsınlar? Onlar da çətin ki, bu suala cavab tapa bilərlər. Çünki süni qiymət artımına qarşı ölkəmizdə mübarizə yetərincə aparılmır və əksinə bu cür nöqsanlara aidiyyəti qurumlar göz yumurlar.

**Emil FAİQOĞLU**



Əlövsət Bəşirli

# ÖMRÜN QÜRUB ÇAĞI

## Tələbə dostum, ustad qələm sahibi, Əməkdar jurnalist Ələkbər Abbasova - Şəhriliyə ömrümüzün 80-ni ötən qışında - Qürub çağında sayğı və cansağlığı arzusu ilə

Günəş qüruba endikcə sönməkdə olan tonqal kimi közərir, qızılı şüaları ilə səmaya, dənizin mavi sularına bənzərsiz naxışlar vururdu.

Eyvanın məhəccərinə söykənib qürub yerinə tamaşa edən ahıl kişi dərindən köksünü ötürdü.

- Ahın dağlara, Fəxri!

Qanrılıb ona sarı gələn xanımına yanpörtü nəzər saldı:

- Dağlar uzaqlarda qalıb, yadıma başqa şey düşdü. Qadın sual dolu baxışlarını ərinə zillədi.

- Adam inana bilmir ki, o vaxtdan 50 il keçib. Pah atonnan, - kişi vaysındı, - elə bil dünən olub. Rəhmətlik Əli müəllim deyərdi ki, ahıllıq insanın qürub çağıdır. Hər dəfə qüruba baxanda onun sözü yadıma düşür. Yeri behiştlik olsun, böyük alim, nəcib insan idi. Mənə yetim, imkansız çağımda nələr eləmədi? Universiteti bitirən ili aspiranturada saxlatdırdı, elmi rəhbərim oldu. Tək mənim yox, çoxlarının pənahı, xüsusən arxasızların dayağı idi. İndi söz düşəndə, cavanlar mənə təəccüblə baxırlar, elə bilirlər nağıl danışıram. İnsan necə xeyirxah, alicənab olarmış, ilahi, şükür kəramətinə!

Kövrəldi, boğazında düyünlənən qəhərini boğsa da, çuxura düşən, nuru öləzimiş sönük gözləri nəmləndi. Ona diqqətlə göz qoyan xanımı əl-ayağa düşdü, üzünün ifadəsi ciddiləşdi:

- Dərmanı içmisən?

Kişi günahkar kimi baxışlarını qaçırıb başını buladı:

- Tamam yadımdan çıxıb.

- Daha sözüm yoxdur, 50 il bundan qabaq olanları bircə-bircə danışırsan, bəs həkimin dediklərini niyə yaddan çıxarırsan?

Qadın deyinə-deyinə yan otaqdan təzyiqölçəni gətirib onun qoluna bağladı, rəqəmlərin üzərilə qaçan əqrəbə baxa-baxa dedi:

- Heç özündən xəbərin var, 180-ə qalxıb. Al bunu qoy dilinin altına. Telefon zəng çaldı. Qadın dəstəyi götürüb dinlədi. Xırda qırışlar düşsə də, əvvəlki təravətinin izi qalan ağ sifətinə təbəssüm qondu. Danışan yaxın dostları idi. Salamlaşıb hal-əhval tutandan sonra:

- Necə olacaq, yaş öz işini görür, - dedi. - Hər işə qarışır, hamıya məsləhət verir. Özünə gələndə dərman içməyi yadından çıxarır. Deyirəm, keçmişdə olanları yadına sala bilirsən, dərmanlarını yox? Zəhmət çək vaxtında iç, çörəyini ye, hər ayın axırında pensiyanı al, Allahına şükür elə. - Qadın sözünə ara verdi. Azacıq sükutdan sonra, - Hə, elə o da sən deyəni deyir. Deyir Allahıma şükür edən bəndəyəm, ancaq pensiya məsələsində yox. Belə pensiya olar, 50 il işləyəsən, indi pensiya adına qəpik-quruş verələr? Özü də eləməyib tənbəllik, bunların hamısını yazıb göndərib idarələrə, qəzetlərə, hələ üstəlik televizorda danışıb. Eh, sən də deyirsən düz eləyib. Nə faydası, heç gör qımıldanan, saya salan var. O dəfə eşitdik artırıblar pensiyaları. Alanda gördüm ki, əvvəlkindən 10 manat artıqdır. Getdim aptekə, bəlli oldu ki, həmişə aldığım dərmanlar ikiqat bahalaşıb.

Qadın telefonda danışdıqca gözaltı ərinə baxırdı. Hiss edirdi ki, dərman təsirini göstərir, kişinin avazıyan rəngi özünə gəlir. Dəstəyi ona verib, yan otağa keçdi. Kişi gümrah səslə yaxın dostu, həmkarı ilə hal-əhval tutdu:

- Mən də babatam. O ki qaldı təzyiqə, gərək dərmanımı yaddan çıxartmayım. Qardaş, boynumuza alaq ki, yaş öz işini görür. Adam əliynən qoyduğunu tapa bilmir. Dünən gözlüyümü itirmişdim. Evi ələk-vələk elədim. Nəvəm soruşdu ki, baba, nə axtarırsan? Dedim gözlüyümü, uşağı gülmək tutdu. Sən demə eynək gözümdə ola-ola axtarıram. Öz-özümə güldüm, amma pərt oldum, üzə vurmasam da içimdə əsəbiləşdim. Həkim də deyir ki, çalış əsəbiləşmə, səni həyəcanlandıran şeylərə fikir vermə, üzünü yana çevirib uzaqlaş. Mən bunu bacarmıram. Keçən şənbə qəzet alıb evə qayıdanda gözüm tindəki zibilliyə sataşdı. Kaş görməyəydim. İki nəfər zibil qutularını eşələyirdi. Elə bu vaxt əynində nimdaş qara kostyum, başında bozarmış şlyapa, boynunda əzik qalstuk olan arıq, üzgün ahıl kişi onlardan aralı dayanıb burnunun üstünə sürüşən çeşməyinin arxasından yan tərəfdəki qutuya nəzər saldı. Əlini uzadıb çörək qırıqları ilə dolu sellofan torbanı götürdü və ətrafına ötəri baxıb tez də uzaqlaşdı. Mən onu güclə tanıya bildim. Heç tanınmalısı qalmamışdı. O boyda kişi elə bil yerimir, kölgə kimi sürünürdü...

Birdən nəvəsinin onu köməyə çağıran həyəcanlı səsini eşitdi:

- Ay baba!..

Dostuna üzrxahlıq edib, dəstəyi yerinə qoydu və yan otağa keçdi:

- Nə olub, a bala?

- Babası, gül kimi xörək bişirmişəm, yemir, - gəlini şikayətləndi, - daraşıb yavan çörəyə!..

Babasını görcək ürəklənən balaca əlindəki tikəni xırda-xırda dişləyərək:

- Mənim nənəmin çörəyindən xoşum gəlir, - dedi.

Onlar mağazadan çörək almırdılar. Rayonda yaşayan qohumları arabir yerli buğda unu göndərirdi. Nənə elektrik sobasında çörək bişirirdi. Nəvəsinə məxsusi süddə yoğrulan balaca, yumru kökə hazırlayırdı.

Baba nəvazişlə uşağın başına sığal çəkdi:

- Nuş olsun, mənim balam, - dedi, sonra gəlininə üz tutdu, - ot kökü üstə bitər, qızım. Nəvəm elə özümə çəkib.

Onun qar kimi ağarmış qaşları çatıldı, gözləri yol çəkdi. Uşaqlığı, müharibə illəri yadına düşdü. Çörək qəhətə çıxmışdı. Atası cəbhədə idi, qayıtmadı, əvəzində əl boyda "qara kağızı" gəldi. Anası yayın boğanağında, qışın şaxtasında dan yeri ağarandan qaş qaralanadək çöldə, tarlada işləyirdi. Evə buğda gətirəndə, nənəsi "əl daşında" üyüdür, təndir qalayırdı. Elə bil nəvəyə dünyanı verirdilər. Axı, nənəsinin təndir çörəyindən ləzzətli nə ola bilərdi? Üstündə də Sarı inəyin nehrədə çalxanan yağı...



İllər quş olub uçdu, o, böyüdü, sayılıb-seçilən savadlı, bacarıqlı, çörəkli kişilərdən oldu. Amma rəhmətlik nənəsinin təndir çörəyinin dadı damağından getmədi. İnsafən xanımının evdə bişirdiyi çörək, o vaxtın çörəyinə çatmasa da, indi mağazada satılandan çox-çox dadlı idi.

Baba nəvəsini qucaqlayıb öpdü:

- Səni görüm çörəkli kişi olasan. - Sonra kövrək səslə soruşdu. - Sən də böyüyüb atan kimi kişi olmaq istəyirsən?

- Hə!

- Onda ananın bişirdiyi xörəyi ye, - gözaltı nəvəsinə baxıb sözünə aramla davam etdi, - Görürsən böyükləri - babanı, nənəni, atanı, ananı. Sən də onlar kimi xörək yesən böyüyüb kişi olarsan.

Gəlinin yaraşıqlı çöhrəsi işıqlandı. Baba təmkinini pozmadan asta, arxayın səslə:

- Sən mənim ağıllı balamsan, - dedi, - xörəyini ye, anan geyindirsin, gedək parka, uşaqlarnan oyna.

- Ura, babam məni parka aparacaq!

***

Yaşıllığa bürünən, gül-çiçəyi göz oxşayan park tünlük idi. Yayın nəfəsi təntidən boğanaq bürküsündən baş götürüb bu sərin, səfalı yerdə dincəlməyə gələnlər dəstə-dəstə gəzişirdilər. Babasının əlindən tutub hovuzun kənarında dayanan uşaq, gur suyu göyə millənən fəvvarədən ətrafa səpələnən şəffaf damlalara maraqla baxırdı. Əlində tutduğu dondurmanı da bir anlığa unutmuşdu elə bil. Başını qaldırıb ucaboy, arıq babasına baxdı, şirin uşaq ləhcəsiylə: "Nə yaxşıdı, xoşum gəlir", - dedi. Sonra soyuğu balaca əlini üşüdən dondurmanı ləzzətlə yedi. Baba dondurmanın naxışlı şax kağızını nazik çöpü ilə birlikdə ondan alıb yaxındakı ağacın dibinə qoyulmuş qutuya atdı:

- İstəyirsən birini də alım.

- Yox, bəsimdi. Anam deyir çox yesən, boğazın ağrıyar.

- Düz deyir, - baba gülümsündü. - Onda gedək uşaqlar oynayan yerə, sən də velosiped sür.

Uşaq babasının birovuz aldığı balaca üçtəkərli, yaraşıqlı velosipedə sevincək minib dairəvi, hamar meydançada yaşıdlarına qoşuldu. Baba bir qədər kənara çəkilib uşaqlarına göz qoyan böyüklərin cərgəsində dayandı.

***

Yuxudan ayılanda qulağıma səs gəldi. Deyəsən onu oyatmasınlar deyə astadan danışırdılar. Qulaq verdi, oğlu anası ilə dərdləşirdi. Ana həmişəki kimi təsəlli verirdi:

- Səbr elə, keçib gedər, inşallah!

- Nə qədr səbr etmək olar, axı?! Heç insafları yoxdur.

Qapı astaca açıldı. Qadın ərini görcək təəccübləndi:

- Durdun, nə tez?..

- Oğlum da özümə çəkib. Nə qədər asta danışsa da, səsi qayım çıxır.

Oğlu atasının sözlərindən pərt oldu. Fəxri kişi qayğılı, kövrək səslə:

- Axırı nə oldu, - soruşdu, - insafa gəldilər?

- Eh, insaf haradaydı, nə qoyub nə axtarırsan.

Kişi heç nə olmamış kimi sakit, ağayana tərzdə:

- Özünü darıxdırma, - dedi. - O köhnə dostumu tanıyırsan də, deyərəm yoluna qoyar.

Ata-oğul söhbətinə sakitcə qulaq verən ananın üzü işıqlandı. Az qala yarım əsri adlayan ömür-gün sirdaşının xasiyyətini yaxşı bilirdi: "dedi-qurtardı".

O, könülsüz halda həbi dilinin altına qoyub sordu. Sonra arvadının uzatdığı stəkanı alıb bir-iki qurtum içdi.

Çox çəkmədi ki, kişinin rəngi duruldu, çaş-baş qalan arvadına ərklə:

- Sən elə bilirsən ki, kişinin ağlı çaşıb, ağzına gələni danışır? - sual verdi.

- Xeyr, hələ canımda təpər var. Görmürsən rayondan dalımca maşın göndərirlər. Köhnə dostlar kənd-kəsəyi gəzdirib ürəyimi açmaq istəyirlər.

Ahıl atasının sorğu-sualı oğlu üçün gözlənilməz, yetərincə kəskin oldu. O, bir anlığa tutuldu, qaş-qabağını sallayıb, incik halda qətiyyətlə:

- Mən heç yana gedəsi deyiləm, - dedi. Bir qədər susub öz-özünə danışırmış kimi sakit, həlim səslə fikrini tamamladı. - Sıravi həkim işləyərəm, dərs deyərəm, imtahana uşaq hazırlayaram... nə təhər olsa ailəmi saxlayaram. Ancaq ayağımı kənara qoymaram. Əcnəbi ölkələrdə oxumaq, biliyini artırmaq, ixtisasını təkmilləşdirmək, görub-götürmək, irəli getmək, özünə gün ağlamaq, ailənə çörək qazanmaq qəbahət deyil. Mənə gəldikdə isə başqa cür fikirləşirəm. Hansı torpaqda, ailədə dünyaya gəlmək insanın iradəsindən asılı deyil. Tanrının vergisidir bu: vətən, ata, ana... Mən onlara arxa çevirə bilmərəm.

Anaya elə bil dünyanı bağışladılar:

- Qurban olum dilinə, oğul, nə yaman deyirsən.

- Olanı deyirəm, ana. Dostlarım, yaxınlarım içində beləələri çoxdur. Elə cavanlar arasında da nə qədər desən var. O gün yaşlı pasiyentim dedi ki, oğlu xaricdə oxuyub. Orada yaxşı iş təklif eləyiblər, razı olmayıb. Deyib, öz ölkəmdə işləyəcəyəm.

- Halal olsun, - Fəxri kişi ürəkdən dilləndi, - yaxşı ki, belə oğullar da var.

- Var, ata, özü də az deyil. Belə ağıllı, savadlı, zirək cavanlarla ünsiyyətdə olanda adamın ürəyi açılır. Onlar deyirlər ki, öz rahatlığın üçün tərk etdiyin yurduna Vətən deyə bilməzsən. Vətən yaşadığın, torpağını qoruduğun yerdir, - oğul dərin düşüncələrə dalan ahıl atasına zənnlə baxıb, - mən də belə düşünürəm, - dedi.

Qocanın çuxura düşüb nurunu itirməkdə olan gözlərinə elə bil işıq gəldi. Qırışlarla dolu üzünə astaca sığal çəkib kövrək səslə:

- Sağ ol, bala, halal olsun, - dedi, - öz övladlarına da belə tərbiyə ver.

***

Odu avazıyan tonqal kimi közərərək qızılı şüaları ilə səmaya, dənizin mavi sularına bənzərsiz naxışlar vuran günəş qüruba enib, üfüqdə qaralan dağların arxasına çəkildi.

Eyvanın məhəccərinə söykənib qürub yerinə tamaşa edən Fəxri kişi dərindən köksünü ötürdü.

- Baba, günəş necə oldu, batdı?

Başını əyib yanında şək dayanan nəvəsinin alnından öpdü:

- Günəş batmır, oğlum, heç vaxt batmır, qürub edir. Qürubun nə olduğunu, inşallah, mənim kimi baba olanda biləcəksən.

Baba qanrılıb sağ əlini Şərqə sarı uzatdı.

- Bax, sabah səhər orada günəş doğacaq, sənin günəşin!

- Mənim günəşim? Ay aman, nə yaxşı!..

- Hə, sənin günəşin, - nəfəsini dərib əlavə etdi, - balalarımızın, dünyamızın günəşi!..

---

Etibar Əliyev

# UMBERTO EKO: DƏRSLİK MÜƏLLİM ROLUNDA



*Hökumətin məktəb dərsliklərinin internetdə verilmiş materiallarla əvəzlənməsi təklifi birmənalı qarşılanmadı. Nəşriyyatlar və kitab satıcıları bunu minlərlə insanın çalışdığı sahəyə vurulan öldürücü zərbə kimi qiymətləndirdilər. Mən nəşriyyatlar və kitabsatanları başa düşürəm. Ancaq bunu da inkar etmək olmaz ki, bu əsasda nələrsə baş verib: onda gərək karet istehsal edənlər, atabaxanlar və faytonçular buxar maşınına, toxucular isə tikiş maşınlarına qarşı çıxaydılar.*

*İkinci etiraz: əgər bu baş verərsə, hər bir təhsilalana kompüter vermək lazım olacaq; çətin ki, hökumət bu qədər xərcin altına girə bilsin və xərclərin valideynlərin üzərinə qoyulması isə o deməkdir ki, onlar dərsliklə müqayisədə daha çox vəsait xərcləməli olacaqlar. Digər tərəfdən hər sinfə bir kompüterin verilməsi internetdən fərdi axtarışı məhdudlaşdıra bilər. Əslində problem başqadır. İnternet dərsliyi əvəzləməməlidir, o çox üslublu şəkildə onu tamamlamalı və şagirdi daha çox oxumağa cəlb etməlidir. Kitab biliyin verilməsi və yayılmasının əsas aləti kimi qalmalı, məktəb dərslikləri əvəzsis olaraq uşaqların kitabdan istifadə etmək imkanlarını artırmalıdır. Bununla yanaşı İnternet rəngarəng informasiyaları təqdim edir, lakin onların seçimində süzgəci təmin etmir. Təhsilin məqsədi təkcə informasiyaların verilməsi olmamalıdır, həm də seçim kriteriyalarını izah etməlidir. Bu vəzifəni istisnasız olaraq müəllim və məktəb dərsliyi yerinə yetirir. Əgər biz uşağa mədəniyyətin üst-üstə toplananlar deyil, arıtma (seçim) olduğunu izah etməsək təhsil deyil, psixi gərginlik əldə etmiş olacağıq.*

*Dərslik ona görə dəyərlidir ki, o müəllimin nəzərindən qaçanları (tənbəllikdən və ya vaxt azlığından) bizm tərəfimizdən aşkara çıxarılmasına şərait yaradır.*

*Bununla yanaşı dərslik məktəb illərini daha həyacanlı və faydalı şəkildə xatırlanmasına xidmət edir.*

*Əlbəttə ki, rəngli ilüstrasiyalı kitablardan imtina etsək, kitab yüngül və ucuz ola bilər. Tarix dərsliyindən Yuli Sezarın kimliyi haqqında oxuyun, sonra kompüterdə Google İmagedə axtarış verib Sezarin təsviri, onun dövründə Romanın rekonstruksiya olunmuş zahiri görünüşü və diaqrmlarla tanış olun. Əgər dərsliklərdə əlverişli saytların adları sadalansa və onlara daxil olub əlavə materiallarla tanış olsaq belə, bütün bunlar şagird üçün fərdi məcara rolunu oynayacaq. Müəllim şagirdinə izah etməlidir: Necə bilək ki, sayt ciddi və mötəbərdir, səthi materiallarla başımızı qatmır! Kitab və İnternet, Kitab və Tüfəngdən (kitab və tüfəng-ideal faşist. Faşizm dövründə könüllü tələbə hərbi qruplaşmanın devizi olub) daha yaxşıdır.*

*Sonda: məktəb dərsliyini ləğv etmək olmaz, internet şagird çantalarına sığışmayan ağır lüğətləri əvəz edə bilər. Ödənişsiz latın, yunan və digər lüğətləri çox vaxt itirmədən internetdən çəkmək mümkündür.*

*Əsas odur ki, kitab qalmalıdır.*

---

Emin Piri

# Hansımızın növbəsidir?!

***Heç vaxt demə ki, heç vaxt!***

***Bunu da gördük!***

***Bunu da etdilər!***

***Tələm-tələsik şəhid dəfnindən sonra şəhidin qardaşının üzr videosunu çəkib bəh-bəhlə paylaşdılar.***

***Bu videonu çəkmək, yaymaq ideyasını kim fikirləşibsə...***

***Bunun bu həssas dönəmdə ən ağıllı fikir olduğunu kim deyibsə...***

***Əmin olun, bax, onlardır bizi sevməyənlər, hətta dediyiniz "düşmən dəyirmanına su tökənlər".***

***O şəxslərdir Müdafiə Nazirliyindən təmizlənməli olan məmurlar.***

***O rütbəlilərdir zəfərimizə kölgə salan,qazandığımız hər qarış torpaq fərəhini burnumuzdan gətirənlər.***

***Araşdırılır deyərdiniz,nə bilim, o qədər söz var ki...***

***Şəhid qardaşının iddiası lap səhv çıxa bilərdi. Hislərlərin təsirindən də ola bilərdi. Hər şey ola bilər.***

***Amma dünən o videonu yaymaqla...***

***Həmin günlərdə bu video erməni silahlı qüvvələrindən üzr istəməkdən daha rüsvayçı hərəkətdir...***

***Hamımızı düşündürür: Görəsən, üzr istəmək növbəsi hansı qazidədir, hansı şəhid ailəsindədir?!***

---



MUSTAFA ÇƏMƏNLİ

# DUYĞULAR - DEYİMLƏR

**İlahi, gör ömrümün günləri necə sürətlə keçir...Hər açılan səhərdən ömrümə nəsə yazmaq istəyirəm.**

***

**Sənə irad tutmağım nəticə etibarı ilə sənin xeyrinədir. Amma sonda sənin ürəyində hörmətini itirən mən olacam.**

***

**Ağa Məhəmməd şah Qacarın axtalığı - fizikidir. O əsl kişidir.**

***

**Boy uca, gözlər qəşəng, di gəl rəftarı erkək rəftarı. Sözü içindən keçirib demir, sözün üstündən keçib deyir.**

***

**Soruşdum:**

**-Sən insanın çiçəkləməsini görmüsənmi?**

**-Yox- dedi.**

**-Təəssüf. Sən özün bu gözəl bahar çağında çiçəkləmisən, əzizim.**

***

**Çoxluq içində darıxdım. Müğənniyə pul verib oxutdular, ancaq ortalıqda içgi olduğundan ona qulaq asan olmadı.**

***

**Xalqa ancaq şairi, yazıçını, müğənnini... bu qədər sevdirmək, onları fetişləşdirmək nəyə lazımdır. Bizə daha çox qəhrəmanlar gərəkdir. Millətimizə qəhrəmanlıq ruhunu qaytaraq.**

***

**Ruhun azadlığından böyük, daha vacib heç nə yoxdur. Ruhun AZAD deyilsə, azadlıqda olsan belə, azadlıqda deyilsən.**

***

**Mənə əzab verən sənin varlığın deyil, sənin təkəbürlü səfehliyindir.**

***

**Əl çaldırmaq üçün kütlənin səviyəsinə enmək diriykən ölməyə bərabərdir.**

***

**Ağıçı özgəsinin ölüsünü elə ağlayır ki, heç doğmaca atasını elə ağlamayıb.**

***

**Çox sifətlər, çox rənglər gördük. Amma sifətdəki saxta kədər rəngini görəndə çaşdım.**

***

**Həyatda erkək cildinə girən qadınlarımız artdığı bir vaxtda, doğrusu, səhnədə arvad donunu geyinməyə həvəs göstərən aktyorları başa düşə bilmirəm.**

***

**Öz ağır xasiyyəti ilə ərinin başını ağartdı, sonra söylədi ki, ağ saçlardan xoşum gəlir.**

***

**Hər gün nəsə yazmaq haqqında düşünürəm və yazmağa hazıram. Xoşbətlikdən heç nə yazmıram.**

***

**Müsibət adamdır, diriləri sevmir, dünyasını çoxdan itirmişləri tərifləyir.**

***

**Bir vaxtlar tarzən Kamil Əhmədovun Seyid Şuşinski haqqında xatirələrini qələmə alardım, indi isə onun haqqında xatirə yazıram.**

***

**Əlbəttə, hər bacadan baxmaq olmur.**

***

**Həssas danışır, həssas düşünmür.**

***

**Özünü itirdim, səsini yox.**

***

**Əsrlərə baxanda adama əlçatmaz, ünyetməz gəlir. Ancaq yadaşdan yaddaşa keçib yüzilliklərə baş vurmaq olar. Əgər mənəvi yaddaş teli qırılmayıbsa.**

***

**Ona o qədər yazıq gözü ilə baxıblar,yazıq olmağa vərdiş edibdir.**

***

**Platon yazırdı: "Hər kəsdə hansısa qorxunc, qanunsuz və vəhşi bir arzu növü gizlənir".**

***

**Güclü əllərin məngənəsində boğulan insan bu dünyanı bərəlmiş gözlərlə seyr edə bilməz.**

***

**Kamil adam cahil adamın yanında ağıllı görünə bilməz.**

***

**Alçağı adam yerinə qoyanda çaşıb adamı alçaldar.**

***

**Sadəliyi başa düşməyənlərə təkəbürlü olmaq gərəkdir.**

***

**Başa düşənin yanında sadəlik böyüklükdür.**

***

**Ötüb keçən hər günün budağından bar dərməyə tələs.**

***

**Qaranlıq gecənin bağrından siyrilib ağ günlərə çıxdım.**

***

**Zərif vücudunda bu güclü iradə hardandı bilmirəm.**

***

**Sev ki, durulasan.Gəl ey gözğörünməz eşq. Gəl ki, həyata qayıdım.**

***

**Dostlar, ürəyimi boşalmağa qoymayın.**

***

**Bu gün Xudu müəllimi andım. Bu böyük alimin sadəliyini xatırlayıb ona Allahdan rəhmət dilədim.**

***

**Özündənrazı adam dünyanın ən bədbəxt adamıdı.**

***

**Biz bu dünüyaya şəkil çəkdirməyə gəlmişdik, çəkdirib getdik.**

***

**Mən səni gözlərimlə oğurlayıb apardım.**

***

**Dahi Üzeyir bəy yazırdı: "Bir millətin ki, dili batdı, onda o millətin özü də batar. Üçünki bir millətin varlığına, isbati-vücud etməsinə səbəb onun dilidir." Biz xalq olaraq Üzeyir bəyin bu kəlamlarını sırğa edib qulağımızdan asmalıyıq.**

***

**Xanəndə Əbülfət Əliyevlə görüşəndə məsəl çəkərdi:**

**-Taxt mənimdi, üstündə yatmıram altında yatıram.**

**-Babalarımızın bir atı, bir xəncəri vardi, torpağı bununla qoruyurdu.**

***

**Məsəldi, bablı babıynan, atlaz qabıynan.**

***

**Sözün ürəyimdə göyərdi.**

***

**Sözü özündən göyçək.**

***

**Dünya yaranandan kişi qadından, qadın kişidən baş açmağa çalışır. Bir birinə möhtac, bir birini tamamlayan bu iki varlıq həmişə axtarışda, dərk etmək, anlamaq amacındadır.**

***

**Zahiri gözəlliyinə görə sən ancaq Yaradanına borclusan. Əsl gözəllik sənin ruhunda olmalıdır.**

**Avqust, 2022**

---

# "Universal" Vəkil Bürosunun ofisinin açılış mərasimi keçirilib

**Bakıda Vəkillər Kollegiyasının sədri Anar Bağırovun iştirakı ilə "Universal" Vəkil Bürosunun ofisinin açılış mərasimi keçirilib.**

Adalet.az-ın məlumatına görə, açılış mərasimində Vəkillər Kollegiyasının sədri Anar Bağırov, deputat Aqil Abbas, vəkillər və hüquqşünaslar iştirak ediblər.

Açılışda iştirak edən qonaqlar ofis ilə tanış olublar.

Bildirilib ki, binada vəkillərin fəaliyyəti üçün tam rahat və komfortlu şərait yaradılıb.

A.Bağırov bildirib ki, Azərbaycanda vəkilliyin inkişafı vəkillərin sayının artırılmasında özünü büruzə verir:

"Bu gün vəkil olmaq hüquqşünaslar üçün bir imic məsələsidir. Düşünürəm ki, vəkil adını daşımaq hər bir Azərbaycan hüquqşünasının arzusudur. Biz çalışırıq ki, vəkilliyə qəbul imtahanı beynəlxalq standartlara cavab versin. Ölkəmizdə vəkil bürolarının sayı artıq 110-u keçib. Bütün bürolarda beynəlxalq standartlara cavab verən və vətəndaşların yüksək keyfiyyətli hüquqi yardım almasını təmin edən şərait yaradılıb".




"Biz bundan sonra da həm Bakıda, həm də regionlarda yeni vəkil bürolarının açılmasına hər cür dəstək verəcəyik. Kollegiya az qurumlardandır ki, özü-özünü maliyyələşdirir. Maliyyə müstəqilliyi olmayan qurum heç vaxt müstəqil ola bilməz. Bu gün vəkilliyə gələn hüquqşünasların 80 faizi 40 yaşına qədərdir", - deyə A.Bağırov qeyd edib.

Universal vəkil bürosunun müdiri Əlizadə Rahim Ələkbər oğlu büronun açılış tədbirində çıxış edib və büronun ümumi sahəsinin 436 kv.m, 7 vəkil otağı, Konfidensial otağı, 1 iclas otağı, Müdir otağı, 1 mühasibatlıq otağı, 1 kargüzarlıq, 1 qeydiyyat otağı, 2 lifti, ayrıca çıxış pilləkəni xüsusi vintilyasiya, isitmə soyutma sistemləri, yüksək keyfiyyətli internet, rabitə qurğusu, kompyuter və digər elektron avadanlıqları, 24 saat mühavizə sistemi ilə təchiz edilmiş geniş 30 kvm.lik və 10 kvm lik vəkil otaqları modern üslubda mebellərlə təchiz olunduğunu bildirib. Büro 4 sanuzeldən ibarət 2 küçəyə çıxışı olan böyük işıqlı binadan ibarətdir.

Büronun işçi heyəti üçün mətbəx şəraiti təmin edilmişdir.Geniş, işıqlı otaqlarda vəkillər üçün komfort şərait təmin edilmiş, konfidensial otaqlar müvəkilin dinlənilməsi üçün rahat şəraitlə təmin edilmişdir. Büroda şəhid ailələri, qazilər, hərbiçilər üçün güzəştli və ya pulsuz hüquqi xidmətlər göstərilməsi, büronun vəkillərinin həmçinin Cəlilabad şəhərində aztəminatlı şəxslərə pulsuz hüquqi yardım aksiyasındada iştirak etdiyi bildirilmişdir. Büromuz 19.04.22 tarixdə təsis edilmiş, 31.05.2022 ci il tarixində fəaliyyətə başlamışdır. Qısa zamanda müəyyən işlər görmüş kollegiyanın tədbirlərində iştirak etmişdir.

Bundan əlavə burada 180 vəkilin işləməsi üçün şərait yaradıldığını və həmçinin hazırda büroda 18 nəfər vəkilin çalışdığı barədə məlumat verilmişdi.

Tədbirdə iştirak edən qonaqlar yeni açılan büronun fəaliyyətinin uğurlu olacağına əminliklərini vurğulayıblar.

**Eyni zamanda, görüş zamanı deputatların və büroda fəaliyyət göstərən vəkillərin iştirakı ilə iclas keçirilib, onların peşə fəaliyyəti zamanı üzləşdikləri problemləri və təkliflərini dinlənilib, Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən son dövrlərdə görülmüş tədbirlər, qarşıda duran işlər barədə məlumat verilib.**



Əbülfət MƏDƏTOĞLU

# Vaqif Bəhmənlinin ÜRƏYİ

## Mənim ürəyimlə yanaşı addımladı

**Onun imzası lap çoxdan tanınıb. Daha doğrusu, lap çoxdan təsdiqlənib. Hələ Böyük Bəhmənlidə, orta məktəbdə oxuyanda sinif yoldaşları da, müəllimləri də, el-oba da bilirdi ki, bir şair böyüyür bu kənddə. Tələbəliyinin ilk illərindən də bu gənc şair imzasını yaxşı tanıda bildi. Universitet mühitində, sonra böyük mətbuatda və beləcə bir şair, bir cavan oğlan, soyadının yerində Bəhmənli sözünü yazdı. Bilmirəm o günə, a ana qədər Bəhmənli soyadlı yazar olmuşdu yoxsa yox. Amma mənim bildiyim budur ki, Bəhmənlini mən o soyadla daha çox sevdim və məndəki bu sevgiyə həmkarım, qələm dostum, bəzən fikir ortağım olan Faiq Qismətoğlu da şirinlik əlavə etdi. Zaman-zaman olan bu təmas özümüzdən-özümüzə, sözümüzə, evimizə, elimizə keçərək daha da şaxələndi. Bir də gördüm ki, barəmdə bir yazı yazılıb. Adı da "Namuslu sözün nişanəsi". Bu yazının müəllifi də Bəhmənli idi, məhz Vaqif Bəhmənli!**

**"Bir şairin bir şeiri" layihəmdə mən də dinc dayanmadım. Kifayət qədər yaradıcılığına bələd olduğum, demək olar ki, bütün kitabları ən dəyərli yatırımım olan Vaqif Bəhmənlinin kitablarından birini əlimə götürdüm. Bu kitabın doğum tarixi 1986-cı il idi. Kitabın adı isə "Yolum üstə bitən gül"dü. Ürəkdən-ürəyə, könüldən-könülə olan yaxınlığın bir nişanəsi də elə bu kitabın adında özünü təsdiqlədi. Necə deyərlər, nə vaxtdan bəri davam etdirdiyim, fikirlərimi paralelləşdirdiyim yol yoldaşlığında bu dəfə Vaqif Bəhmənlinin "Ürəyim" şeirinin qapısını açdım. Özü də özümün "Ürəyim" şeirim ilə.**

**Bu təbii bir haldır. İnsan, xüsusilə şairlər ürəkləri ilə hamıdan çox həmsöhbət olurlar. Çünki ürəyin pıçıltısı onların qələmində sözə, şeirə çevrilir. Bu ilahi pıçıltıların arxasında dayanan ürək şairin sığındığı yeganə ümidgah, yeganə dayaq nöqtəsidi. Ona görə də ürəyinə güvənən şair onunla olan söhbətinin şeirli anlarını oxucuya tər-çiçək kimi təqdim edir. Bu tər-çiçəyin qoxusu da oxucunu o vaxt cəlb edir, öz aurasına alır ki, onda həqiqətən ürək öz işini elə ürək kimi də görür və bax, Vaqif Bəhmənlinin "Ürəyim" deyib üz tutduğu ürək də bu məqamda mənim fikrimə dəstək verir:**

***Yaz günündən isti yığan***
***Sünbül mənim ürəyimdi.***
***Dimdiyimdən nəğmə yağan***
***Bülbül mənim ürəyimdi.***

**Yəqin ki, artıq bu misraları oxuyandan sonra mənim fikirlərimlə razılaşmalı olacaqsınız, bəlkə də artıq razılaşmısınız. Çünki şair poetik bir yozumla sözü ürəyin səsi kimi, ürəyin özü kimi sərgiləyir və o misraların yaratdığı əks-səda şəxsən məni, yəqin elə sizi də inandırır ki, şair ürəyi isti yığan sünbül, həm də nəğmə yağan bülbüldü. Deməli belə olan halda mənim də bülbül olan ürəyim Vaqif müəllimin nəğməsinin ahənginə qoşulur. Bir növ onun səsinə səs verir və deyir ki:**

***dedin sənin yanında***
***heç nə düşmür yadıma***
***səndən ayrılan kimi,***
***başlayır darıxmağa***
***ürəyim!***

***dedim sənin yanında***
***söz tapmıram, danışım.***
***ayrılanda, həsrətlə***
***imkan vermir barışım -***
***ürəyim!***

**Elə bu ovqatla da bir növü özüm-özümü ittiham etsəm də, amma etiraf da etməliyəm ki, mənə həmin pıçıltıları yazdıran ürəyin qarşısında başqa heç nə edə bilməzdm. Çünki söhbət sevgidən, yəni Səndən gedir. Bir halda ki, mövzu da, ünvan da bəllidi, onda ürəyin ismarıcı da icra olunmalıdır. Əks halda ürək küsə bilər. Ürəyin küsməsi isə şairin qələminin susması kimi də yozulacaq haldır. Şükürlər olsun ki, Vaqif Bəhmənlinin ürəyi və qələmi məni bu fikirlərdən uzaqlaşdırıb yenidən öz gülüstanına, öz söz meydanına çəkib gətirir. Və mən həmin o məkanda, o ərazidə yenə Vaqif Bəhmənlinin səsini eşidirəm:**

***Həzin-həzin yırğalanan,***
***Gözündə nəm sırğalanan.***
***O buludmu yorğalanan -***
***Ağ tül - mənim ürəyimdi.***

**Fikir verdinizsə, şair dostum sözü o qədər məharətlə, zərgər dəqiqliyi ilə seçib ki, ürəyin ağ tül olmasını da adam həqiqət kimi qəbul edir. Çünki onun mayasında gerçək sevgi, gerçək vurğunluq var. O sevgi də hər kəsə işıq saçan günəş kimidir. Sadəcə onun şəfəqlərini görmək o işığa bürünmək, isinmək lazımdı. Bunu da yalnız işığa doğru can atanlar, sevgiyə qol açanlar duyur və yaşayırlar. Elə mən də həmin o Vaqif Bəhmənli poeziyasından əxz etdiyim mahiyyətin içərisində sənin səsini eşidirəm, yəni ürəyimin:**

***dedin bunun sonu nə,***
***yolu hara qədərdi?***
***bu görüşlər bəhanə,***
***yaşadığın kədərdi -***
***ürəyim!***

***dedim son da əvvəldi***
***dözəcəm sona kimi.***
***çatlasa, həsrətindən***
***yanacaq qana kimi -***
***ürəyim!***

**Kimsə bu məqamda məni suçlaya bilər, qınaya bilər. Şairliyimin əndazəsini aşdığımı xatırladar. Mən oxucu fikirlərinə qarşı çox səmimi bir şəkildə sayqı göstərərək bircə onu deyə bilərəm ki, ürəyin səsini duymamaq və sevgidən qaynaqlanan hisləri o səsin**



**fonunda görməmək özü mənim üçün həm qəbahətdi, həm də ağrılı bir nüansdı. Yəni ürəyimin bütün titrəyişindən tutmuş döyüntüsünə, göz yaşımdan tutmuş qəhqəhəsinə, ağrısından tutmuş sevincinə qədər hər bir halı mənim həm varlığıma, həm də ruhuma hakim olub hər zaman. Ona görə də bu mövzuya, saf duyğulara həmişə bir bucaq altından, yəni sevginin gözündən baxmışam. Ona görə də kədəri də, həsrəti də, dözümü də, ürəyimin qanın, şirəsi qədər əziz bilmişəm. Onlar qədər mənə hakim olubdur saf sevgi, məhəbbət! Onun da müxtəlif cizgilərini, naxışlarını böyük ədəbiyyatda, böyük poeziyada aramışam, axtarmışam, görmüşəm. O cümlədən də Vaqif Bəhmənli şeirlərində kifayət qədər bu sevgidə tətənnüm edilir və onlarla da mənim təmasım olubdu. Elə ürəyimin ürəyi ilə həmsöhbət olmasının bir səbəbi də budur:**

***Göy çəmənə girər olsan,***
***Bir gül bitib görər olsan.***
***Qan ağlayar dərər olsan -***
***O gül mənim ürəyimdi.***

**Yazımın əvvəlində Vaqif Bəhmənlinin poeziyasının, şeirinin hər bir nümunəsini tər çiçək, tər gül kimi təqdim etdim. Yəqin ki, indi oxuduğumuz bənddən sonra siz mənimlə həmfikir oldunuz. Çünki şair açıq-aşkar oxucuya bəyan edir ki, üzülən gül mənim ürəyimdi. Deməli, burda söhbət fiziki anlamdan, təbiət hadisəsindən yox, sevgidən, həssas duyğulardan gedir. O, həssaslığın bizim görmədiyimiz, amma duyduğumuz tərəfi də məhz hər birimizin ürəyindəki hissdi. Vaqif Bəhmənli bizdən fərqli olaraq həmin HİSSİ gül adlandırır və o gülə toxunmağı ürəyə toxunmaq kimi təqdim edir. Bax, sözün də, qələmin də gücü burdadır. Oxucunu inandıran söz və qələm bu yerdə yalnız düşünməyi və dəyər verməyi gözləyir. Təbii ki, bu gözlənti oxucudandır. Elə mən də öz ürəyimin son pıçıltılarını həmin o gözləmə məqamından istifadə edib sizə çatdırıram:**

***dedin çaşıb qalmışam***
***bilmirəm heç nə edim.***
***tay sən mənim özümsən***
***sənsiz mən hara gedim -***
***ürəyim?***

***dedim mən də dalğınam***
***ay arzum, ay diləyim.***
***dəniz sən, mən dalğanam.***
***ayır görüm sən bizi -***
***ürəyim, ay ürəyim!***

**Bəli, bax beləcə dənizdən dalğanı, özümdən özümü ayıra bilmədən Vaqif Bəhmənli ilə gəlib sözümün nöqtəsinə çatdım. Düşünürəm ki, ürəklərimizin yanaşı dayanıb, yanaşı addımlaması sözün də, oxucunun da xeyrinə oldu. Ən azından bizim ürəyimizin səsi onlara çatdırıldı. O səsdən onlara nə qalacaq bunu özləri daha yaxşı biləcəklər. Amma mənə qalan isə şair dostum, dəyərli Vaqif Bəhmənlinin ürəyinin tər qoxusu oldu. Onun da adı "Urəyim" idi. Sizə də duyğu dolu ürək arzu edirəm.**

# Ustad ruhunun işığında

## Sevgi söhbəti

**O taylı, bu taylı Azərbaycanın sevimlisi olan, elə ədəbi mühitdə də hamının "Əmi" deyə müraciət etdiyi dəyərli bir şairi var idi. Əslində bu gün də var! Ona görə ki, şairlər ölmür, sadəcə bu dünyadan cismləri köçür, ruhları, sözləri yaşayır. Həmin yaşayan şairlərdən biri də, unudulmaz, sevilən, özünün dediyi kimi çöpü də ikiyə bölməkdən çəkinən xalq şairi Söhrab Tahir idi. Mən yaxşı tanıdığım, dəfələrlə həmsöhbət olduğum, hətta ərklə yaşadığı evin qapısını döydüyüm Söhrab müəllimlə dərdləşmək, onun cənub nisgilini içində necə daşıdığını görmək həm maraqlı idi, həm də düşündürücü. Təsəvvür edin ki, Söhrab müəllim bütün sözünün, söhbətinin bir damarını mütləq Təbrizlə bağlayırdı. Orada qalan uşaqlığını, yeniyetmə illərini xatırladır, doğmalarından söz açırdı. Ona görə də xalq şairi Söhrab Tahirin yaradıcılığında bu mövzu ana xətti təşkil edirdi.**

Bu gün Söhrab Tahirlə onun "Döyüş lövhələri" kitabının işığında həmsöhbət oluram. Bu dəfə layihəmin qonağı timsalında onun həmin kitabdakı "Mənəm" şeirini seçmişəm özüm üçün. Bu da bir təsadüfdür. Çünki indi qatılarına işıq salmağa çalışacağım bu şeirdə həm gənclik eşqi var, həm müdrik baxışı, həm də ağsaqqal nəsihəti. Bu üç fərqli, amma eyni kökə söykənən məntiqin canı da, qanı da birmənalı olaraq sevgidi, yolu da sevgidən keçir. Söhrab Tahir yazır ki:

***Şüşədən çiyninə qonan günəşin***
***Payız nəvazişi, öpüşü mənəm.***
***Gün gedər, kölgənin yeri dəyişir,***
***Kölgənin mehriban gəlişi mənəm.***

Siz bu şeiri oxuyanda yəqin ki, pıçıltı ilə deyilən, amma hamının ürəyindən süzülüb keçən sözlərin məna yükünü duydunuz. Hiss etdiniz ki, bunu ancaq sevən sevdiyinə deyə bilər. Özü də baxışlarıyla. Hətta ən, necə deyərlər, çıxılmaz - münasib olmayan anda isə pıçıltı ilə. Çünki burda ömrün payızının xəzəl pıçıltısı, günəşin hərarətinin azalması ilə yanaşı hərəkət edən kölgənin də addım səslərini hiss etməmək qeyri-mümkündü. Bax, mən də elə bu dediyim nüansların içərisində özüm-özüm üçün bir xəyal şəkli çəkirəm. Həmin xəyali şəkil mənimlə pıçıldaşır. Bu pıçıltını da bir mən eşidirəm, bir də Sən:

***mən çəkilib gedəcəyim yerlər var***
***o yerlərə atılanlar uz tutur.***
***dərdlə olub can bir qəlbdə bəxtiyar -***
***lap qanına qatılanlar üz tutur.***

Deməli, bir-birini axtarıb tapmaq, bir-birini səsləmək daxili zərurət olduğu kimi , həm də bu bir-birini tamamlamaq deməkdi. Ona



görə də bu tamlığa gedən yol mütləq ağrı-acıdan, çətinliklərdən keçməyə məhkumdu. Yol boyu isə gözlənilən və gözlənilməyən kifayət qədər məqamların olması da qaçılmazdır. Elə ona görə də xalq şairi Söhrab Tahir deyir ki:

***Telefon zəng vursa, götür hər səfər,***
***Yorğun telefonun zəng səsi mənəm.***
***Sənə salam versə bir gözəl əgər***
***Gözəl yox, o "salam" kəlməsi mənəm.***

Yəqin ki, şairin söylədiyi və hətta işarə vurduğu bu çalarların nə demək olduğunun fərqinə vardız. Hətta sizin üçün salam vermənin özünün məğzi, mahiyyəti açıqlandı. Şair bildirdi ki, telefona gələn zəng də, kiminsə göndərdiyi salam da əslində elə mənim özüməm, mənim ruhumdu, mənim nəfəsimdi, mənim sənə olan diqqətimdi. Sadəcə formaca fərqlidi. Bax, bu yerdə də mən ustad xalq şairimin səsinə səs verib həm onun dediklərini öz səviyyəmdə təsdiqləyir, həm də vurğulayıram ki, mən də bu sevgidə, bu meydanda döyüşməyə bəzən nəyisə təkrar etməyə, yenidən başlamağa laqeyd deyiləm. Əksinə hər şeyi, hər addımı ataram, təki sənin ürəyincə olsun, sən razı qalasan. Axı baxışlarımın da, duyğularımın da, sözlərimin də həm ünvanı, həm mövzusu, həm də bütövlükdə özü SƏNSƏN və SƏN olan ünvana da üz tutmaqdan çəkinmirəm:

***baxışların bir gileyə himdisə***
***duyğularım mizrabına simdisə***
***bu sevginin alıcısı kimdisə -***
***bircə dəfə satılanlar üz tutur.***

Sözün ən incə, necə deyərlər, nəfəsdən də zərif bir məqamını ustad məharətlə şeirləşdirərək fikrinin zirvəsinə üz tutubdu. O, əvvəlki iki bənddə söylədiklərini sanki təsbeh muncuğu kimi ardıcıllıqla düzərək onu həm diqqətçəkən, həm düşündürən, həm də mənalı edibdi.

Və həmin mənaların da nidasını sonuncu bənddə elə işarələyib ki, hardan baxsan görünür. Necə deyərlər, burda başqa nəsə deməyə söz tapmaq olmur. Sözün sanki bir anlıq da olsa nəfəsi dayanır:

***Saçına əl çəkdin məktub yazanda,***
***Saçında əbədi qıvrımlar mənəm.***
***Görüşünə gələn mən olmasam da***
***Sənə tərəf gələn addımlar mənəm.***

Mən bax elə bu son bəndin ip ucundan tutub bir xəyal kimi Sənə tərəf gəlirəm. Özü də məndən öncə ruhum gəlir, addımımın səsi gəlir. Bu həsrətin səngərini yarmaq anıdı.

O səngəri aşıb gələn sevgi qalib sevgidi. Mən bax elə dediyim, söykəndiyim notların üzərində hamının eşidəcəyi bir səslə sənə üz tuturam:

***bildiyini kimdi deyən, bunu dan!***
***axşam-səhər bölgüsünü unudan.***
***o yerlərə özün baxıb bil, inan -***
***ocaq kimi çatılanlar üz tutur.***

**Bilmirəm, fikirlərimi, daha doğrusu ustadın şeirinə söykənib söylədiyim məqamların mahiyyətini sizə çatdıra bildim yoxsa yox?! Amma bütün hallarda xalq şairi Söhrab Tahirin, yəni Söhrab əminin ruhuna ehtiramla bir şeirin işığında sevgidən danışdım, sevgidən yazdım. Ustadın ruhu şad, sizin də canınız sağ olsun!**

**Əbülfət MƏDƏTOĞLU**

# Qocalmağa Akif Səməd yanaşması...

**İnsan dünyaya gəldiyi andan, xüsusilə özünü dərk edəndən sonra daha çox böyüməyə, həyatın bu və ya problemləri ilə qarşılaşmağa, özünü hər sahədə sınamağa can atır. Necə deyərlər, gənclik, yetkinlik və digər yaş bölümlərində böyümək üçün az qala sinov gedir. Sanki il üstünə il gələndə otuzu-qırxı haqlayanda özünü daha rahat hiss edir. Elə ki, yaş əllini haqladı, onda peşəkar sürücü kimi bir ayağını maşının əyləcində saxlamağa çalışır. Amma illəri, zamanı saxlamaq mümkün deyil. Bu mənada söz adamları, xüsusilə də aşıqlar, şairlər, yaşla bağlı tez-tez sarı simə köklənirlər...**

Qısa bir ömür yaşadı Akif Səməd. Bu qısa ömründə elə bir əli sözdə, bir əli də bu dünyanın yaxasında oldu. Ona görə də hər yerdə anıldı, hər yerdə göz, könül onu axtardı. Bu gün də belədi. Təbii ki, yaxından tanıdığım, tez-tez həmsöhbət olduğum Akif Səmədin yaradıcılığına da kifayət qədər bələdəm və elə onun bu gün diqqətinizə təqdim etdiyim şeiri də yaşla, ömür-günlə bağlıdır. "Bir şairin bir şeiri" layihəmin qonağı Akif Səmədin "Özümə yol" kitabından götürdüyüm bu şeirin ovqatı da, ruhu da, elə oradakı mənzərə də mənim indiki halımla üst-üstə düşür. Akif Səməd yazır ki:

***Vərəqə düşə bilmir***
***Qələmdə söz qocalır***
***Gedib kəndimə yetmir,***
***Arxamda iz qocalır.***

Gördünüzmü, dəyərli oxucu. Sözü qocalmayan, ruhu həmişə bizimlə olan Akif Səməd qocalan izlə, ömürlə, dəftər-qələmlə bağlı hansı məqamları diqqətə çatdırıb və bu mənaların alt qatında nələr yatır. Zənnimcə, təkcə kəndimizə yox, bəzən özümüzdən özümüzə də çatmayan əlimizin məsafəsi, cığırı, izi də gözümüz görə-görə qocalır. Ona görə də Akif Səmədin bu yanaşması mənim də qocalan ömrümü bir kino lenti kimi gətirir gözümün qarşısına və mən də:

***Mən ömür içində ömür əridib***
***Günlərin içində gün kiridirəm...***
***Sevginin əlindən tutub yeridib -***
***Ölməyə qoymayıb qəm dirildirəm...***

Əslində, insan təkcə qurub yaratmır, həm də uçurub dağıdır. Özü də ,bu sonuncu proses iki məna daşıyır. Biri yenilik, yəni təzələmək, dağıtdığını, sökdüyünü daha yaxşı, daha diqqətəlayiq etmək, ikincisi də vandallıq baxımından gerçəkləşdirilir. Bunu da insanlar düşmənçilik kökləri üzərində edirlər. Deməli, hər iki halda insanın qurmaq, dağıtmaq missiyası danılmazdı. Bax, müqayisə uğursuz olsa da, mən də içində təkcə gün əritmirəm, həm də o əriyən günün mənə bağışladığı qəmi yaşadıram, qəmi dirildirəm. Bu isə bir az şairlik, bir az xəyalpərvərlik, bir az duyğusallıqdır. Amma Akif Səməd onu mənim dediyim prizmanın başqa bir bucağı altında ifadə edir. O, yazır ki:

***İncəsiz Kür azalır,***
***Axırdı gur - azalır***
***Gözümdə nur azalır***



***Bağrımda köz qocalır.***

Gördünüzmü, burda Kür çayının ovqatı, mənzərəsi, onun gerçək durumu necə poetik baxış altına düşür. Bu baxış altı isə fəlsəfə dilində şair üçün qocalmaqdır. Onu da duymaq üçün ən azından Akif Səməd olmaq gərəkdir. Mən Kürün suyunun azalmasının səbəbini min yerə yozan adam tapıb çıxara bilərəm ortaya. Amma o suyun azalmasının mayasında, canında qocalmaq olmasını yalnız Akif Səməd görüb, fəhm edibdi. Ona görə də gözdə azalan nur da, Kürün azalan suyu da onun üçün qocalmaq anlamını sözlə, şeirlə demək imkanını yaratmış olur və mən də elə həmin o əritdiyim günün içərisində gördüyüm mənzərənin davamını belə sərgiləyirəm:

***Siz də yaxınlaşın təsəlli üçün***
***Məni hər çəkdiyim gün "ah"a bükün...***
***Sevməkdi günahım vallah, büsbütün -***
***Siz məni elə bu, günaha bükün...***

Düşünə bilərsiniz ki, məni qocaldan hər bir ah ümumi yanaşmadır. Lakin burda bir məqam da var. O ahın səbəbkarıdır həmin O məqam da! Deməli, hər cür dərdin ifadəsi olan ah mənim üçün həsrətin ifadəsi, həsrətin cizgisidi. O ah da, o cizgi də ruhumla, ürəyimlə birlikdə yaşa dolur, qocalır və mən də onun təsirindən, onun aurasından çıxa bilmirəm. Onda yenə üz tuturam Akif Səmədə:

***Kənddəki qara daş mən,***
***Qara daşa qardaş mən***
***Qardaşım, mən cəhənnəm,***
***Uşaqlar tez qocalır.***

Görün Akif hardan-hara gəldi. Öncə qələm, kağız, iz qocaldı, sonra gözün nuru, Kürün suyu və nəhayət, şairin özü. Amma bunların heç biri onun üçün qayğıya, dərdə çevrilmədi. Təbii ki, bu şeirin içərisində, bu məqamda, yəni böyük yanaşmada, amma fərdin baxışı altında isə o sadaladığım qocalmaların ən dəhşətlisi Akif Səmədə görə uşaqların qocalmasıdı. Bir anlıq həmin mənzərni özünüz üçün yaradın. Onda görəcəksiniz ki, uşaqların və yaxud uşaqlarımızın qocalması neçə səmtə, neçə yerə yozula bilər, onun qatlarında nələri görmək olar və hər kəsdə gördüyü bu qocalma üçün daxilən üzülər, əndişələnər...

Elə mən də həmin o uşaqların qocalmasının nə demək olduğunu içimdə çözə-çözə dünyanın namərdliyini qınaya-qınaya çevrəmdəkiləri saf-çürük edə-edə, yenə sonda gəlib dərdlə, tale ilə kəlləl əşirəm. Onun buynuzlarını qırmağa çalışıram. Amma alınmır. Çünki:

***Həyat zərbələri qılıncdan da sərt***
***Ürəyin tüstüsü ərşə ucalır...***
***Deyəsən tamamdı kəsilən o şərt -***
***Qocalır Əbülfət, yaman qocalır...***

**Hə, gördünüz ki, yaşla bağlı, zamanla bağlı baş verənlər öz canını, qanını yaşamı da əlavə edəndə onda qocalma necə sürətlənir. Bax, bu mənada indi və bütövlükdə həyatım boyu yaşadıqlarım yaş üstə yaş gətirmək, ömrü qısaltmaq üçün əlindən gələni hər şeyi edib və edir. Ona görə də Akif Səmədin qorxduğu qocalıq da, mənim də qocalmağım əl-ələ tutub meydan sulayır...**

**Əbülfət MƏDƏTOĞLU**

# Yaxşı ki, yollarımız kəsişdi

**Bir az uzaqdan başlamaq istəyirəm yazımı, lap uzaqdan. Onda hələ Böyük Vətən müharibəmizin "daş "dövrü idi və mən ancaq imzasından tanıdığım Vaqif Cəfərli bir şeir çap elətdirmişdi mətbuatda. Həmin şeirdə də söhbət mənim kəndimə, daha doğrusu evimdəki telefonuma zəngin çatmamasından bəhs edirdi. Onda Vaqif Cəfərli yazmışdı ki: "Alo, alo, dispeçer, Beyləqana cavab ver". Şair dostum məndən cavab gözləyirdi. Elimdən, evimdən cavab gözləyirdi. Xəbər tutmaq istəyirdi baş verənlərdən. Təbii ki, Qarabağda nələrin baş verdiyindən sonralar hamı kimi Vaqif Cəfərli də xəbər tutdu və mənim ailəmin qaçqın taleyi onu da rahatsız etdi. Elə günlərin bir günü də Beyləqanda qarşılaşdıq, onunla qiyabi tanışlığım reallığa çevrildi. Sonra da dostlaşdıq, ailəvi gediş-gəliş bizi bir az da mehribanlaşdırdı. Bu münasibətlərdə poeziya əvəzsiz rol oynadı. Çünki Vaqif sözün həqiqi mənasında şair idi.**

Nə zamandan bəri yazdığım "Bir şairdən bir şeir" layihəsində bu dəfəki yol yoldaşım, həmfikirim Vaqif Cəfərlidir. Onun "Dünyanın burdan beləsi" kitabında diqqətim bir şeir çəkdi. Oxudum, oxuya-oxuya da rəhmətlik Qarabağ sevdalı alim, şair Ənvər Əhməd düşdü yadıma. Onun Vaqif Cəfərliyə böyük rəğbəti, diqqəti vardı. Xətrini necə deyərlər dünyalar qədər istəyirdim. Vaqifə də "Qara şair" deyə müraciət edirdi. Bax, elə bu şeiri oxuyanda həmin məqamları xatırladım və hələ də Vaqifin yazdıqlarının gerçəkliyə çevrilmədiyinə üzüldüm. Çünki şair duyumu, şair fəhmi zamanı həmişə qabaqlayıb. Görünür, elə Vaqif də həqiqi şair olduğu üçün nə yazdığının, nə dediyinin fərqində olub. Ona görə də yazıb:

***Qəlbimizdə dözüm gəzir, döz gəzir,***
***Açılmayıb tale verən göz hələ.***
***Aramızda həsrət adlı söz gəzir,***
***Qovuşmaqdan heç düşməyib söz hələ.***

Mən istər sevgidən, istər dost münasibətlərdə, istər adi həyatda qaranlıq məqamların həmişə əleyhinə olmuşam. Düşünmüşəm ki, "Hələ" sözü, "hələ" zaman var fikri, "hələ" döz ifadəsi yola vermək üçün işlədilir. Ona görə də hələni oturub gözləmək candan can qoparır.

Bax, bu mənada ürəyimizin axtardığı, duyğularımızın söykəndiyi HƏLƏ bəzən incidir bizi. Mən də bu inciklikdən, bu rahatsızlıqdan yorulub əldən, heydən düşəndə öz-özümə pıçıldayıram:

***Bir az çiskin, bir az qrov, bir az nəm***
***Kirpiklərin düzümündə olub cəm...***
***Mənə tərəf bulud kimi enən qəm,***
***Ürəyimi üşüdürsən hələ də...***

Gördüyünüz kimi, duyğular, istəklər nə qədər bir sıraya düzülsə də qəm, kədər bulud kimi üstümüzə əyilsə də, içimizdəki həmin o HƏLƏ bizdə bir ümid işığı kimi közərir və biz də o közərtiyə, o işığa baxa-baxa həyatımızı təkcə səmtini yox, həm də axarını da elə nizamlamağa çalışırıq ki, ünvana çata bilək. Yəni əlimiz boşda qalmasın, ürəyimiz ağrıda. Ona görə də girovuna çevrildiyimiz həssas, bəzən də kövrək duyğular bizi qələm, dəftərlə qarşı-qarşıya gətirir. Bax, onda biz, yəni şair Vaqif Cəfərli birmənalı olaraq deyir ki:

***Qara saçdı ağ-ağ dənəm həyatda,***
***Çəkilməyən duman, çənəm həyatda.***
***Nə sən sənsən, nə mən mənəm həyatda,***
***Qəlbimizi yandıracaq köz hələ.***

Onun verdiyi qərar, çıxartdığı nəticə təkcə özünə aid deyil, çevrəsində, iç dünyasında, bir sözlə, dəyər verdiyi hər kəsdə o dözüm axtarmaqla yanaşı, bu həyatda özünü də, səni də görmək, özü də olduğu kimi görmək istəyir. Bu elə bir istəkdir ki, onun qarşısında heç nə duruş gətirə bilmir. Ona görə ki, həmin istək tükənmir, bitmir, meydandan geri çəkilmir. Mən də bu istəyə söykənib sənə deyirəm ki:



***Yara bilmir buz sərhəddin nəfəsim***
***Həsrət adlı bir quyudu qəfəsim...***
***Kallayıbdı, güclə çıxır tay səsim -***
***Ürəyimi eşidirsən hələ də?..***

Şeirinin ilk misrasından bir mücərrətliyə, amma həm də gerçəklik içərisindəki mücərrədliyə söykənən Vaqif Cəfərli sonuna qədər o mücərrədin mütləq reallığa çevriləcəyinə inanıb. Özü də bu inam onun ürəyinin səsidi, duyğularının hökmüdü. Bunu yaxşı bilən şair oxucusu ilə son bənddə bir növü qarşılaşıb halallaşır:

***Bu dünyanın haqq-ədalət taxtı yox,***
***Bu Vaqifin üzə gülən baxtı yox.***
***Bu həsrətin göyərməyə vaxtı yox,***
***Mən bu tayda, sən o tayda döz hələ.***

Artıq mən də, siz də gördük və bildik ki, həsrətimizin göyərməsi üçün təkcə sevmək kifayət deyil, həm də onun uğrunda mücadilə etmək, çarpışmaq lazımdır. O yerə qədər ki, həmin yerin adı sevginin vüsala çevrildiyi nöqtədi. Bax elə bu tayda da, o tayda da, lap elə dünyanın harasında olur-olsun söykəndiyin sevgi sənə xəyalən də olsa vüsal yaşadır, ümid bəxş edir. Həmin vüsal da, ümid də özü-özlüyündə təsəllidi - xoş bir təsəlli. Mən də bu təsəlliyə söykənirəm və:

***Saçlarını daramayan baxışın***
***Heç bir işə yaramayan baxışın...***
***İstisindən yanaq yanan yağışın -***
***Ürəyini düşünürsən...hələ də!***

**Yaxşı ki, yollarımız kəsişdi...yaxşı ki, ruhlarımız bir-biri ilə çiyindaş oldu və bu gün də dəyərli bir dost, gözəl bir şair kimi xatırladığım Vaqif Cəfərlinin ruhu məni öz söz dünyasına çəkib apardı. O dünyada mən həm Vaqifi gördüm, həm də özümü. Bu isə Vaqif Cəfərlinin yenə öz işində, yəni şairliyində olduğundan xəbər verdi...Ruhun şad olsun, şair Vaqif Cəfərli!**

**Əbülfət MƏDƏTOĞLU**

# Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 36 (2310) 17 sentyabr 2022-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi


# QƏDİMLİYİN ƏZƏMƏTİ, MÜASİRLİYİN TƏNTƏNƏSİ



**Vətən müharibəsindəki böyük qələbəmizin təntənəsi, yalnız irəliyə olan ədalətli yolumuzun işığında ölkəmizin daha da inkişafı bizi hədsiz qürurlandırır. İndiki mürəkkəb geosiyasi vəziyyətdə respublikada bütün sosial proqramların uğurla həyata keçirilməsi reallığı əks etdirir və sevinc doğurur. Bu uğurların Qax rayonunda da müntəzəm xarakter alması bölgənin stabil inkişafından xəbər verir. Bu rayonun istər dağlıq və dağətəyi kəndləri, istərsə də aşağı düzən kəndləri eyni qayğı və diqqət sayəsində ən müasir yaşayış məntəqələrinə çevrilməkdədir. Yeni yollar, yeni tikililər, yeni məktəblər digər sosial və mədəni istiqamətli tərəqqi... Bu mənada rayon mərkəzinin öz qədim ənənələri üzərində büsbütün müasirləşməsi də inkişafın təntənəsini təsdiqləyir.**

Tanıyanlar bilir ki, Qax Rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev təcrübəli, işgüzar və prinsipial rəhbər işçi olmaqla yanaşı, həm də ziyalı və səmimi bir insandır. Bu gözəl keyfiyyətlər onun nüfuzunu daha da artırır, sakinlərə daha da yaxınlaşdırır. Və bütün bunların da nəticəsində rayonda yüksək səviyyəli sağlam mühit formalaşır. Bu, xalqa və dövlətçiliyə xidmətin nümunəvi göstəricisidir.

Bütün bunlar vətənpərvərliyin, xalqla iqtidar birliyinin, xoş niyyətli əməllərin nəticəsidir. Elə cənab Prezidentimiz İlham Əliyevin dediyi kimi: "Ölkəmiz beynəlxalq aləmdə layiqli yerini tuta bilmişdir. Daxildə proseslər müsbət istiqamətdə getmişdir. İslahatlar aparılmış, böyük nailiyyətlər əldə edilmişdir. Biz hamımız Ulu Öndərin siyasi xəttinə sadiqik, bu xətti davam ediririk...".

Adamı sevindirən məsələlərdən biri də budur ki, uzaq olduğuna görə əvvəllər çox az sayda qonaq-qarası olan Qax rayonu, indi sanki bütün Azərbaycanın diqqət mərkəzindədir. Şəhərin içərilərindən ucqarlarına kimi yeni tikilən və ya bərpa edilib müasirləşdirilən sosial-mədəni obyektlərin sayı o qədər artıb ki, elə bil sən burada tamam başqa bir şəhərlə üzləşirsən. Amma çox səmimi, çox şirin, çox gözəl bir vətən torpağı, vətən ucalığı.



Sakinlər Qax rayonunun bu cür sürətli inkişafına görə həmişə cənab Prezidentə minnətdar olduqlarını bildirirlər. Məsələ burasındadır ki, respublikanın bütün bölgələrinin yüksəlişinə xüsusi qayğı və diqqətlə yanaşan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev son illər Qax rayonun da inkişafına dair müxtəlif sərəncamlar imzalamış, vətənin bu gözəl diyarına çoxlu səfərlər etmişdir.

Qax rayonunda sakinlərin və eləcə də buraya gələn turistlərin rahatlığı üçün çox işlər görülür. Rayon rəhbərliyinin camaatla sıx ünsiyyəti bir çox məsələlərin həllini arzulanan səviyyədə mümkünləşdirir. Qax Rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyevin nümunəvi fəaliyyətindən rəhbərlik etdiyi komandanın işgüzarlığından bütün tədbirlərdə, adi məclislərdə belə razılıqla söhbət açılır.

Qax rayonunda regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası uğurla həyata keçirilir. Bu rayon indi təkcə təbiət gözəllikləri ilə deyil, şəhərdəki və kəndlərdəki yenilikləri, müasirləşməsi və nəticə etibarı ilə əhalinin yaşayış tərzinin yaxşılaşması ilə də fərqlənir, gələcəyə inamla addımlayır. Qax şəhəri daha da gözəlləşir. Bu yerlərin ən sıx turizm marşurutlarından biri olması görülən işlərin əhəmiyyətini iki qat artırır. Modernləşmə yeni xüsusiyyətlər üzərində qurulduğundan inkişafın gələcək perspektivlərinə də işıq salır, insanlarda ruh yüksəkliyi yaradır.

Son illərin ən uğurlu və diqqət çəkən yeniliklərindən biri də Qax şəhərinin mərkəzindəki tarixi yer - abidə olan İçəribazarın restavrasiyası, əhalinin və qonaqların istifadəsinə verilməsidir.

Unikal abidənin yenidən qurulmasının ideya müəllifi elə bu torpağın yetirməsi və fəxri olan Azərbaycan Respublikası Baş Nazirinin müşaviri Əhməd Əhmədzadədir. Bölgədə bundan əlavə də bir sıra diqqət çəkən tədbirlərin təşəbbüskarı və təşkilatçısı kimi Ə.Əhmədzadənin adı həmişə iftixarla çəkilir.

Hələ Kürmük çayı boyunca zirvələri göz qamaşdıran dağlara doğru aparan yolun sağı-solu... Dünyanın ən gözəl mənzərələri... Hələ bir az yuxarılarda sanki bəd nəzərlərdən gizlənirmiş kimi İlisu fenomeni!

İlisu rayon mərkəzindən 12 km aralıda, Kürmük çayının sahilində dəniz səviyyəsindən 1400 metr yüksəklikdə, eni 1 km, uzunluğu isə 5 km olan dağ yamacında yerləşir. İlisu yaşayış məntəqəsi buradakı isti bulağın adı ilə adlandırılmışdır. Bu, kənddən 5-6 km şimal-şərqdə Hamamçay dərəsində hərarəti 40 dərəcəyə çatan isti qaynaqdır. Lap qədimlərdən insanların yel xəstəliyindən müalicə aldığı unikal bir yerdir. Həmin yerlərə, eləcə Tovlatalaya, Dağıstanla sərhəddə yerləşən qədim Sarıbaş kəndinə gediş-gəlişi birdəfəlik rahatlaşdıran aşırımlı körpü salınmışdır. Eni 6, uzunluğu 100 metr olan müasir körpü bir çox problemləri həll etməklə yanaşı, rayonda turizmin daha da inkişaf etməsi üçün əvəzsiz töhfədir. İlk orta əsrlərdən başlayaraq cənubi Qafqazdan Dağıstana gedən karvan yolları İlisu ərazisindən keçib. Bu qədim yaşayış məskəni XVI əsrin II yarsından XIX əsrin ortalarına qədər mövcud olan İlisu sultanlığının mərkəzi idi. İlisuda Qarabulaq ərazisində yerləşən Alban məbədi (VII əsr), kənddən 5 km cənub-qərbdə yerləşən Çinli qala (VII əsr), Orta Köhnə dağında yerləşən VII əsrə aid məscid qalıqları və qəbiristanlıq, XVII əsrə aid Ulu körpü, XVIII əsrə aid Sumuq qala...

Təsadüfi deyil ki, bütün bunları nəzərə alan Azərbaycan hökuməti burada İlisi Dövlət Təbiət və İlisu Tarix-mədəniyyət qoruqlarının yaradılması haqqında Sərəncam vermişdir.

Son illər daha çox məşhurlaşan İlisunun dəqiq yaşını müəyyənləşdirmək hələ ki, mümkün olmayıb. Tovlataladakı qəbiristanlığın da məzar daşları əlimiz-sübutumuz çatmayan uzaq qədimliyin nişanələridir. Eləcə İlisudan yuxarı, sanki İlisunun bir peyki olaraq göy qübbəsinə dirənən Sarıbaşın özü də daş evlər, daş yollar, daş cığırlar da sanki qocalıb keçmişdə qalıblar. Burada dağlar da qoca görünürlər. Ancaq ilk baxışda belədir. Adam özünü bu kənddə əvvəl-əvvəl sirli bir qədimlik havasında hiss edir. Onsuz da İlisuda daimi yaşayan sakinlər özlərinin bütün adət-ənənələrini gündəlik məişətlərində yaşadırlar. Süfrələrindən tutmuş geyimlərinəcən. Ən əsası yüz illərlə öyrəşdikləri danışıq dili. Bu dil Qafqazda yaşayan azsaylı-çoxsaylı xalqların heç birinin dili deyil. Öz dilimizdir. Bir az qədim, bir az şivəli təmiz türkçəmizdir.

**...Və sonra buradan aşağılara boylanıb gözəl Qax şəhərini görürsən, bir az aşağılarda isə bərəkətli, bağ-bağatlı, xoş güzəranlı Qax kəndlərini...**

**Məzahir ƏHMƏDZADƏ**

**AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ**

**18 sentyabr Üzeyir Hacıbəylinin doğum günüdür**

# Üzeyir bəy və Səməd Vurğun dostluğu xatirələrdə



***Ramiz GÖYLƏR***

*Mən poeziyanı musiqisiz təsəvvür edə bilmirəm. Bu mənada Səmədin şeirləri əvəzsizdir.*

Üzeyir Hacıbəyli

**Tanrının insanları xəlq edərkən ona verdiyi əvəzis nemətlərdən biri səsdirsə, digəri sözdür. Əslində söz hələ təklikdə elə bir məna kəsb eləmir, hikmət deyil. Sözün qüdrəti o zaman ali məqama çatır ki, özü ilə qoşa işlənir, yerində oturur, söz sərraflarının qüdrəti sayəsində öz məqamına yüksəlir. Lakin bu da hələ hamısı deyil. Söz musiqi ilə vəhdətdə olanda onu heç nə ilə əvəz etmək mümkün deyil.**

Hər kəsə aydındır ki, "Yaradan" ifadəsi Allahın adlarından biridir. Yaratmaq dedikdə ilk olaraq Tanrı yada düşür. Lakin biz həm də bəstəkara, şairə, heykəltəraşa, rəssama da yaradan deyirik. Cünki onların xilqətində yaratmaq qüdrəti var. O da məlumdur ki, dilimizdə yaradanları Tanrıdan fərqləndirmək üçün sadaladığım sənət adamlarına yaradıcı adamlar, Tanrıya isə Böyük Yaradan deyirik.

Bu yazıda XX əsrdə Azərbaycan xalqının dünya mədəniyyətinə və söz sənətinə verdiyi iki dahi sənətkar və onların dostluğu haqqında söz açacağıq. Bu günlər biz dahi Üzeyir bəyin anadan olmasının növbəti 137-ci ilini qeyd ediriik. 18 sentyabr Üzeyir bəyin doğum günüdür. Bu tarixin qeyd edilməsi ənənəsinin əsasını Üzeyir bəyin qardaşı oğlu, Hacıbəylilər nəslinin görkəmli nümayəndəsi, məşhur bəstəkar və drijor Niyazi qoymuşdur. 1995-ci ildə Ümumilli liderimiz Heydər Əliyevin sərəncamı ilə Üzeyir bəyin andan olduğu gün Üzeyir Musiqi Günü kimi təssis edildikdən sonra bu tarix daha geniş və daha möhtəşəm qeyd edilir. Artıq ikinci ildir ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və Azərbaycan Əsgərinin misilsiz qəhrəmanlığı sayəsində Üzeyir Musiqi Günü bəstəkarın vətəni Şuşada qeyd edilir. O da əlamətdardır ki, 18 sentyabr həm də Azərbaycan xalqının digər görkəmli bəstəkarı, Üzeyir Hacıbəylinin seminariya yoldaş və dostu, sonradan isə bacanağı Müslüm Maqomayevin də doğum günüdür və düşünürəm ki, Ümumilli liderimiz Heydər Əliyev heç şübhəsiz bu faktoru da nəzərə almamış deyi.

Kimin bu fikrə necə yanaşmasından asılı olmayarq mənim qənaətim belədir ki, tarixin müxtəlif dönəmlərində, dünyanın müxtəlif xalqları içərisində nə qədər dahi bəstəkarlar olsa belə Üzeyir bəy onların hamısından başda durur. Təkcə ona görə yox ki, Üzeyir bəy mənim xalqımın nümayəndəsidr,(Həm də elə ona görə) həm də ona görə ki, bu dahi bəstəkarın bütün yaratdıqları ilkdir. Yəni ondan əvvəl onun sökəndiyi ənənə, məktəb, bünövrə olmayıb və məhz elə Böyük Yardanın verdiyi fitri istedad, qeyri-adi fitrət nəticəsində O, yaratdıqlarını yarada bilib. Diqqət yetirək . Nə qədər qüdrət, enerji və istək sahibi olmalısn ki, Azərbaycanın professional musiqi sənətinin banisi, müsəlman dünyasında ilk operanın, ilk operettanın, Müstəqil Azərbaycanın və Azərbaycan SSR-ni himninin müəllifi, Respublikamızda ilk xalq çalğı alətləri orkestrimizin, mahnı və rəqs ansamblımızın, xorumuzun, simfonik orkestrimizin yaradıcısı və rəhbəri olasan. O, Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü (1945), professor (1940), Azərbaycan Konservatoriyasının rektoru (1928-1929, 1939-1948), Azərbaycan SSR Bəstəkarlar İttifaqının sədri idi.(1938-1948).

***Elə sadaladığım səbəblərin nəticəsidir ki, Üzeyir Hacıbəyli Azərbaycan tarixinə dahi bəstəkar, görkəmli pedaqoq və alim, peşəkar jurnalist, yazıçı, dramaturq, publisist,musiq etnoqrafı, tarixçi, musiqi təşkilatçısı, drijor və ictimai xadim kimi daxil olmuşdu. Azərbaycan və SSRİ mədəniyyətinin inkişafındakı xidmətlərinə görə dövrünün ən ali mükafatlarına- Lenin Ordeninə, iki dəfə Stalin mkafatına, SSRİ-nin və Azərbaycan SSR-nin Xalq artist fəxri adlarına layiq görülüb. İki çağırış SSRİ Ali Sovetinin deputatı seçilib. Üzeyir bəy ciddi pedaqoji fəaliyyətlə məşğul olaraq Azərbaycanda və xaricdə bir sıra məşhur bəstəkarların yetişməsində biavasitə rol oynamışdır. Təkcə raespublikamızda hər biri bütövlükdə bir bir xalqı təmsil edəcək və fəxri sayılacaq qədər səviyyəyə qalxan böyük bir bəstəkarlar ordusu yetirmişdir. Dünya şöhrətli, Məşhur bəstəkarlarımızdan Əfrasiyab Bədəlbəyli, Səid Rüstəmov, Asəf Zeynallı, Şəmsi Bədəlbəyli, Niyazi, Cövdət Hacıyev, Tofiq Quliyev, Qara Qarayev, Cahangir Cahangirov, Fikrət Əmirov, Şəfiqə Axundova və digərləri bir başa Üzeyir bəyin məktəbindən keçmişdir. Təsadüfi deyil ki, məşhur bəstəkarımız Fikrət Əmirov deyirdi: "Biz hamımız Üzeyir məktəbindən çıxmışıq".***

Üzeyir Hacıbəyov musiqi sahəsində və Azərbaycan mədəniyyətində elə bir zirvə kəşf etmişdir ki, o zirvəyə hələ heç kim qalxa bilməmişdir. Dünya şöhrətli bəstəkar, Qara Qarayev deyirdi: "Üzeyir bəyin Azərbaycan mədəniyyəti qarşısındakı xidmətlərini bir cümlə ilə ifadə etsək deməliyik ki, "O, Azərbaycan Mədəniyyətinin Atasıdır."

Bu yazıda mənim məqsədim Üzeyir bəyin Azərbaycan musiqisi, ədəbiyyatı və mədəniyyəti qarşısındakı xidmətləri, Azərbaycan tarixindəki yeri barədə yazmaq deyil, məqsədim Azərbaycan ədəbiyyatının digər bir nəhəng nümayəndəsi Xalq şairi Səməd Vurğunla Üzeyir bəyin arasındakı münasibətlər və dostluğu barədə görkəmli sənət adamlarının, jurnalistlərin və tədqiqatçıların indiyədək deyilmiş fikirlərindən, xatirələrindən nümunələr gətirməklə, bu iki dahini yeni nəslə yenidən təqdim etmək məqsədi daşıyır. Sözsüz ki, Üzeyir bəy və Səməd Vurğunun döstluğu və yaradıcılıq əlaqələri barədə zaman-zaman məqalələr yazılıb, tədqiqatlar aparılıb. ( Bu məqamda üzeyirbəyşünas Səadət xanım Qarabağlının yazılarını xüsusi qeyd etmək istərdim). Bununla belə mən də bu böyük dostluq barədə bu yazını hazırlayarkən müəyyən araşdırmalar apardım və yazıda istinad edəcəyim fikirlərin mənbə və müəlliflərini hökmən qeyd etməyi borc bilirəm.



***Düşünürəm ki, o zamankı ölkə rəhbərlərindən -Stalindən, Nəriman Nərimanovdan, Mir Cəfər Bağırovdan, dünya şöhrətli bəstəkarlardan tutmuş bu günümüzün məşhur insanlarınadək, Üzeyir bəyi bəstəkar və ictimai xadim olaraq yüksək dəyərləndirmiş, haqqında yüksək sözlər demişlər. Bununla belə fikrimcə Üzeyir bəyə ən böyük dəyəri Azərbaycan xalqı vermişdir. Üzeyir bəy öz misilsiz xidmətləri və insani keyfiyyətləri ilə hər bir azərbaycanlının ürəyində özünə əbədi məskən salmışdır və onun cismani yoxluğundan 74 il keçməsinə baxmayaraq xalqın ona olan məhəbbət və rəğbəti nəinki azalır, əksinə daha da artır. Lakin onu da qeyd etməyi özümə borc bilirəm ki, onun haqqqında ən yüksək dəyəri həm də böyük şairimiz Səməd Vurğun vermişdir. O Üzeyir bəyi "Musiqimizin Peyğəmbəri" adlandırmışdır.***

Şairin oğlu, Azərbaycanın Xalq yazıçısı Yusif Səmədoğlu xatirələrində yazır ki, Səməd Vurğun ailəsi ilə birlikdə Kislovodskda istirahət edən zaman Üzeyir bəy də Yessentukidə dincəlirmiş. Bir gün atası onları da götürüb Üzeyir bəylə görüşə aparır. Yolda bərk-bərk tapşırır ki, görüşəndə Üzeyir bəyin əlindən öpərsiniz. Atasının bu sözü Yusifə bir qədər qəribə gəlir. Görüş zamanı Səməd Vurğunun övladlarının hər üçü Yusif də, Aybəniz də lap kiçik olan Vaqif də Üzeyir bəyin əlindən öpürlər. Üzeyir bəyin təkidlərinə baxmayaraq, ehtiram əlaməti olaraq Səməd Vurğun bütün görüş boyu oturmur. Görüşdən sonra Yusif atasından soruşur ki, nəyə görə biz Üzeyir bəyin əlindən öpməliydik. "Üzeyir bəy musiqimizin peyğəmbəridir. Peyğəmbərin əlindən öpərlər"-deyə Səməd Vurğun izah edir.

Səməd Vurğun da elə Üzeyir bəy qədər Böyük idi. Yaradıcılığı, poeziyası, dramaturgiyası, istedadı, ictimai fəaliyyəti, insanlığı, xeyirxahlığı, Vətənə, xalqa təmannasız xidmət və bağlılığı ilə. Bu hər şeydən əvvəl onun mənsub olduğu kokdən və süddən qaynaqlanırdı. Səməd Vurğun hələ uşaqlıqdan musiqiyə məftunluğu ilə seçilirmiş, fiziki cəhətdən zəif, cılız sısqa bir uşaq olan Səmədin istedadı elə uşaq vaxtından biruzə vermişdir. Uşaqlıqda atası Yusif ağadan saz çalmağı və aşıq havalarını oxumağı öyrənmişdi. Özünə ustad hesab etdiyi və pərəstiş etdiyi Böyük Azərbaycan şairi və ictimai-siyasi xadimi Molla Pənah Vaqifin nəslindən olan ana babası Kuhənsal ləqəbi ilə şeirlər yazan Mehdixan ağanın şeirlərini nənəsi Aişə(Aşa) xanımdan öyrənmişdi.

***"Ata anamız həssas qəlbli, mərhəmətli, təmiz və saf duyğulu, şair xəyallı, son dərəcə xəyalpərəst adamlar idilər. Hər ikisi məlahətli səsə malik, sinələri söz-söhbətlə dolu nəğməkar idilər. Səməd Vurğun ömrünün axırına qədər atasının "cürə" sazının sınıq qəlbə od səpələyən füsunkar səsini və anasının ecazkar laylasını xatırlardı....Lap kiçicik vaxtlarından musiqini, nəğməni tez mənimsəyir və gözəl rəqs edirdi. Atası "Ruhani" havasını çalar, balaca, sısqa və baldırları açıq Səməd isə oynayardı. Ondakı bütün incəlikləri və bədii zövqün rüşeyimini görən atası böyük iftixar hissi ilə təkrar edərdi: "Oğul bundan olacaq"( Mehdixan Vəkilov "Ömür dedikləri bir karvan yolu")***

1918-ci ilin sentyab ayınıda Qori müəllimlər seminaryası Qzaxa köçürülmüş və onun əsasında Qazax Müəllimlər Seminaryası təşkil edilmişdi."Eh! Firudinbəy, hardan biləsən ki, bu ürəkdə nə var?!"-deyərək semiunariyanın direktoru Firudin bəy Köcərlini ovsunlayaraq imtahan verib sminariyasya daxil olan uşaqlar arasında balaca Səməd də var idi. Seminariyada oxuduğu illər Səmədin həyatında yeni bir dövr açılır. Onun gözəl şeirlər oxuması və yazması, monoloqlar söyləməsi, məlahətli səsi, sazı və skripkanı məharət və ehtirasla çalması istər tələbələrin, istərsə də müəllimlərin diqqətini özünə cəlb edirdi. O, seminariyada təşkil edilən tamaşalarda aparıcı rollarda çıxış edir, "Leyli və Məcnun"da Məcnun, "Əsli və Kərəm"də Kərəm rollarını məharətlə ifa edirdi. Ədəbiyyat müəlimi Yusif Qasımov Səməddəki bu istedada və qeyri-adi qabiliyyətə yüksək dəyər verərək deirdi: "Bu Səməd fitneyi-dövran olacaqdır"

Seminariyanı bitirdikdən sonra Səməd bir müddət Qazaxda və Qubada müəllimlik edir. 1928-29-cu iilərdə O, Gəncə şəhərindəki məktəblərdə müəllim kimi fəaliyyət göstərir. Gəncədə yaşadığış illərdə bir çox şair və yazıçılar, musiqiçilər, sənət və ədəbiyyat adamları il tanış və dostluq edir. Bu insanlar arasında musiqiçilərin xüsusi yeri vardı. Bu baxımdan onun Xan Şuşinski və Fikrət Əmirovla münasibətlərinə diqqəti yönəltmək istərdim.

" ...Səməd Vurğun Xan Şuşinskinin səsini ilk dəfə ötən əsrin iyirminci illərində Gəncədə eşitmişdi. O vaxtdan da xanəndənin sənəti, ecazkar səsi onu məftun eləmişdi. Çox çəkmədən hər iki sənətkar şəxsən tanış olmuş və bu tanışlıq sonralar möhkəm və səmimi bir dostluğa çevrilmişdi. Şairin elə bir məclisi olmazdı ki, Xan orda iştirak etməsin. Xanəndənin səsinin "dəlisi" olan Səməd Vurğun özünün məşhur "Azərbaycan" şeirində onu xüsusi bir məhəbbətlə tərənnüm edir"(Tədqiqatçı Vasif Quliyev).

Bu hadisədən sonra şairlə xanəndə rastlaşırlar. Səməd Vurğun xüsusi bir şövqlə Xan Şuinskiyə - " Xan səni də saldım tarixə"- deyərək Azərbaycan şeirindən bu bəndi söyləyir;

*Könlüm keçir Qarabağdan,*
*Gah o dağdan, gah bu dağdan,*
*Axşamüstü qoy uzaqdan*
*Havalansın Xanın səsi,*
*Qarabağın şikəstəsi.*

Xan Şuşinski Böyük şairn bu şirin atmacasından məmnun olaraq eyni əhvalla cavab verir: "Səməd vallah mən tarixdəydim, mən öləcəm amma Qarabağ şikəstəsi qalacaq, hər dəfə bu ifamı eşidəndə, səsim gələndə, sən də xatırlanacaqsan..."

Şairlə xanəndənin növbəti görüşlərindən biri, həm də son görüşü 1955-ci ilin yayında məşhur İsa bulağında baş tutur. Tədqiqatçı-jurnalist Vasif Quliyev yazır:

"İsa bulağında bu iki dost elə səmimi, elə mehriban qucaqlaşdılar ki, uzun illər bir-birlərinin həsrətində olan doğma qardaşlar kimi görüşdülər.

***...Məclisin axırında Xan Səməddən xahiş etdi ki, bir-iki ağız desin...Şair tarzənə dedi:***

***- Aya, Allahyar, o tarı "Yetim segah" üstündə köklə, bəri ver!***

***Səməd tarı döşünə basıb, sarı simdə gəzişdi. Bir qədər keçməmiş meşəni yanıqlı və həzin bir səs bürüdü.***

***... Hamı heyrətlə Səməd Vurğunu dinləyirdi. O, son dərəcə aydın diksiya ilə Aşıq Ələsgərdən oxuyurdu.***

***... O gün Səməd Vurğunun İsa bulağında qurduğu məclis gecədən keçənədək davam etdi. Artıq dan yeri sökülürdü..."***

Səməd Vurğunun musiqiyə məftunluğunun göstəricisi olan daha bir xatirə. SSRİ Xalq artisti, məşhur bəstəkarımız Fikrət Əmirov həmişə Səməd Vurğunun poeziyasını yüksək dəyərləndirmiş, Azərbaycan xalqının üç böyük oğlunu - Üzeyir Hacıbəyli, Bülbül və Səməd Vurğunu "sənətimizin parlaq məşəlləri", "üç müdrik sima" adlandırmışdır. O, 1950-ci ildə məşhur "Azərbaycan suitası"nı müvəffəqiyyətlə tamamlayır. Süitadakı sırf milli xarakterli melodiyalar, zəngin orkestrləşdirmə Səməd Vurğunun şeriyyətindən ilhamlanaraq qələmə alınmış, əsər Səməd Vurğuna həsr olunmuşdur. Əsəri heyranlıqla dinləyən Səməd Vurğun: "Elimizin böyük bəstəkarı Fikrət Əmirovun "Azərbaycan süitası" əsərini dinlədim. Təəssüratlarım, sevincim o qədər çoxdur ki, onları yazmaqla bölüşə bilmərəm. Təkcə onu deyə bilərəm ki, Fikrət elə bir əsər yaradıb ki, məni qaldırdı çıxartdı Kəpəzin başına..." (Səadət Təhmirazqızı)

Bu yazıda qeyd olunduğu kimi hələ lap uşaqlıqdan Səməd Vurğunun məlahətli səsi, gözəl saz və skripkada ifa etməyi var idi. Lakin bir gerçəkliklə barışmaq lazımdır ki, hər tərəfli istedad sahibi olan bu insan da poeziya, şairlik musiqiyə üstün gəldi. Bununla belə Səməd övladlarını musiqi ilə böyütmək istəyirdi və elə bu səbəbdən də o övladlaının hər üçünə musiqi təhsili vermişdi. Onların hər üçü- Yusif də, Aybəniz xanım da, Vaqif də Bülbül adına orta ixtisas musiqi məktəbini bitirmişdilər. Vaqif Səmədoğlu isə sonradan həm də Konservatoriyanı bitirmişdi və Konservatoriyanın professoru idi... Lakin onun musiqiyə vurğunluğu bununla bitmirdi. O, Azərbaycanın görkəmli musiqiçiləri, xanəndələri, bəstəkarları,müğağənniləri ilə yaxın dostluq edir,onlarla birgə yaradıcılıq işləri qururdular. Səməd Vurğun klassik xanəndələrdən Cabbar Qaryağdıoğlu, Məşədi Cəmil Əmirov, Keçəçioğlu Məhəmməd, İslam Abdullayev, Malıbəyli Əsgər, Musa Şuşinski və başqaları ilə şəxsən tanış olmuş, yazılarında və çıxışlarında onların sənətinə yüksək qiymət vermişdir.

Böyük şairin musiqiyə qeyri-adi sevgisi Üzeyir bəylə də dostluq əlaqələrinin yaranmasına səbəb olmuşdu. Onun Üzeyi bəy Hacıbəyli ilə ilk qiyabi tanışlığı seminariyada oxuduğu illərdə Üzeyir bəyin əsrləri ilə tanışlıqdan başlayırdı. Üzeyir bəyin musiqisi Səmədi gözə görünməz tellərlə bir cazibə qüvvəsi kimi özünə çəkirdi. Və Səməddə bu Böyük İnsan və Böyük bəstəkarla ünsiyyət qurmaq hissi onu tərk etmirdi. Bu iki Böyük şəxsiyyətin dostluğu Səməd Vurğun Moskvadan Bakıya qayıtdıqdan sonra-1931-32-ci illərdən başlayır. Həmin illər artıq Üzeyir bəy keçmiş SSRİ -də və dünyada tanınan məşhur bir bəstəkar idi. Səməd Vurğunun isə istedadı getdikcə parlayır, yaradıcılığı geniş kütlələrii özünə cəlb edirdi. 1934-cü ilin iyun ayında, respublikamızda mühüm hadisələrin cərəyan etdiyi bir dönəmdə, Azərbaycan ədəbiyyatının və musiqisinin inkişafında sonralar mühüm rol oynayan və əlamətdar bir hadisə kimi tarixə düşən Azərbaycan Yazıçılar İttifaqı və Bəstəkarlar İttifaqı yaradıldı.

**(ardı var)**

# 50 ildən sonra görüş!

**14 sentyabr 2022- ci ildə ölkəmizin nüfuzlu ali təhsil müəssisələrindən olan Azərbaycan Tibb Universitetində həmin universiteti 1972- ci ildə bitirmiş ( o vaxtkı Azərbaycan Dövlət Tibb İnstitutu) məzunlarının " Görüş-Toplantısı" keçrilmişdir.**

Tədbir ilkin olaraq universitet şəhərciyindəki Vətən müharibəsində şəhid olmuş Azərbaycan Tibb Universitetinin tələbə və məzunlarının xatirəsinə ucadılmış abidənin ziyarət edilməsi və "ATU-nun 1972- ci il məzunları adından" əklil qoyulması ilə başlanıldı. Bütün tədbir iştirakçıları tərəfindən qələnfirlər düzüldü. Sonra tədbir ATU-nun 3 saylı tədris korpusunun (əsasən bu korpus Anatomiya korpusu kimi tanınır) görüşə toplanmış məzunların düz 56 il əvvəl yəni 1966- cı ilin sentyabr ayının 1- də ilk dərs keçdikləri Anatomiya kafedrasının məhşur yarım dairəvi auditoriyasında davam etdirildi.





Tədbiri giriş sözü ilə açan Universitetin tədris və müalicə işləri üzrə prorektoru professor Sabir Əliyev ATU-nun rektoru professor G.Gəraybəylinin toplantı iştirakçılarına ünvanladığı təbriki çatdırmaqla yanaşı, toplantıda iştirak edən ixtisasca həkim olan Millət Vəkilləri Musa Quliyev və Sədaqət Vəliyevanı salamladı. Qarabağ müharibəsi, 44 günlük tarixi qələbəmiz və eləcədə son günlərdə düşmən təxribatının qarşısının alınmasında şəhid olmuş əsgər və zabitlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Prorektor həmçinin son illərdə ATU-nun yüksək nailiyyətləri, o cümlədən ötən il Beynəlxalq Seritifikasiya Komissiyasından müvəffəqiyyətlə keçməsi barədə məlumat verərək, bu günki tədbirin də tələbələr arasında ruh yüksəkliyinə səbəb olacağına əminliyini bildirdi və "Doğma Universitetinizə xoş gəlmisiniz " deyərək 1972-ci il məzunlarına səsləndi.

Söz tədbirin keçirilməsi üçün həmin ilin məzunlardan yaradılmış " Təşkilat qrupunun" rəhbəri Qarabağ müharibəsi Veteranı, Respublikanın əməkdar həkimi, ATU-nun dosenti Taryel Eyvzova verildi. T. Eyvazov ilk növbədə müraciətimizə yüksək diqqət göstərən " Doğma Universitetimizin" rəhbərliyinə, toplantıda iştirak edən bizə dərs demiş müəllimlərə və qonaqlara məzunlar adından təşəkkürünü bildirdi.

O, qeyd etdi ki, 1972-ci ildə Tibb İnstitunu cəmi 930 nəfər bitirərək həkim ixtisasına yiyələnmişdir ( 40 nəfəri axşam təhsili almışdır). Onlardan 18 nəfəri elmlər doktoru, 44 nəfəri elmlər namizədi, onlarca əməkdar həkim, müxtəlif medalların mükafatçıları vardır.

Məzunlar arasında Səhiyyə Nazirinin müavini, Bakı Baş Səhiyyə idarəsinin rəisi, Elmi-Tədqiqat mərkəzlərinin rəhbəri, kafedra müdirləri, rayonlarımızda səhiyyə şöbələrinin rəhbərləri və s. vəzifələrdə işləyənlərimiz olmuş və hazırda da vardır. Bu toplantıda hazırda 150 nəfərə yaxın məzun demək olar ki, Ölkəmizin bütün bölgələrindən iştirak edirlər.

Ancaq təəssüf hissi ilə bildirirəm ki, tələbə yoldaşlarıımız arasında dünyasını dəyişənlərimizdə vardır. Biz onların və həmçinin rəhmətə gedən müəllimlərimizin əziz xatirəsini daima hörmətlə yad edirik. Görüşdə iştirak edən bütün iştirakçıları əhatə edəcək " Xatirə Kitabı"nın da hazırlanacağı bildirildi.

Toplantıda məzunlardan ə.e.x., professor Qalib Qarayev, BBSİ-nin sabiq rəisi, əməkdar həkim Elmira Əliyeva, Tərəqqi medalı mükafatçısı Məhəbbət Qəmbərova, hazırda Moskva şəhərində həkim işləyən Nailə Ələkbərova, Naxçıvandan gəlmiş Ələkbər Zeynili, həkim şair - publisist Zakir Ağdamlı, Şəkidən gəlmiş əməkdar həkim Kifayət Həmidova və başqaları çıxış edərək bu günün, süvinc və həyacanının, ömrü boyu yaddan çıxmayacağını bildirməklə, görüşün təşkilatçılarına və universitet rəhbərliyinə öz minnətdarlıqlarını bildirdilər.

**Toplantının ən maraqlı, yadda qalan və məzunlar üçün təsirli hissələrindən biri də sonda ağ xalatlı üç nəfər hazırkı tələbənin məzunları yüksək səviyyədə təbrik etmələri oldu. Sonda hamı bir araya gələrək xatirə şəkli çəkdirildi və hər ilin sentyabr ayında imkan daxilində "Görüş" keçirilməsi arzu olundu.**

**Təşkilat qrupu adından:**
**Taryel Eyvazov**

# Xalq artisti: "Belə filmlərdən o qədər də xoşum gəlmir"

***Ömrünü səhnəyə, kinoya həsr etmək üçün doğulan, uzun bir yolun ağına düşüb, yolçuluq, "səyyahlıq" edən sənətkarlar var. A. Kamyü demişkən: " Əsl sənətkarlar zaman içərisində yol gedən səyyahlardır. "Belə "səyyah"lardan biri də Xalq Artisti Vidadi Həsənovdur.***

**-Bir neçə ay əvvəl Kinematoqrafçılar ittifaqına yeni sədr təyin olundu. Bir aktyor kimi bu yenilikdən gözləntiniz nədir?**

-Əvvəla onu deyim ki, mən heç bir ittifaqın üzvü deyiləm. Bilmirəm, bu yaxşıdı, ya pis? Bəlkə də, indi deyəcəyim söz sizə lap qəribə gələcək. Amma, mənim bu yeni təyinatdan xəbərim yoxdur. Siz dediniz, eşitdim.

**-Hətta?.. Görünür, sosial şəbəkələrdən az istifadə edirsiniz?**

-Demək olar ki...

**-"M Teatr" artıq yeni məkanda fəaliyyət göstərir. Hansı yeniliklər gözlənilir? Heyətinizdə yeni aktyorlar var?**

-"M Teatr"(Mənim Teatrım) 2016-cı ildə yaranıb. Müstəqil teatr olduğumuz üçün həyat və mühit şərtləri o qədər də asan deyil. Bir vaxtlar, yəni yarandığımız dövrdə kiçik bir məkan icarəyə götürmüşdük, məşq edirdik, tamaşa hazırlayırdıq. O zaman teatrların kirayə haqqı da münasib idi. Sonra hər şey bahalaşdı. Və biz icarəyə götürdüyümüz məkandan çıxdıq. Teatrları icarəyə götürməyə heç gücümüz də çatmadı. Müəyyən müddət, hətta, fəaliyyətsiz qaldıq.

### "Üç sadə cümlədən başladıq. Üç aydan sonra bir teatr yarandı"

**-Ancaq dövlət teatrları sizə dəstək olurdu...**

-Bəli, Azərbaycan Dövlət Kukla Teatrının rəhbəri Rəşad Əhmədzadə, uzun müddət ADMİU-un Tədris teatrında bizə imkan yaradıldı. Amma bu, ara-sıra olurdu. Bizə isə mütamadi çıxış etmək istəyirdik. Artıq, bir müddətdir bizim öz məkanımız var. Qanun nəşriyyatının təsisçisi, mənim yaxın dostum, "kitab adam" dediyim Şahbaz Xuduoğlu bir gün iş yerini mənə göstərəndə, boş bir otağa girdik. Otağı mənə göstərib soruşdu ki, " Hocam, burda nə etmək olar? Dedim: teatr. Dedi: Olsun"! Hər şey bu üç sadə cümlədən başladı. Üç aydan sonra bir teatr yarandı...



Ötən mövsüm 7 həftə tamaşa oynadıq. Yeni mövsümün açılışına hazırlaşırıq, yeni tamaşalarımız olacaq. Bizdə həm peşəkar aktyorlardan, həm də, " M.Teatr juniors" deyilən istedadlı gənclərdən ibarət iki truppa var. Artıq gənclərimizin də tamaşası hazırdı. Bu tamaşanı da yaxın zamanlarda tamaşaçılara təqdim edəcəyik. Gənclər artıq yeni bir tamaşa üzərində də işə başlayıblar...

Bizim teatrda müxtəlif dövlət teatrlarında çalışan peşəkar aktyorlar işləyirlər. Onları tamaşaçılar çox gözəl tanıyırlar. Sadəcə bizə yeni qoşulan Oksana Rəsulova və Günəş Mehdizadədir. Oksana Rəsulova teatrda aktrisa kimi debüt edir.

**-İstedadlı aktyorun özünü göstərməsi üçün nə lazımdır?**

- Şə - ra - it. Başqa bir şey yox, yalnız şərait.

**-Günümüzdə o şərait var?**

-Var, amma... 37 ilə yaxındır ki, AMDİU-da müəllim işləyirəm. Hər il universiteti neçə- neçə istedadlı gınc bitirir. Amma, onların əksəriyyəti özlərini realizə etməyə yer tapa bilmirlər. Dövlət teatrlarında işə düzəlmək çox çətindir. Orda rəqabət də böyükdür. İstedadlı gənclərin özlərini göstərməsi üçün başqa məkanlar da olmalıdır. Bizim kimi özəl teatrlar çox olsa, onların özlərini realizə etmək, göstərmək imkanları da daha çox olar.

**-Dövlət teatrlarının rəhbərləri hər il ADMİU-ni bitirən gənclər üçün dövlət teatrlarında vakant yer ayrılması təklifini irəli sürə bilməzlərmi?**

-Onlar bu fikri irəli sürə bilər... Amma, bu işin icrası teatrın rəhbərlinin səlahiyyətində deyil. Dövlət teatrlarında bir vakant yerin ayrılması üçün Nazirlər Kabinetinə qədər gedib çıxmaq lazımdır. Bu, heç də asan iş deyil. Düşünürəm ki, hər bir teatrın rəhbərliyi istəyər ki, onun teatrında istedadlı gənclər olsun. Amma, o gənclərin ora gəlməsi üçün şərait və imkan məsələsi... *(gülümsəyir)*

### "Özümü çox da böyük söz adamı hesab etmirəm"

**-Siz, həm də, söz adamısınız...**

- Hə, danışa bilirəm yəni... (gülür). Özümü söz adamı hesab etmirəm.

Çünki söz adamı olmaq üçün sözlə peşəkarcasına məşğul olmaq lazımdır. İnsan gərək bu işə özünü həsr etsin. Mən isə daha çox teatrla məşğulam.

**-Ən son nə yazmısınız?**

-Çoxdandır şeir yazmıram... Amma, bu ərəfədə tərcümə etdiyim pyeslərdən ibarət bir kitabım çap olunub. Uzun illərdi universitetdə işlədiyimə görə, tələbələrə gərəkli olan bir çox əsərləri səhnələşdirirdim. Bu səhnələşdirmələrdə hadisələr bir məkanda baş verir, personajların sayı çox deyil. Bu da tələbə sənətçilərin işini xeyli adanlaşdırır. Beləliklə "Səhnələşdirmələr toplusu" adlanan dördüncü kitabım da ışıq üzü gördü.

**-Müharibə haqda çəkilən bilmlərə baxanda orda nəyi görmək istəyirsiniz, amma görə bilmirsiniz?**

-Müharibə haqda film görmək istəmirəm, yəni belə filmlərdən o qədər də xoşum gəlmir... Müharibə olmasa yaxşıdır. Müharibə olmasa, onun haqqında film də çəkilməz. Müharibə dəhşətli bir şeydir. Bu mövzuda çəkilən filmlərin birində mən də rol almışam - "Yalan" filmində. Yavər rolunu oynamışam. Müharibə elə bir şeydi ki, o, gəlib sənə şəxsən toxunmayana qədər insana romantik bir macəra kimi də görünə bilər. "Mən müharibəyə gedcəm və mütləq qəhrəman olacam!"- deyənlər bir şeyi də bilməlidirlər ki, insan birinci addımını atar və " axmaq güllə" deyilən qurşun gəlib, məhz, həmin adamı tapar... Vətən üçün yaşamaq, Vətən üçün ölmək qədər şərəflidir.

### "Hər şey də maliyyədən asılıdır"

**-Serial sektoru sizi qane edir?**

-Bilirsiniz, bir var arzu, bir də var reallıq... Hər şeyə real baxmaq lazımdır. Hal - hazırkı vəziyyətə baxsaq, demək olar ki, pis deyil. Bu şəraitdə, bu gerçəklikdə və bu maddi imkanlar içərisində bu iş görülürsə, pis deyil.

Amma, yaxşı da deyil - arzularımızdan baxsaq. Bizi çox şey qane etmir. Bax o çox şey maliyyədi - hər şey puldan asılıdır. Bizim də pulumuz çox olsa, inanın, sənətçilərimiz daha mükəmməl işlər ərsəyə gətirərlər.

**-Pandemiya dönəmində bütün qapalı məkanlar kimi teatrlar da bağlı idi. Səhnəni nə ilə əvəz etdiniz?**

- Kitablarımın üzərində işlədim. Nəşr etdirdim... Yarımçıq qalan bir sıra digər işlərimi də başa çatdırdım.

**- Cəmiyyət müasir dövrdə çəkilən filmləri niyə sovet dövründə çəkilən filmlərlə müqayisə edir?**

-Ümumiyyətlə, yaranan hər bir sənət əsərinin zamana ehtiyacı var. Hər şeyin mənası, məzmunu, dəyəri üstündən zaman keçəndən sonra daha da aydınlaşır. "Bəyin oğurlanması" filmi ilk dəfə ekrana çıxanda çoxları: " Bu, Vaqif Mustafayev, Ceyhun Mirzəyevin uzun metrajlı mozalanıdır" - deyib, lağ edirdilər. Amma, indi tamaşaçıların sevimli filmidir. Mən filmin bədii keyfiyyətindən yox, insanların bu ekran işinə münasibətindən danışıram...

Başqa bir məsələ: yer üzündə nə qədər insan varsa, o qədər də zövq var. Kimin üçünsə pis olan şey, hələ hamı üçün pis olan şey deyil və ya əksinə. Birmənalı olan şeylərdən qorxmaq lazımdı.

**-Yaxın zamanlarda YUĞ-da və "M Teatr" da tamaşaçıları hansı tamaşalarla sevindirəcəksiniz?**

- YUĞ dövlət teatrında M.F.Axundzadənin "Mürafiə vəkilləri" pyesi səhnələşdirilib. Bu yaxınlarda premyerası olacaq. Tamaşanın rejissoru Gümrah Ömərdir.

"M Teatr"da isə iki yeni tamaşa ilə başlamaq istəyirik. F.Kafka və gənc yazar Pərviz Seyidlinin mətnindən ibarət, yahudi musiqisi və gənc bəstəkar Azər Hacıəskərlinin musiqisi ilə sintez olunmuş "... instink" tamaşası - bu tamaşada Oksana Resulova və Ziya Ağa rol alıblar.

İkinci tamaşamız isə S.Sveyqin "Naməlum qadının məktubu" novellasının əsasında səhnələşdirilib. Bu tamaşada isə Günəş Mehdizadə, İlqar Cahangir, Ziya Ağa və Vüqar Hacıyev iştirak edirlər. Fürsətdən istifadə edib teatrsevərləri tamaşalarımıza dəvət edirik.

**Əntiqə Kərimzadə**

# «Ey gülüm, can həmdəmim»

**Aylar, illər ömür ölçüsüdür. Bir də onda ayılırsan ki, ömrünü yarı edibsən. Necə yaşamısan bu ömrü ? İllər həyatından payız küləyi kimi əsib keçməyib ki ? Mənə elə gəlir ki, bu sual çoxlarını düşündürmür və unuduruq ki, birdən soruşarlar : - Səndən sonra nə qalır?**

Bilirəm ki, haqqında yazmaq istədiyim Mövlud Ağamməd bu sualın cavabını verməkdə çətinlik çəkməyəcək. Daha doğrusu, bu sualın cavabını o, bu yaxınlarda nəşr etdirdiyi "Ey gülüm, can həmdəmim" ("Elm və Zəka" nəşriyyatı, Bakı - 2021) şeirlər kitabı ilə verib.

Mövlud Ağamməd kimdir? Çox mehriban, ilıq baxışlı, üzü nurlu bu insan, Qubada yazıb - yaradan ziyalılardan biridir. Son dərəcə sadə və səmimi olan, gülərüzlülüyü ilə seçilən Mövlud müəllim şərəfli, ömür yolu keçmişdir. O, 1961-ci ildə rayonun Zərdabi kəndində anadan olmuşdur. Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. Hazırda rayonun Amsarqışlaq kənd tam orta məktəbində ixtisası üzrə müəllim işləyən M.Ağamməd həm də Qubada fəaliyyət göstərən A.A.Bakıxanov adına "Gülüstan" elmi - ədəbi məclisinin üzvüdür. Şeirləri respublika mətbuatında, almanax və toplularda müntəzəm olaraq dərc olunur.



Şair "Sən ömrümün bənövşəsi" adlı kitabın müəllifidir. ("Müəllim" nəşriyyatı, Bakı - 2018) "Elm və Zəka" nəşriyyatında ötən ildə işıq üzü görən 248 səhifəlik "Ey gülüm, can həmdəmim" müəllifin oxucularla ikinci görüşüdür. Kitabda şairin müxtəlif illərdəəruz vəznində yazdığı seçmə şeirləri - qəzəllər, məsnəvilər, təxmislər, üçlüklər toplanıb. Sonda isə Mövlud müəllim haqqında şair dostları - Şahin Fazilin, Leylam Leylamın, Elsevər Əhliqürbətin, Səfər Səfərlinin və Məmməd Qədirin yazdığı şeirlər yer almışdır.

İlk bölmə "Qarabağım - qan yaddaşım" adlanır. Kitabın redaktoru Şahin Fazil onu "Mövlud Ağammədin ön sözü" adlandırır. Bölmədəki bütün şeirlərin bir ünvanı, bir cür qəhrəmanları olsa da şeirlərdəki əsas xətt azadlıq, vətənpərvərlik, bütövlük, qəhrəmanlıqdan keçir. Şair "Şəhidlər ölməz" şeirində şəhidin öz dilindən belə deyir :

*Yenə mən bir neçə günlük gedirəm, tez gələcəm,*
*Bu mənim son gedişimdir, ola bilsin öləcəm.*

*...Savaşıb zərb ilə düşmənlərə qan udduracam,*
*Nə qədər səbr eləsəm, bil, onu siznən böləcəm.*

*Qapısın son dəfə açmaq ilə son mənzilimin,*
*Deyirəm, bəsdi bura, orda da az dincələcəm.*

Bəli, ən ali, müqəddəs və şərəfli olan şəhidlik zirvəsinə yüksələnlər daim qəlblərdə yaşayacaqlar. Vətənin, millətin yolunda canlarını fəda edənlər hər zaman hörmətlə, qürurla anılacaqlar.

Mövlud müəllimi şeir yazmağa vadar edən nədir, görəsən? Tərəddüdsüz cavab verərdim :

- Yaşadığımız bu gəldi - gedər dünyanın dərdlərini duymaq, dərk etmək və sözlə hikmətə çevirib oxuculara çatdırmaq istəyi. Əlbəttə, bu dərdləri poeziya dili ilə ifadə etmək üçün insanda həssas qəlb, incə duyğu və həmin dərdləri yaşaya bilmək, onları anlamaq bacarığı, ziyalılıq, dərin təfəkkür, vətənə, öz elinə, obasına, xalqına böyük məhəbbət olmalıdır. O, "Xəlvət çəkirəm dərdimi ..." adlı qəzəlində yazır :

*Xəlvət çəkirəm dərdimi, pünhandı deyirlər,*
*Zülmət gecələr ömrü çıraqbandı deyirlər.*

*Heç vaxtı könül dərd eləməz həmdəmi yoxdur,*
*Aşiqlərə qəm dərdinə dərmandı deyirlər.*

"Qəzəllər" bölməsindəki 245 lirik şeirin 14-ü 7 beytlik, 3-ü 6 beytlik, cəmi 1-i 8 beytlik, qalanların hamısı 5 beytlikdir.

Aydın məsələdir ki, qəzəlin "məqtə" beytində müəllif təxəllüsünü, ya da adını işlədə bilər. Amma maraqlıdır ki, Mövlud müəllim qəzəllərinin elə hamısının "məqtə" beytində yalnız adını işlədir. Məsələn;

*Bəsdir bu qədər tərsinə fırlanmağı, Mövlud,*
*Dünyanı alıb öz yerinə qoydu adamlar.*
*"Dünyanı oyuncaq yerinə qoydu adamlar".*

Klassik şərq şeir növü olan qəzəlin bütün dövrlərdə başlıca mövzusu məhəbbətin tərənnümü olmuşdur. Hətta bir çox şairlər eşq və məhəbbətin, sevginin gözəlliyinin təsvirini qəzəl adlandırırlar.

Mövlud müəllimin sevgi şeirləri çox səmimidir, onlarda lirizm çox güclüdür. Oxucu özünü hiss edir bu şeirlərdə.

*Sənə, ey sevgili yar, bir gileyim var mənim,*
*Yetirər badi - səba, bir diləyim var mənim.*
*"Sənə, ey sevgili yar, ..."*

Amma Mövlud müəllimin məhəbbət mövzusundakı qəzəlləri ilə yanaşı, həm də əxlaqi, tərbiyəvi, fəlsəfi və s. mövzularda yazılmış qəzəlləri də vardır. O, qəzəllərini hansı formada yazır yazsın, ahəngdar vəzndə və gözəl sözlərlə yazır, nəcib fikirlər ifadə edir. Odur ki, onun qəzəlləri oxucuda xoş əhval oyadır, ona ruhi təskinlik verir. Fəlsəfi mənada yazdığı "Çox istəmə var - dövləti ..." şeirində olduğu kimi :

*Çox istəmə var-dövləti, kim sağ olacaqdır,*
*Onsuz da qalan beşcə metir ağ olacaqdır.*

*Aşiq nə qədər qəm çəkə, əlbəttə usanmaz,*
*Çəkdikcə, qəmin çarəsi yox, dağ olacaqdır.*

İnsan qəribədir, çox qəribədir. Bəzən adi bir hərəkətdən inciyir, bir soyuq münasibətdən ürəyinin başına od düşür. Hansı daşqəlbininsə nadan hərəkəti bir ömür yolunu yarıda kəsir. Belə vaxtlarda M.Ağamməd dövrandan gileylənir :

*Zülm eyləyərək məzlumu çəkmiş dara dövran,*
*Aşiqlərinin bəxtini etmiş qara dövran.*
*Bilməm, bu gedişnən gedəcəkdir hara dövran ?*
*İş axşamacan - əldə qabar, beldə palan var,*
*Min fitnə - fəsad, min cürə fel, dildə yalan var,*
*Çox dalda qalıbsan, hələ yat, layla çalan var.*

Şairin bu hissləri bizlərə çox tanışdır, doğmadır. Düşünürəm ki, zəmanənin dərdini çəkə-çəkə ömrü boyu ağrı-acılarla yaşamaq şairlərin, yazıçıların alın yazısıdır. Və heç şübhəsiz ki, dünyaya min dəfə gəlsəydi, yenə də bu taleyi seçərdi Mövlud Ağamməd. Çünki xisləti belədir : insanlara hörmət, vətənpərvərlik, qanun - qaydaların pozulmasına barışmazlıq, türkçülük onun qanında, canındadır. M.Ağammədin necə həssas qəlbli, daima narahat vətəndaş şair olduğu onun şeirlərindən bəlli olur. Bəli, şair olmaq olar, amma vətəndaş şair olmaq - ömrü boyu el-oba, torpaq təşəbbüsü çəkərək yaşamaq hər şairə nəsib olmur. Bəli, dünya belə dünyadır, kimi yaxşılıqla, kimi də pisliklə bu dünyada ad çıxarır, iz qoyur. Bu bir həqiqətdir, Mövlud müəllim. Gecənin gündüzü əvəz etməsi, fəsillərin dəyişməsi, ayın və günəşin olması kimi bir həqiqət.

Məsnəvi klassik Azərbaycan epik şeiri də ən geniş yayılmış formalardan biridir. Kitabın "Məsnəvilər" bölməsində M.Ağammədin "Dünyanı yerindən eləyib mərdiməzarlar" və "İnsanlığı bir zərbə ilə yıxdı təpiklər" məsnəviləri, "Təxmislər" bölməsində isə Şahin Fazilin, M.Füzulinin, M.Ş.Vazehin, B.Pünhanın, S.Səfərlinin, Lilpar Cəmşidqızının qəzəllərinə, Elsevər Əhliqürbətə yazılmış təxmisləri, şair Mahir Diniyevin qəzəlinə yazılmış təştiri verilmişdir.

Mövlud Ağamməd yaradıcılığında diqqət çəkən məqamlardan biri də onun yeni forma, düşündürücü ifadə deyimləridir. "Yerdən göyə qalxmaqda ikən ah ilə fəryad", "İt getdi, ipin saxlamağından danışırlar", "Yoxdursa maya ət qopacaq dırnağımızdan", "Beş barmağı bir yumruğa döndərməsə gəl əl", "Tüpürüm sizdə olan namusa ki, it də yeməz", "Dəvət elədin gizlicə, pünhan, gecə gəldim", "Zülfün darayan şanə olum, bil, mənə bəsdir", " Görəcəksən, xəbərin yoxdu, gəlib elçilərin", "Yenə gəlmək diləsən, gəlmə, bu dünya ələnir", "İnsanlığı bir zərbə ilə yıxdı təpiklər".

Qeyd edim ki, tarix elmləri doktoru, professor Şahin Fazil kitaba yazdığı "Quba ədəbi mühitinin işıqlı şairlərindən biri" adlı "ön söz"də yaradıcılığına şeirlərindəki belə ifadələrə yüksək dəyər verərərk Mövlud müəllimə deyir : "Sənin bədii cəhətdən qüvvətli poetik beytlərin çoxdur, lap çoxdur".

Mövlud Ağamməd bir insan, bir şəxsiyyət kimi də çox böyük keyfiyyətlərə malikdir. O, olduğu kimi görünən insanlardandır. Təvazökarlığı, səmimiliyi, ən əsası isə ləyaqəti, vətənpərvərliyi onu bir insan kimi hamının gözündə ucaldır. Aristotel deyirdi ki, "Ləyaqət tərbiyənin məhsuludur. Ən böyük tərbiyə insanın ləyaqətli olmasıdır". Doğrudan da, insanın ən böyük bəzəyi onun xüsusiyyətidir. Mövlud Ağamməd kimi.

İçində sevgi "yarası" olan, "Fələyin dərdi - qəmin keyfinə dəymək"lə, "əyrini - əymək"lə işi olmayan, "Kim zülmə dözür, əsla sitəmkarə əyilməz, çox çəkdirəcək cövri - cəfa, dövrana, zillət". - deyən şairi heç bir dövran, həyatın heç - bir tufanı, boranı əyə bilməz. Əyə bilmədi də. Çünki insan dərd çəkdikcə, saflaşır, daxilən, mənən təmizlənir.

Şərəfli ömür sürüb təmiz yaşamaq hər kəsə nəsib olmur. O insan xoşbəxtdir ki, özündən sonra yaxşı iz qoyub gedir. Amma həyat çox amansızdır : insan itirməsə, qazana bilməz. Düşünürəm ki, Mövlud Ağamməd də həyatda nə vaxtsa kimi isə, nəyi isə itirib. Amma bu gün qazandıqları da çoxdur. Ədəbi mühitdəki hörməti, cəmiyyətdəki mövqeyi, gözəl ailəsi, dostları, ən əsası isə yuxusuz gecələri, gərgin zəhməti bahasına başa gələn və onu hər zaman gələcək nəsillərə tanıdacaq neçə - neçə dəyərli əsərləri, kitabları ... Və bir də şərəfli şair - müəllim adı. Bütün bunlar bu gün onun fəxr edəcəyi meyarlardır.

**Mövlud Ağammədin istər nəsr, istərsə də şeir dili çox sadə və aydındır. Heç bir anlaşılmazlıq yoxdur. Onun sənətkar üslubu geniş oxucu qazanmağa qadirdir. Elə bu yolda Qubada fəaliyyət göstərən söz - sənət məbədgahı "Gülüstan" elmi - ədəbi məclisinin fəal üzvü, tanınmış müəllim, istedadlı şair, ən əsası isə əziz və dəyərli dostuma daha böyük uğurlar arzulayıram !**

**Şixəmməd Seyidməmmədov,**
**ADPU Quba filialının "Təbiət fənləri və onun tədrisi metodikası" kafedrasının baş müəllimi, AYB və AJB-nin üzvü**

## MİLLİ KİTABXANADA "MUSTAFA ÇƏMƏNLİ - 75" ADLI ƏNƏNƏVİ SƏRGİ OXUCULARA TƏQDİM OLUNUB



**Görkəmli nasir, publisist, Əməkdar mədəniyyət işçisi Mustafa Çəmənlinin 75 illik yubileyi münasibətilə Azərbaycan Milli Kitabxanasının Sərgi zalında "Mustafa Çəmənli - 75" adlı ənənəvi sərgi açılıb.**

M.Çəmənli bədii yaradıcılığa tələbəlik illərindən başlamışdır. "Ləpirlər" adlı ilk hekayəsi 1973-cü ildə "Mingəçevir işıqları" qəzetində dərc olunmuşdur. Yazıçının uzun araşdırmalarının nəticəsi olan "Xallı gürzə", "Ölüm mələyi" tarixi romanları oxucular tərəfindən ən çox oxunan kitabların siyahısına düşmüşdür. Qarabağ xanı, Şuşa qalasının qurucusu Pənahəli xan Cavanşirin həyat və yaradıcılığından bəhs edən "Xallı gürzə" romanı 5 dəfə böyük tirajla nəşr edilmiş, tarixi romanlar arasında öz layiqli yerini tutmuşdur.

Mustafa Çəmənli Azərbaycanın Milli Qəhrəmanları - Asif Məhərrəmov haqqında yazdığı "Fred Asif" sənədli romanı, Mübariz İbrahimovdan bəhs edən "Mübariz" povesti, "Ruhların üsyanı", "Üçyaşlı əsir", "Yaddaslarda yaşamaq haqqı", "Mən olmayanda dostum ol", "Ürəyimdən kimlər keçdi" və b. kitabları oxucuların dərin rəğbətini qazanmışdır.

Mustafa Çəmənlinin xalqımız üçün gördüyü ən dəyərli xidmətlərdən biri də Azərbaycanın mədəniyyət və incəsənət sahəsində xidmətləri olan görkəmli sənətkarlar haqqında ərsəyə gətirdiyi kitablardır. "Nəğməli xatirələr" (Əbülfət Əliyev haqqında xatirə-povest), "Muğam dünyasının Xanı", "Səsin ruhu" (Səxavət Məmmədov haqqında), "Oxu, gözəl..." (Şövkət Ələkbərova haqqında), "Sənətkar ömrünün izləri" (Xanlar Haqverdiyev haqqında), "Əhməd Ağdamski", "Mənsuriyyə harayı" (Yaqub Məmmədov haqqında), "Mütəllim Mütəllimov", "Səhnəmizin ağçiçəyi" (Roza Cəlilova haqqında), "Leyli və Məcnun" - 100 il səhnədə" (sənədli-bədii ensiklopediya), "Sənət hekayələri" əsərləri belə gərgin əməyin nəticəsidir. Heydər Əliyev Fondunun "Azərbaycan Respublikasının Xalq artistləri" silsiləsindən nəşr etdiyi - "Arif Babayev - 70", "Habil Əliyev - 80", "Əlibaba Məmmədov - 80", "Əlibaba Məmmədov: Ürək deyir, yaşa hələ...", "Canəli Əkbərov - 70", "Ağaxan Abdullayev - 60" albom-kitablarının mətn müəllifidir. Bununla yanaşı onlarca kitabın tərtibçisi və ön sözün müəllifidir.

**Ənənəvi sərgidə Mustafa Çəmənlinin müəllifi, redaktoru, tərtibçisi olduğu kitablar, məqalələr, eləcə də haqqında yazılan kitablar nümayiş olunur.**

## Girmə qəlbimin bağına

**Girmə qəlbimin bağına, girmə qardaş! Dost-tanışlar, yaxınlar, yadlar tapdaq etdilər qəlbimi. Soydular, astarını çıxartdılar içimin. Dərdilər meyvəsini kal-kal, dəyməmiş. Apardılar ürəyimin bütün varını. Qopartdılar qəlbimin dərinliyində gizlətdiyim ən ümdə arzularımı. Yox etdilər sahilsiz xəyallarımı, mənəvi varımı. Qapdılar nəyim vardısa, talan etdilər müqavimətsiz içimi. Apardılar xəyal adlı incimi.. Kiçicik bir işıq ucu da qoymadılar qala içimdə. Hərdən tutub kövrək ucundan isinəm, qızınam. Kiçik, lap kiçik bir təsəlli tapam...**

Tapdaladılar, taladılar qəlbimin incikli, yaralı yarasını. Qopartdılar qaysağını. İnsafsız zalımlar heç uf da demədilər. Eh, artıq içim, qəlbim boşalmış, boş qalmış, qardaş! İndi orda bir arzu, istək baş qaldıra bilmir. Ora artıq xoş niyyət adlı bir varlıq girmir. Yaşam qəlbimin üzünə gülmür. Hər şeyi üzüb, kökünü kəsdilər orda. Oranın vaxtsız gəlmiş, çağrılmamış, üzlü qonaqları. İnsafsızlar...

Sən niyə ora tələsir, qaçırsan. Qəlbimin bağlı qapısını açırsan, qardaş! Axı onun da rahat, dinc yaşamağa mənəvi haqqı var. Onsuz da orada tapacağın bir şey qalmayıb artıq...

Girmə qəlbimin bağına, girmə qardaş! Azmz yolunu, yan keç oradan. Qoy o, sakit nəfəs alsın. Özü özlüyündə, özü ilə qalsın. Axı onu da Tanrı yaradıb. Qoy o da Allahın bir ağ gününü görsün. Boş olsa da yaşasın, xoş söz eşitsin. Ona da təbəssümlü ün yetsin.

**Girmə qəlbimin bağına, girmə qardaş! Artıq dincə qoymuşam uralanmış qəlbimi. Girmə qəlbimin bağına...**

**Adil Misirli**

Kürdəmir rayonu Atakişilik kənd ərazisinin sakini Eminov Əhliman Əliheybət oğluna məxsus kənd təsərrüfatı torpaq sahəsi - JN 239 nömrəli dövlət aktı itdiyi üçün etibarsız sayılır.

***

Şəhid Qaraisayev Teymur Ənvər oğlunun anası Qaraisayeva Sinəzər Hüseyn qızına verilmiş şəhidlik vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


Təsisçi və baş məsləhətçi: Aqil ABBAS

Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 96
Çapa imzalanmışdır: 16.09.2022